# Şəfa Təfsiri

*Fatihə surəsinin təfsiri*



İlahiyyatçı
CAMİR AĞAYEV

# Şəfa Təfsiri

# FATİHƏ SURƏSİNİN

## Quran ayələri və mötəbər hədislərlə təfsiri

**Müfəssir: İlahiyatçı Camir Ağayev**
**Redaktor: Məryəm Yəhyayeva**

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ

"Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik".

"İsra" surəsi, ayə 82.

Bütün Gürcüstan Müsəlmanları İdarəsi 2022

# MÜQƏDDİMƏ

Adətən bir əsərin dəyəri onun müəllifinin əzəməti ilə ölçülür. Belə ki, müəllif nə qədər əzəmətli olsa, əsər də bir o qədər dəyərli və əzəmətli olar. Qurani-Kərim Allah-taalanın əsəri, kəlamıdır və bu kitabın əzəməti Uca Yaradanımızın əzəmətindən, müqəddəsliyindən bir parçadır. Bu kitab Allah tərəfindən nazil edilmişdir. Qurani-Kərimdə Allah-taala bu kitabı vəsf edir və Quranın bir neçə əzəmətli cəhətlərinə işarə edir.

Allah-taala Qurani-Kərimin əzəmətini insanlara çatdırmaq istədikdə, onu nazil edəndən danışır. Belə ki, bir neçə ayədə Yaradanımız belə buyurur:

تَنْزِيلُ الْكِتَابِ مِنَ اللَّهِ الْعَزِيزِ الْعَلِيمِ.

"(Quranın) nazil edilməsi yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahdandır..."[1]

تَنْزِيلٌ مِنَ الرَّحْمَٰنِ الرَّحِيمِ.

"(Bu Quran) Mərhəmətli, Rəhimli (olan Allah) tərəfindən nazil edilmişdir".[2]

تَنْزِيلًا مِمَّنْ خَلَقَ الْأَرْضَ وَالسَّمَاوَاتِ الْعُلَى.

"O, yeri və uca göyləri yaradan (Allah) tərəfindən nazil olmuşdur".[3]

---

[1] "Zumər" surəsi, ayə 1, "Əhqaf" surəsi, ayə 2, "Casiyə" surəsi, ayə 2, "Ğafir" surəsi, ayə 2.

[2] "Fussilət" surəsi, ayə 2.

[3] "Ta Ha" surəsi, ayə 4.

Bəli, qeyd etdiyimiz kimi, Allah-taala Qurani-Kərimin əzəmətini bəyan etdikdə, ilk öncə, onu nazil edənin əzəmətindən xəbər verir, buyurur ki, "bu kitab izzət, hikmət, elm sahibi, Mərhəmətli, Rəhimli, hər yaradılmışın Yaradıcısı, Xaliqi olan Allah tərəfindən nazil edilmişdir.

Qurani-Kərimin ikinci əzəmətli cəhəti onun nazil olunduğu şəxsdir. "Muhəmməd" surəsində belə buyrulur: "Rəbbindən Muhəmmədə haqq olaraq nazil edilənə (Qurana)..."[4]

Təbii ki, əzəmətli bir kitab əzəmətli Allah (c.c) tərəfindən nazil edilirsə, bu kəlamın qərarlaşdığı "yer" də bu əzəmətə layiq olmalıdır. Başqa sözlə desək, bu əzəmətli kitabın qərar tutduğu ruh, qəlb də əzəmət və nuranilik, müqəddəslik baxımından bu kəlama uyğun olmalıdır. Bu səbəbdən, Allah-taala sevimli Peyğəmbərimiz həzrət Muhəmmədi (s) Qurani-Kərimdə vəsf edir:

وَ إِنَّكَ لَعَلى خُلُقٍ عَظِيم.

"Həqiqətən, sən böyük bir əxlaqa maliksən".[5]

Allah-taala Qurani-Kərimin digər bir ayəsində həzrət Muhəmmədi (s) böyük mənəviyyata sahib olduğu və əzəmətli şəxs olduğu üçün bütün insanlara örnək qərar verir:

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللّٰهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللّٰهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللّٰهَ كَثِيراً.

"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"[6]

[4] "Muhəmməd" surəsi, ayə 2.
[5] "Qələm" surəsi, ayə 4.
[6] "Əhzab" surəsi, ayə 21.

Sevimli Peyğəmbərimiz (s) büsbütün gözəllik içindədir; həzrətin sözü, rəftarı, əxlaqı ən gözəl nümunədir, həmçinin ailə, əqidə, etiqad, dini, dünyəvi və s. məsələlərdə də bizim üçün mükəmməl bir örnəkdir. "Gözəl örnək" dedikdə Peyğəmbərimizin (s) hər sözünün, əməlinin gözəl olduğu nəzərə çatdırılır. Beləliklə, həzrət Peyğəmbər (s) hər cəhətdən gözəl bir örnəkdir. Bu isə o anlama gəlir ki, onda heç bir nöqsan yoxdur. Həzrət Muhəmməd (s) Allahın bəndəsi idi, lakin bəndəliyin ən uca zirvəsinə yüksəlmişdir və ona Qurani-Kərim nazil edilmişdir. Beləliklə də əzəmətli bir kitab əzəmətli Allah tərəfindən bax belə əzəmətli, müqəddəs bir şəxsin qəlbinə nazil edilmişdir!

Bəs, görəsən, Qurani-Kərimin özü necə vəsf edilir? Rəbbimiz müqəddəs kitabımızda belə buyurur:

اللهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتاباً مُتَشابِهاً.

"Allah sözün ən gözəlini bir-birinə bənzər, təkrarlanan bir kitab şəklində nazil etdi".[7]

وَ مَنْ أَصْدَقُ مِنَ اللهِ حَدِيثا.

"və Allahdan daha doğru danışan kim ola bilər?!"[8]

Buradan belə bir nəticə çıxır ki, bu kitab ən doğru danışan və ən doğru sözdür. Allah-taala Quranı belə vəsf etmişdir. Qurani-Kərimdə yer alan hekayələr, məsəllər, tarixi hadisələr, etiqad və əhkama aid olan məsələlərin hər biri ən doğru, ən gözəl şəkildə bəyan edilmişdir. Uca Yaradanımız "İsra" surəsində buyurur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ.

---

[7] "Zumər" surəsi, ayə 23.
[8] "Nisa" surəsi, ayə 87.

“Biz Qurandan möminlər üçün şəfa və mərhəmət olan ayələr nazil edirik”.[9]

“Bəqərə” surəsində isə belə bəyan olunur:

شَهْرُ رَمَضانَ الَّذي أُنْزِلَ فيهِ الْقُرْآنُ هُدىً لِلنَّاسِ وَ بَيِّناتٍ مِنَ الْهُدى وَ الْفُرْقان.

“İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir”.[10]

Qurani-Kərim təkcə müsəlmanlar üçün nazil olunmuş bir kitab deyil. Bəli, bu kitab bütün bəşəriyyəti hidayət etmək, Allah-taalanın həqiqi hidayət və səadət yoluna istiqamətləndirmək üçün nazil olunmuşdur. Bu kitab bütün insanlar üçün hidayət kitabıdır!

Bütün deyilənlərdən o qənaətə gəldik ki, Allah (c.c) Qurani-Kərimin əzəmətindən söz açdıqda ilk öncə onu nazil edənin, ardından isə nazil olunduğu şəxsin əzəmətini açıqlayır. Nəhayət, bütün bunlardan sonra bu kitabın, bu kəlamın öz əzəməti haqqında söz açır. Qurani-Kərimin əzəmətinə dair ayələr çoxdur. Biz burada müqəddəs kitabımızın üç əzəmətli cəhətinə işarə etdik. Nazil edənin əzəməti, nazil olunan şəxsin əzəməti və bu müqəddəs kalamın öz əzəməti.

Məsumların (ə) kəlamları Qurani-Kərimdən sonra ən dəyərli və ən doğru söz hesab olunur. Bu səbəbdən, Məsumların (ə) Quranın əzəməti haqqında buyurduğu hədislərə də nəzər salmağımız məqsədəuyğundur.

Sevimli Peyğəmbərimiz həzrət Muhəmməd (s) və Əhli-Beytin (ə) bu barədə çox sayda xütbələri, kəlamları mövcuddur. İlk öncə,

[9] “İsra” surəsi, ayə 82.
[10] “Bəqərə” surəsi, ayə 185.

Peyğəmbərin (s) bir xütbəsinə nəzər salmaq istərdik. Bunun ardından Məsum İmamlardan (ə) nəql olunmuş hədislərə işarə edəcəyik. Həzrət Rəsulullah (s) xütbələrin birində belə buyurur:

قَالَ رَسُولُ اللهِّ (ص): أَيُّهَا النَّاسُ إِنَّكُمْ فِي دَارِ هُدْنَةٍ وَ أَنْتُمْ عَلَى ظَهْرِ سَفَرٍ وَ السَّيْرُ بِكُمْ سَرِيعٌ وَ قَدْ رَأَيْتُمُ اللَّيْلَ وَ النَّهَارَ وَ الشَّمْسَ وَ الْقَمَرَ يُبْلِيَانِ كُلَّ جَدِيدٍ وَ يُقَرِّبَانِ كُلَّ بَعِيدٍ وَ يَأْتِيَانِ بِكُلِّ مَوْعُودٍ فَأَعِدُّوا الْجَهَازَ لِبُعْدِ الْمَجَازِ... فَإِذَا الْتَبَسَتْ عَلَيْكُمُ الْفِتَنُ كَقِطَعِ اللَّيْلِ الْمُظْلِمِ فَعَلَيْكُمْ بِالْقُرْآنِ فَإِنَّهُ شَافِعٌ مُشَفَّعٌ وَ مَاحِلٌ مُصَدَّقٌ وَ مَنْ جَعَلَهُ أَمَامَهُ قَادَهُ إِلَى الْجَنَّةِ وَ مَنْ جَعَلَهُ خَلْفَهُ سَاقَهُ إِلَى النَّارِ وَ هُوَ الدَّلِيلُ يَدُلُّ عَلَى خَيْرِ سَبِيلٍ... وَ لَهُ ظَهْرٌ وَ بَطْنٌ فَظَاهِرُهُ حُكْمٌ وَ بَاطِنُهُ عِلْمٌ ظَاهِرُهُ أَنِيقٌ وَ بَاطِنُهُ عَمِيقٌ لَهُ نُجُومٌ وَ عَلَى نُجُومِهِ نُجُومٌ لَا تُحْصَى عَجَائِبُهُ وَ لَا تُبْلَى غَرَائِبُهُ فِيهِ مَصَابِيحُ الْهُدَى وَ مَنَارُ الْحِكْمَةِ.

"Ey insanlar! Siz heç bir sabitliyi və qərarı olmayan bir dünyadasız (ki, bir tərəfdən bəzi şeylər əldə edir, digər tərəfdən isə bəzi şeyləri əldən verirsiniz). Siz özünüz də səfərdəsiniz, müsafirsiniz, vaxt da çox tez ötüb keçir; baxıb görürsünüz ki, günəş, ay, gecə, gündüz hər bir təzə şeyi köhnəldir (yəni heç nə öz təravətində, təzəliyində qalmır). Sizdən uzaq olan hər bir şeyi yaxınlaşdırır. (Təbii ki, günlər keçdikcə, aylar keçdikcə, sizdən uzaq olan şeylər sizə yaxınlaşır; ölümünüz, əcəliniz və irəlidə olan o qarşılaşacağınız uzaq hadisələr sizə yaxınlaşır). Sizin üçün vədə olunmuş hər bir şeyi sizin üçün gətirirlər. Elə isə bu uzun yol üçün özünüzə azuqə və yol xərci hazırlayın..."

"Elə ki gecənin qaranlığı, zülməti kimi fitnə-fəsadlar, qarışıqlıqlar sizi əhatə etdi, Allahın kitabından - Qurandan möhkəm yapışın, çünki o, şəfaəti qəbul olmuş şəfaətçi və təsdiq

edilmiş yoldur. Hər kim bu kitabı - Quranı, özü üçün rəhbər təyin etsə, bu kitab onu Cənnətə aparar. Hər kim bu kitabdan üz çevirib, ona arxa çevirsə, (bu fitnə-fəsadların, bu günahların nəticəsində) Cəhənnəmə gedər. Bu, ən düz yolu göstərir. (Bu, elə bir kitabdır ki, burada hər bir şeyin təfsiri, bəyanı, zikri var, haqq yolla batil yol bir-birindən ayırd edilir.) Bu kitabın zahiri, bir də batini var; həm zahiri, həm batini mənaları var. (Yəni bu elmi təkcə o zahirdə gələn hökmlər deyil). Zahiri hökmdür - Allah-taalanın hökmləri, batini isə elmdir. (Bu elm də hər kəsə açıq deyil, belə ki, bu elmdən Peyğəmbər (s) və onun Əhli-Beyti (ə) agahdır). Bu kitabın zahiri çox gözəldir, batini isə çox dərin və zəngindir. Bunun (o uca məqamda qərar tutmuş) biri birindən parlaq ulduzları var ki, o parlaq ulduzlara hər adamın əli çatmaz. Bu kitabın qəribəlikləri saya gəlməz, qəribəlikləri köhnəlməz. Bunda hidayət çıraqları var. (Quranla birgə olan, sanki, bir neçə çıraqla hərəkət edər; o nurun nə sağında, nə solunda, nə qarşısında, nə də arxasında olmaz, büsbütün nur içində olar). Bu kitabda hikmət mənbələri var, bu kitab hikmət mənbəyidir”.[11]

Həzrət İmam Sadiq (ə) buyurur: “Həzrəti Əli (ə) o gözəl kəlamlarının birində belə buyurub:

اعْلَمُوا أَنَّ الْقُرْآنَ هُدَى النَّهَارِ وَ نُورُ اللَّيْلِ الْمُظْلِمِ عَلَى مَا كَانَ مِنْ جَهْدٍ وَ فَاقَة.

“Bilin və agah olun ki, Quran gündüz hidayət edən, zülmət, qaranlıq gecədə isə nurdur!”[12]

---

[11] “Əl-Kafi”, c. 2, s. 598.
[12] “Əl-Kafi”, c. 2, s. 600.

Bəli, Həzrət (ə) buyurur ki, “gündüz hidayət kitabı, hidayət çırağıdır, gecə isə nurdur”. Beləliklə, aydın olur ki, Quranla birgə olan şəxsin nə gündüz nigarançılığı olar, nə də gecə.

عَنِ الرِّضَا عَنْ أَبِيهِ (ع) أَنَّ رَجُلًا سَأَلَ أَبَا عَبْدِ اللهِ ع- مَا بَالُ الْقُرْآنِ لَا يَزْدَادُ عَلَى النَّشْرِ وَ الدَّرْسِ إِلَّا غَضَاضَةً فَقَالَ لِأَنَّ اللهَ تَبَارَكَ وَ تَعَالَى لَمْ يَجْعَلْهُ لِزَمَانٍ دُونَ زَمَانٍ وَ لَا لِنَاسٍ دُونَ نَاسٍ فَهُوَ فِي كُلِّ زَمَانٍ جَدِيدٌ وَ عِنْدَ كُلِّ قَوْمٍ غَضٌّ إِلَى يَوْمِ الْقِيَامَةِ.

İmam Rzadan (ə) atası İmam Musa Kazimdən (ə) bunları nəql etmişdir: “Bir nəfər İmam Sadiqə belə sual verdi: “Nə üçün Quran tədris olunduqda, nəşr edildikdə hər gün təzələnir və köhnəlmir?” İmam Sadiq (ə) buyurdu: “Çünki Allah-taala bu kitabı müəyyən bir zaman üçün qərar verməmişdir, müəyyən insanlar, müəyyən dövrün cəmiyyəti üçün qərar verməmişdir. O, bütün insanlar üçün təzədir və hər bir qövmə görə təravətlidir”.[13]

İmam Sadiqdən (ə) başqa bir gözəl hədis də rəvayət olunur. Belə ki, Əli ibn Salim bunları nəql edir: “İmam Sadiqdən (ə) Quran barədə soruşdum, dedim: “Quran barədə nə deyə bilərsiz?” Həzrət (ə) buyurdu:

هُوَ كَلَامُ اللهِ وَ قَوْلُ اللهِ وَ كِتَابُ اللهِ وَ وَحْيُ اللهِ وَ تَنْزِيلُه.

“Bu Quran - Allah kəlamıdır, Allah-taalanın sözüdür, Allah-taalanın kitabıdır, Allah-taalanın vəhyidir və Allah-taalanın nazil etdiyidir”.[14]

Qurani-Kərimin əzəməti haqqında digər ayələr və Məsum-lardan (ə) nəql olunan hədislər mövcuddur. Biz bu qədərilə kifayətlənirik.

[13] “Biharul-Ənvar”, c. 89, s. 15.

[14] “Tövhidi-Səduq”, s. 224.

# "TƏFSİR" SÖZÜNÜN MƏNASI

Quranın təfsir və izahına keçmədən əvvəl təfsir elminə aid bir neçə mühüm məsələyə toxunmaq istərdik. "Təfsir" sözü lüğətdə "izah etmək" deməkdir. Məşhur lüğət mənbələrindən sayılan "Tacül-ərus" kitabında belə yazılıb: "تفسير" (təfsir) sözü "فسر" (fəsr) sözündən götürülmüşdür. "فسر" (fəsr) "izah etmək" deməkdir".[15]

Əllamə Təbatəbai "təfsir" sözünün terminoloji mənasına dair belə yazır:

هو بيان المعانى الآيات القرآنية والكشف عن مقاصدها و مداليلها.

"Təfsir" - Quran ayələrinin mənalarını, məqsəd və nəyə dəlalət etdiyini bəyan etməkdir".

Deməli, "təfsir" sözünün lüğəvi mənası "izah etmək", terminoloji mənası isə Quran ayələrinin mənalarını, məqsəd və nəyə dəlalət etdiyini izah etməkdir. Buna "təfsir" deyilir. Deməli, təfsirdə ilk növbədə Quran ayələrinin mənaları bəyan olunur, sonra isə ayələrin nəyə dəlalət etdiyi izah olunur. Həmçinin ayə və surələrin nazil olma səbəbləri və bu kimi məsələlər bəyan edilir. Qurani-Kərimi təfsir edən şəxsə "müfəssir" deyilir. Beləliklə, "təfsir" – "izah etmək", "müfəssir" – "izah edən" deməkdir, yəni Quranı izah edən. "Təfsir" sözü Qurani-Kərimdə bir dəfə işlədilmişdir. Bunu "Furqan" surəsinin 33-cü ayəsində müşahidə edə bilərik; burada sözügedən kəlmənin lüğəvi mənası, yəni "izah etmək" nəzərdə tutulmuşdur. Allah-taala buyurur:

وَلَا يَأْتُونَكَ بِمَثَلٍ إِلَّا جِئْنَاكَ بِالْحَقِّ وَأَحْسَنَ تَفْسِيراً.

---

[15] "Tacül-ərus", c. 7, s. 349.

“(Ya Rəsulum! Müşriklər) sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, Biz sənə (onun) doğrusunu və (onların gətirdikləri misallardan) izahatca daha yaxşısını gətirməyək”.[16]

“Təvil” “تاويل” sözü də Qurani-Kərimdə işlədilir və təfsir elmində bəhs edilən lüğətlərdən biridir.

“Təvil” “تاويل” sözü “əvl” “اول” sözündən əmələ gəlib. “Əvl” “اول” sözünün lüğəvi mənası “bir şeyi əslinə və həqiqətinə qaytarmaq” deməkdir. Daha dəqiq desək, bir mənanın sözün əsl mənasına və kökünə qaytarılmasına “təvil” deyilir.

Qurani-Kərimdə 17 dəfə “təvil” sözü işlədilmişdir: 5 dəfə Quran, 12 dəfə də Qurandan qeyri şeylər barəsində. Quran ayələri barəsində işlədilən yerlərdən birində “mütəşabeh ayələr”in həqiqi mənalarının izahı kimi mənalandırılır. Qurani-Kərimdə “Ali İmran” surəsində bunu müşahidə edirik:

هُوَ الَّذِيَ أَنزَلَ عَلَيْكَ الْكِتَابَ مِنْهُ آيَاتٌ مُّحْكَمَاتٌ هُنَّ أُمُّ الْكِتَابِ وَأُخَرُ مُتَشَابِهَاتٌ فَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِمْ زَيْغٌ فَيَتَّبِعُونَ مَا تَشَابَهَ مِنْهُ ابْتِغَاء الْفِتْنَةِ وَابْتِغَاء تَأْوِيلِهِ وَمَا يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللّهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ يَقُولُونَ آمَنَّا بِهِ كُلٌّ مِّنْ عِندِ رَبِّنَا وَمَا يَذَّكَّرُ إِلاَّ أُوْلُواْ الألْبَابِ.

“Kitabı sənə nazil edən Odur. O Kitabın bir qismi mənası aydın ayələrdir ki, bunlar da Kitabın anasıdır. Digərləri isə mənası aydın olmayan ayələrdir. Qəlblərində əyrilik olanlar fitnə-fəsad törətmək və istədikləri kimi yozmaq məqsədilə mənası aydın olmayanın ardınca düşərlər. Onun yozumunu isə Allahdan başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə deyərlər: “Biz onlara

[16] “Furqan” surəsi, ayə 33.

iman gətirdik, hamısı bizim Rəbbimizdəndir". Bunu isə ancaq ağıl sahibləri dərk edərlər".[17]

Bu ayədə Allah-taala buyurur ki, "nazil etdiyimiz ayələrdən bəziləri möhkəm, bəziləri isə mütəşabehdir". Ümumiyyətlə, Quranda mənası ilk baxışda aydın olan ayələr "möhkəm ayələr"dir. "Möhkəm ayələr" dedikdə, məsələn, aşağıdakı ayələr nəzərdə tutulur:

وَإِلَـهُكُمْ إِلَهٌ وَاحِدٌ لاَّ إِلَهَ إِلاَّ هُوَ الرَّحْمَنُ الرَّحِيمُ.

"Sizin məbudunuz birdir və Ondan başqa məbud yoxdur".[18]

مُّحَمَّدٌ رَّسُولُ اللَّهِ.

"Muhəmməd Allahın elçisidir".[19]

"Mütəşabeh ayələr" zahirdə bir məna, amma həqiqətdə başqa bir məna daşıyan ayələrə deyilir. Qeyd etdiyimiz kimi, "təvil" sözü Qurani-Kərimdə bir dəfə bu mənada, yəni mütəşabeh ayələrin əsl, həqiqi mənası kimi işlədilmişdir. Qurana aid işlədilən məna, əsasən, həqiqi məna və ayənin yozumunu ifadə edir.

Qurandan qeyri şeylər barədə işlədildikdə isə yuxu yozumu, işlərin hikməti və sirri, gözəl aqibət və digər mənalar daşıyır. Bu barədə yeri gəldikdə lazımi izahı verəcəyik.

Bütün alimlər ərsəyə gətirdikləri kitablarda Quran ayələrinin təvili deyil, təfsirindən söz açırlar. Çünki, Quranda mütəşabeh ayələrin sayı məhduddur və bu səbəbdən də Quranın bütün ayələrinin təvili deyil, təfsiri izah edilir. Düzdü, elə bir mənada, təvilin özü də təfsirin bir növüdür, çünki alim təvil ediləsi

---

[17] "Ali İmran" surəsi, ayə 7.

[18] "Bəqərə" surəsi, ayə 163.

[19] "Fəth" surəsi, ayə 29.

ayələrin izahını, təfsirini açıqlayarkən onların əsl mənasını çatdırır. Lakin “ayələrin təvili” dedikdə əsasən mütəşabeh ayələrin təvili nəzərdə tutulur. Ona görə də buna dair “təfsir” deyil, “təvil” sözü işlədilir.

“Təvil” sözünün bir mənası da ayənin batini mənasıdır. Ona görə də, “təvil” təkcə mütəşabeh ayələrin mənalarına deyilmir. Bir sıra möhkəm ayələrin də təvilləri (batini mənaları) var ki, bu, yalnız Məsum İmamlar (ə) tərəfindən bildirilir. Başqa sözlə desək, Məsumlar (ə) ayənin batini mənalarından birini izah edirlər ki, ayənin zahirində ondan söz açılmamışdır.

Həm “təvil”, həm “təfsir” sözü Əhli-Beyt (ə) hədislərində yer almaqdadır. Sevimli Peyğəmbərimiz (s) bir xütbədə belə buyurub: مَعَاشِرَ النَّاسِ هَذَا عَلِيٌّ أَخِي وَ وَصِيِّي وَ وَاعِي عِلْمِي وَ خَلِيفَتِي عَلَى أُمَّتِي وَ عَلَى تَفْسِيرِ كِتَابِ اللهِ عَزَّ وَ جَلَّ وَ الد.

“Ey insanlar, bu Əli ibn Əbutalib mənim qardaşımdır, mənim vəsiyyim, elmimin qərar tutduğu şəxsdir. Mənim ümmətimdə mənə iman gətirən hər bir şəxsin xəlifəsidir. Bilin və agah olun ki, Quran mənə nazil edilib. Məndən sonra Allahın kitabının təvili və təfsiri onun öhdəsindədir!”[20]

Bu xütbə təvil ilə təfsirin arasında fərq olduğunu göstərir. Həmçinin ona işarə edir ki, həqiqi təfsir elmi və ayələrin təvili də Əhli-Beytə (ə) məxsusdur.

[20] “Daneşnameye İmam Əli (ə)”, c. 10, s. 550, hədis: 4898.

# TƏFSİR ELMİNİN TARİXİ

Təfsir elminin tarixi Qurani-Kərimin nazil olmasına qayıdır. Bu elmin əsası Quranın nazil olması ilə qoyulub, yəni müqəddəs Kitabımız nazil olan gündən təfsirə ehtiyac duyulub.

İlk Quran təfsirçisi də elə həzrət Rəsulullahın (s) özüdür. Quran təfsiri Allah-taalanın Peyğəmbərin (s) öhdəsinə qoyduğu bir vəzifədir. Allah-taala "Nəhl" surəsində buyurur:

وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ.

"Biz onları açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən".[21]

Bu ayədə Allah-taala Quranın təfsirini insanlara bəyan etməyi Peyğəmbərin (s) öhdəsinə qoyur. Bununla da həzrət Muhəmməd (s) bir Allah elçisi qismində vəzifəsinə əməl edərək, Qurani-Kərimin ilk təfsirçisi və müfəssiri olmuşdur, o, insanlara Allah-taalanın maarifini çatdırırdı.

"Litubəyyinə linnasi" لِتُبَيِّنَ لِلنَّاسِ "İzah edəsən" ifadəsi onu göstərir ki, Qurani-Kərimin təfsirə, bəyana ehtiyacı var. Müqəddəs kitabımızda yer alan məsələlər, bəyan edilən kəlamlar, ümümi şəkildə bildirilmişdir, hətta şəriətə aid olan hökmlər də ümumi bir qanun şəklində açıqlanmışdır və məhz Allah Rəsulu (s) bunu insanlara izah etmişdir.

Ayədə buyrulur: "لِتُبَيِّنَ لِلنَّاسِ" "insanlara onlara göndəriləni izah edəsən"; "لِلنَّاسِ" "linnas" kəlməsindən də başa düşürük ki, Qurani-Kərimin təfsiri və maarifi bütün bəşəriyyət üçün nəzərdə

---

[21] "Nəhl" surəsi, ayə 44.

tutulub. Peyğəmbər (s) istər etiqad, istər əhkama aid məsələlər olsun, hər bir məsələ haqqında Allah-taalanın ayələrini izah edirdi və təfsirini insanlara çatdırırdı.

Allah-taala namaz və zəkat məsələsinə dair Qurani-Kərimin "Bəqərə" surəsində belə buyurur:

وَأَقِيمُواْ الصَّلاَةَ وَآتُواْ الزَّكَاةَ وَارْكَعُواْ مَعَ الرَّاكِعِينَ.

"Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin!"[22]

Şəriətə aid digər məsələlərdə də belə ümumi qanun şəklində ayələr nazil olmuşdur, amma onların necəliyi bəyan edilməmişdir. Belə ki, onların izahı Peyğəmbərin (s) öhdəsinə qoyulmuşdur. Hətta etiqadi məsələlərdə də Allah Rəsulu (s) Qurani-Kərimin ayələrini təfsir edirdi.

Sevimli Peyğəmbərimiz (s) və Əhli-Beyt (ə) Allah-taalanın vəsfləri, məad, nübuvvət, imamət və müxtəlif etiqadi məsələlərə dair izahlar verirdilər. Biz bunu Məsumların (ə) həqiqəti isbat edərkən izah etdikləri dəlillərdə də müşahidə edə bilirik. Əbu Bəsirdən nəql olunan hədis bunun bariz nümunəsidir:

عَنْ أَبِي بَصِيرٍ قَالَ: سَأَلْتُ أَبَا عَبْدِ اللهِّ (ع) عَنْ قَوْلِ اللهِّ عَزَّ وَ جَلَّ- أَطِيعُوا اللهَّ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِي الْأَمْرِ مِنْكُمْ فَقَالَ نَزَلَتْ فِي عَلِيِّ بْنِ أَبِي طَالِبٍ وَ الْحَسَنِ وَ الْحُسَيْنِ (ع) فَقُلْتُ لَهُ إِنَّ النَّاسَ يَقُولُونَ فَمَا لَهُ لَمْ يُسَمِّ عَلِيّاً وَ أَهْلَ بَيْتِهِ (ع) فِي كِتَابِ اللهِّ عَزَّ وَ جَلَّ قَالَ فَقَالَ قُولُوا لَهُمْ إِنَّ رَسُولَ اللهِّ (ص) نَزَلَتْ عَلَيْهِ الصَّلَاةُ وَ لَمْ يُسَمِّ اللهُّ لَهُمْ ثَلَاثاً وَ لَا أَرْبَعاً حَتَّى كَانَ رَسُولُ اللهِّ ص هُوَ الَّذِي فَسَّرَ ذَلِكَ لَهُمْ وَ نَزَلَتْ عَلَيْهِ الزَّكَاةُ وَ لَمْ يُسَمِّ لَهُمْ مِنْ كُلِ أَرْبَعِينَ دِرْهَماً دِرْهَمٌ حَتَّى كَانَ

[22] "Bəqərə" surəsi, ayə 43.

رَسُولُ اللهِّ (ص) هُوَ الَّذِي فَسَّرَ ذَلِكَ لَهُمْ وَ نَزَلَ الْحَجُّ فَلَمْ يَقُلْ لَهُمْ طُوفُوا أُسْبُوعاً حَتَّى كَانَ رَسُولُ اللهِّ ص هُوَ الَّذِي فَسَّرَ ذَلِكَ لَهُمْ وَ نَزَلَتْ أَطِيعُوا اللهَّ وَ أَطِيعُوا الرَّسُولَ وَ أُولِي الْأَمْرِ مِنْكُمْ وَ نَزَلَتْ فِي عَلِيٍّ وَ الْحَسَنِ وَ الْحُسَيْنِ فَقَالَ رَسُولُ اللهِّ (ص) فِي عَلِيٍّ مَنْ كُنْتُ مَوْلَاهُ فَعَلِيٌّ مَوْلَاهُ وَ قَالَ (ص) أُوصِيكُمْ بِكِتَابِ اللهِّ وَ أَهْلِ بَيْتِي...

“Bir gün İmam Sadiqə (ə) dedim: “Nisa” surəsində “əmr sahibləri” bəyan edildikdə, kimlər nəzərdə tutulur?” İmam Sadiq (ə) buyurdu: “Burada İmam Əli, İmam Həsən və İmam Hüseyn nəzərdə tutulur”.

Dedim: “İnsanlar soruşur ki, nə üçün İmam Əlinin (ə) və Əhli-Beytin adları Quranda açıqlanmır?”

İmam Sadiq (ə) buyurdu: “Onlara deyin ki, namaz da Peyğəmbərə (s) nazil olmuşdur, amma onun üç, yaxud dörd rəkətli olması Quranda bəyan olunmamışdır. Məhz həzrət Peyğəmbər (s) onun necəliyini izah etdi...

Bunu həzrət Rəsulullah (s) bəyan etdi. Quranda həcc əmri də bəyan olunur, lakin həcc əməllərində yeddi dəfə təvaf etməkdən söhbət açılmır. Bunu da insanlara Peyğəmbər (s) təfsir etdi. “Nisa” surəsinin 59-cu ayəsi İmam Əli, İmam Həsən və İmam Hüseyn barədə nazil oldu və həzrət Rəsulullah (s) belə buyurdu: “Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!” Sonra buyurdu: “Sizə Allahın kitabı və Əhli-Beytimə itaət etməyi tövsiyə edirəm...”[23]

Hədis uzundur, biz onun lazım olan hissəsini təqdim etməklə kifayətlənirik.

---

[23] “Əl-Kafi”, c. 1, s. 288.

Beləliklə, aydın olur ki, insanlar hökmün ümumi qanununu Qurandan, təfərrüatını isə Peyğəmbərdən (s) alırdı. Bu səbəbdən də "Ülul əmr" ayəsində hökm Allah-taala tərəfindən bəyan olunur, onun təfərrüatını isə Peyğəmbər (s) açıqlayır. Sevimli Peyğəmbərimiz (s) mütəşabeh ayələrin təfsirini bildirir, insanlara izah edirdi.

Həmçinin ayələrin zahiri və batini mənalarını öyrədirdi. Əvvəldə də qeyd etdik ki, İmam Sadiq (ə) Qurani-Kərimin həm zahiri, həm də batini mənalarının olduğunu buyurur. Peyğəmbərimiz (s) və onun Əhli-Beyti (ə) mütəşabeh ayələrin mənalarını, etiqadi məsələləri və şəriət hökmlərini mükəmməl şəkildə bəyan edir və Qurani-Kərimin təfsirini insanlara çatdırırdılar.

Mütəşabeh ayələrlə yanaşı Qurani-Kərimin ali maarifi və zəngin mənası, həzrət Muhəmmədin (s) vasitəsilə bəşəriyyətə ötürülürdü. Peyğəmbər (s) özü Qurani-Kərim təfsirinin ilk və əsas mənbəyi idi; bəli, Quranın ilk müfəssiri və bu sahədə ən böyük ustad Allah Rəsulunun (s) özü idi! Sevimli Peyğəmbərimiz (s) öz səyi, öz zəhməti ilə, ilk Quran təfsirinin öyrədilməsi istiqamətində əsas mərkəz yaratdı və xüsusi şagirdlər yetişdirməklə bunu digərlərinə ötürdü.

Peyğəmbər (s) Qurani-Kərim təfsirini müxtəlif yollarla insanlara çatdırırdı. **Birincisi,** sözlə insanlara ötürürdü ki, bu barədə Məsumlardan (ə) çox sayda hədislər mövcuddur. **İkincisi,** Quranın təfsirini əməli surətdə insanlara çatdırırdı. Buna misal olaraq namazın qaydasını göstərmək olar. Həm şiə, həm qeyri-şiə mənbələrdə yer alan hədislərdə qeyd olunur ki, Allah Rəsulu (s)

insanlara namazı özünün qıldığı kimi icra etmək göstərişini verirdi:

صَلُّوا كَمَا رَأَيْتُمُونِي أُصَلِّي.

"Mən necə namaz qılıramsa, siz də elə qılın".[24]

Bundan başqa burada Peyğəmbərimizdən (s) Həcc barədə olan hədislərdən birini də qeyd etmək yerinə düşərdi:

خذوا عنّى مناسككم.

"Həccinizə aid olan qayda-qanunları məndən görüb-götürün"[25].

Daha dəqiq desək, "baxın mənə: mən necə yerinə yetirirəmsə, siz də elə yerinə yetirin".

Deməli, həzrət Muhəmməd (s) həm sözlə, həm əməlilə şəriət hökmlərini, həmçinin Qurani-Kərim ayələrinin təfsirini insanlara çatdırırdı.

## XÜSUSİ TƏFSİR ŞAGİRDLƏRİ

Sevimli Peyğəmbərimizin (s) gördüyü mühüm işlərdən biri də xüsusi şagirdlər yetişdirmək idi. Onlardan biri, şübhəsiz, İmam Əli (ə) idi. Əmirəl-möminin (ə) özü də dəfələrlə buna işarə etmişdir. Bu barədə nəql olunan bir hədisi diqqətinizə çatdırmaq istərdik. Belə ki, Süleym ibn Qeys Hilali bunları nəql edir:

سُلَيْمِ بْنِ قَيْسٍ الْهِلَالِيِّ قَالَ: قُلْتُ لِأَمِيرِ الْمُؤْمِنِينَ (ع) إِنِّي سَمِعْتُ مِنْ سَلْمَانَ وَ الْمِقْدَادِ وَ أَبِي ذَرٍّ شَيْئاً مِنْ تَفْسِيرِ الْقُرْآنِ وَ أَحَادِيثَ عَنْ نَبِيِّ اللَّهِ (ص) غَيْرَ مَا فِي أَيْدِي النَّاسِ ثُمَّ سَمِعْتُ مِنْكَ تَصْدِيقَ مَا سَمِعْتُ مِنْهُمْ وَ رَأَيْتُ فِي أَيْدِي النَّاسِ أَشْيَاءَ كَثِيرَةً مِنْ تَفْسِيرِ الْقُرْآنِ وَ مِنَ الْأَحَادِيثِ

[24] "Nəhcül-həqqi və kəşfus-sidq", s. 423.
[25] "Mənahicul-əxyar fi şərhil-istibsar", c. 3, s. 604.

عَنْ نَبِيِّ اللهِّ (ص) أَنْتُمْ تُخَالِفُونَهُمْ فِيهَا وَ تَزْعُمُونَ أَنَّ ذَلِكَ كُلَّهُ بَاطِلٌ أَ فَتَرَى النَّاسَ يَكْذِبُونَ عَلَى رَسُولِ اللهِّ (ص) مُتَعَمِّدِينَ وَ يُفَسِّرُونَ الْقُرْآنَ بِآرَائِهِمْ قَالَ فَأَقْبَلَ عَلَيَّ فَقَالَ قَدْ سَأَلْتَ فَافْهَمِ الْجَوَابَ إِنَّ فِي أَيْدِي النَّاسِ حَقّاً وَ بَاطِلًا وَ صِدْقاً وَ كَذِباً ... وَ قَدْ كُذِبَ عَلَى رَسُولِ اللهِّ )ص( عَلَى عَهْدِهِ حَتَّى قَامَ خَطِيباً فَقَالَ أَيُّهَا النَّاسُ قَدْ كَثُرَتْ عَلَيَّ الْكَذَّابَةُ فَمَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّداً فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ ثُمَّ كُذِبَ عَلَيْهِ مِنْ بَعْدِهِ ...وَ قَدْ كُنْتُ أَدْخُلُ عَلَى رَسُولِ اللهِّ (ص) كُلَّ يَوْمٍ دَخْلَةً وَ كُلَّ لَيْلَةٍ دَخْلَةً فَيُخْلِينِي فِيهَا ...وَ كُنْتُ إِذَا سَأَلْتُهُ أَجَابَنِي وَ إِذَا سَكَتُّ عَنْهُ وَ فَنِيَتْ مَسَائِلِي ابْتَدَأَنِي فَمَا نَزَلَتْ عَلَى رَسُولِ اللهِّ (ص) آيَةٌ مِنَ الْقُرْآنِ إِلَّا أَقْرَأَنِيهَا وَ أَمْلَاهَا عَلَيَّ فَكَتَبْتُهَا بِخَطِّي وَ عَلَّمَنِي تَأْوِيلَهَا وَ تَفْسِيرَهَا وَ نَاسِخَهَا وَ مَنْسُوخَهَا وَ مُحْكَمَهَا وَ مُتَشَابِهَهَا وَ خَاصَّهَا وَ عَامَّهَا وَ دَعَا اللهَّ أَنْ يُعْطِيَنِي فَهْمَهَا وَ حِفْظَهَا ... وَ مَا تَرَكَ شَيْئاً عَلَّمَهُ اللهُّ مِنْ حَلَالٍ وَ لَا حَرَامٍ وَ لَا أَمْرٍ وَ لَا نَهْيٍ.

"Bir gün İmam Əliyə (ə) dedim: "Mən Salman, Miqdad və Abuzərdən təfsir barədə elə sözlər eşidirəm ki, insanların dedikləri ilə üst-üstə düşmür. Lakin sonradan Salman, Miqdad və Abuzərdən eşitdiklərimin təsdiqini sənin sözlərində tapıram. İnsanların Quran təfsirinə aid nəql etdikləri çox sayda hədisləri sizin qəbul etmədiyinizin şahidi oluram, siz onları batil hesab edirsiniz? İndi siz demək istəyirsiniz ki, bu qədər insan qəsdən Peyğəmbərin (s) adından yalan danışıb şəxsi rəyləri və fikirləri əsasında Quranı təfsir edirlər?!" İmam Əli (ə) üzünü mənə tutub belə buyurdu: "Sən sual verdin, indi isə cavabı dinlə. İnsanların əllərində haqq da var, batil də. Doğru da var, yalan da... Hətta Allah Rəsulunun (s) zamanında onun adından yalan danışırdılar və bu elə bir həddə gəldi çıxdı ki, Həzrət minbərə çıxıb belə buyurdu: "Ey insanlar! Mənim adımdan yalan danışanlar çoxalıb. Hər kim qəsdən mənim adımdan yalan danışsa, öz yerini

cəhənnəmdə hazırlasın!..” Peyğəmbərdən (s) sonra da onun adından yalanlar danışıldı...” Sonra İmam (ə) xütbəsinin davamında belə buyurdu: “Mən idim hər gecə-gündüz Allah Rəsulunun (s) yanına gedən və biz ikimiz olurduq... Mən bir şeyi soruşanda, Həzrət (s) cavab verir, sakit durduğumda isə özü məni danışdırırdı. Nazil olan hər bir ayəni Həzrət (s) mənə oxutdurur və yazdırırdı, mən də onu öz xəttimlə qələmə alırdım. Həzrət Peyğəmbər (s) Quranın təvilini və təfsirini, nasix və mənsuxunu (nəsx olmuş ayələrini), möhkəm və mütəşabih ayələri, xüsusi və ümumi ayələri mənə öyrətdi. Həzrət Allahın Quranın fəhmi və hifzini mənə əta etməsini dua etdi... Halal və harama, əmrə, nəhyə aid bütün elmləri mənə öyrətdi”. [26]

İmam Əli (ə) başqa bir hədisdə isə belə buyurmuşdur:

والله ما نزلت آية الا و قد علمت فيما نزلت و على من نزلت و اين نزلت.

“And olsun Allaha, nazil olan hər bir ayənin harada, kimə və nə üçün nazil olduğunu bilirdim!”[27]

Quranın təfsirinə dair həzrət Peyğəmbər (s) və Əhli-Beytdən (ə) bir çox hədis və rəvayətlər nəql olunmuşdur. Məsələn, Əyyaşinin “Ət-Təfsir” kitabında 2700, “Əl-Bürhan” təfsirində 16000, “Nurus-Səqəleyn” təfsirində isə 14000 hədis nəql olunmuşdur.

Peyğəmbər (s) öz təfsirində insanlara qaranlıq qala biləcək bəzi kəlmələrin mənasını da açıqlayırdı. Bir sözlə, həzrət Muhəmməd (s) istər etiqadi məsələlər olsun, istər əhkama aid olan məsələlər olsun, bütün məsələləri insanlara çatdırırdı; o, həm sözündə, həm əməlində Qurani-Kərimin təfsirini topluma ötürürdü. Sevimli

---

[26] “Əl-Kafi”, c. 1, s. 62.

[27] Bəlazuri, “Ənsabul-əşraf”, s. 99.

Peyğəmbərimizdən (s) sonra onun pak Əhli-Beyti (ə) də Quran təfsirinə aid bir çox hədislər buyurmuşdur.

## ƏHLİBEYTİN (Ə) QURAN TƏFSİRİNDƏKİ ROLU

Həzrət Rəsulullahın (s) həyatı boyu dəfələrlə buyurduğu "Səqəleyn" hədisi bir çox dini mənbələrdə nəql olunmuşdur. Cabir ibn Abdullah Ənsari belə nəql etmişdir:

عَنْ جَابِرِ بْنِ عَبْدِ اللهِ قَالَ رَأَيْتُ رَسُولَ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ فِي حَجَّتِهِ يَوْمَ عَرَفَةَ وَهُوَ عَلَى نَاقَتِهِ الْقَصْوَاءِ يَخْطُبُ فَسَمِعْتُهُ يَقُولُ يَا أَيُّهَا النَّاسُ إِنِّي قَدْ تَرَكْتُ فِيكُمْ مَا إِنْ أَخَذْتُمْ بِهِ لَنْ تَضِلُّوا كِتَابَ اللهِ وَعِتْرَتِي أَهْلَ بَيْتِي.

"Həzrət Rəsulullah (s) Həcc ziyarətində Ərəfə günü dəvənin üstündə bir xütbə oxudu. Həzrət (s) buyurdu: "Ey insanlar! Həqiqətən, mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm, onlardan möhkəm yapışsanız, məndən sonra heç vaxt yolunuzu azmazsınız! Bu, Allahın kitabı və mənim itrətim olan Əhli-Beytimdir".[28]

Qeyd edilən hədis şiə mənbələrində də yer almaqdadır.[29] Həzrət Muhəmməd Peyğəmbərdən (s) nəql olunan hədisdə bütün İslam ümmətinə bir neçə mühüm mesaj var. Belə ki, Qurani-Kərimə xas olan keyfiyyətlər Əhli-Beytdə (ə) də izlənilir. Başqa sözlə desək, Qurani-Kərim nə qədər doğru və müqəddəs, nurani bir kitabdırsa, Əhli-Beyt (ə) da ən doğru, ən müqəddəs, ən nurani şəxslərdir! Qurani-Kərim insanları hidayət etmək üçün nazil olub,

---

[28] "Sünən Tirmizi", hədis: 3786; Təbərani, "Mucəm əl-Kəbir", c. 3, s. 66, hədis: 2680.
[29] "Əsrare Ali Muhəmməd", c. 2, s. 792; "Bəsairud-dərəcat", c. 1, s. 414.

Əhli-Beyt (ə) də insanları hidayət etmək üçün Allah-taalanın Yer üzərindəki höccətləridir.

Peyğəmbərimizin (s) özü buyurur ki, "Qiyamət günündə mənə qovuşana qədər onlar bir-birindən ayrılmazlar".

Quran Allah-taalanın Yer üzündə höccəti və dəlilidir, Əhli-Beyt (ə) də bütün bəşəriyyət üçün höccəti və dəlilidir; Quran insanlar üçün yetərli olduğu kimi, Əhli-Beytin (ə) sözü də insanlar üçün yetərlidir və hidayət olmaq üçün kifayət edər. Sevimli Peyğəmbərimiz (s) bu mübarək hədisində insanlara Quran və Əhli-Beytə (ə) sarılmağı tövsiyə edir.

Təfsir Qurani-Kərim elmlərindən biridir və çox mühüm bir məsələdir. Bu məsələdə də Peyğəmbərimizin (s) vəsiyyətinə, ondan nəql olunan hədisə əsasən gərək Əhli-Beytin (ə) sorağına gedək. Əhli-Beytin (ə) bu sahədə mühüm rolu var.

Əbdul-Əla İmam Sadiqdən (ə) nəql etdiyi hədisdə həzrətin belə buyurduğunu deyir:

عنْ عَبْدِ الْأَعْلَى مَوْلَى آلِ سَامٍ قَالَ سَمِعْتُ أَبَا عَبْدِ اللهِّ (ع) يَقُولُ وَ اللهِّ إِنِّي لَأَعْلَمُ كِتَابَ اللهِّ مِنْ أَوَّلِهِ إِلَى آخِرِهِ كَأَنَّهُ فِي كَفِّي فِيهِ خَبَرُ السَّمَاءِ وَ خَبَرُ الْأَرْضِ وَ خَبَرُ مَا كَانَ وَ خَبَرُ مَا هُوَ كَائِنٌ.

"And olsun Allaha, mən Allahın kitabını əvvəlindən axırına kimi bilirəm, sanki, ovucumun içindədir! Bu Kitabda göydə və yerdə olanların, indiyə kimi və bundan sonra baş verəcəklərin xəbəri verilmişdir, bunların bu kitabda elmi var".[30]

İmamın "bilirəm" deməsi, şübhəsiz ki, Quranı üzündən oxumasını nəzərdə tutmur. Belə ki, İmam Sadiq (ə) özü ərəb idi, bu kitabı üzündən oxumasını nəzərdə tutması çox mənasız olardı;

[30] "Əl-Kafi", c. 1, s. 229.

özü də digərləri də bunu bacarırdı. İmam (ə) ardından buyurur: "...bilirəm, sanki, ovucumun içindədir", yəni "məsələyə bu qədər önəm verirəm".

İmam Baqirdən (ə) də bu məsələyə dair hədislər nəql olunur:

تفسير القران على سبعة اوجه منه ما كان و منه ما لم يكن بعد تعرفه الائمة.

"Qurani-Kərimin təfsiri yeddi növdür. Onlardan bəzisi bəyan edilib, bəzisi isə hələ bəyan edilməyib. Bütün İmamlar (ə) onların hamısına bələddirlər".[31]

Başqa bir hədisdə isə İmam Baqir (ə) belə buyurur:

فَإِنَّمَا عَلَى النَّاسِ أَنْ يَقْرَءُوا الْقُرْآنَ كَمَا أُنْزِلَ فَإِذَا احْتَاجُوا إِلَى تَفْسِيرِهِ فَالاهْتِدَاءُ بِنَا وَ إِلَيْنَا.

"İnsanlar Allah tərəfindən gələn bu kitabı oxumalıdırlar. Təfsirə ehtiyac duyduqlarında, onlar bizim vasitəmizlə hidayət oluna bilər, doğru təfsiri bilmək üçün bizə tərəf gəlməlidirlər".[32]

Qurani-Kərimin etiqad, şəriət hökmləri və əxlaq məsələlərilə bağlı təfsirində çoxl sayda hədislərimiz var və yuxarıda da qeyd etdik ki, buna aid minlərlə hədislər nəql olunmuşdur. Əhli-Beytdən (ə) qeyrilərini nəzərə alsaq, İbn Abbas, İbn Məsud, Ubəy ibn Kəb və digərləri Quranın təfsiri ilə məşğul olmuşlar. Həzrət Əlidən (ə) sonra səhabələr arasında ən savadlı hesab olunan İbn Abbas belə deyib:

ما اخذت من تفسير القران فعن على (ع).

"Mən Qurani-Kərim təfsirindən hər nə bilirəmsə, onu Əli ibn Əbu Talibdən (ə) öyrənmişəm".[33]

---

31 "Vəsailuş-şiə", c. 27, s. 197.
32 "Təfsir Fərat əl-Kufi", s. 258.
33 "Ət-təfsirul Müfəssirun", c. 1, s. 96.

Bundan başqa, Mücahid kimi səhabələr də İbn Abbas və digər səhabələrdən Quran təfsirinə yiyələnmişlər.

Əhli-Beytin (ə) təfsiriylə digər səhabələrin təfsiri arasında önəmli fərq var. "Digər səhabələr" dedikdə, əlbəttə ki, Peyğəmbərin (s) səhabələrini nəzərdə tuturuq. Bəli, Peyğəmbər (s) səhabələrinin təfsiri ilə Əhli-Beyt (ə) təfsiri arasında fərq var; səhabələrin təfsirini Əhli-Beytinkindən (ə) fərqləndirərkən, onu demək istəmirik ki, Peyğəmbərin (s) bütün səhabələrinin yolu Əhli-Beytin (ə) yolu ilə fərqli idi, xeyr, məqsədimiz bu deyil. Sadəcə, onu çatdırmaq istəyirik ki, səhabələr arasında elələri var idi ki, hər addımında Əhli-Beytin (ə) yolunu izləyirdi, Əhli-Beytin (ə) əsil ardıcıllarından idi. Halbuki bəzilərinin öz istinbatları, Qurani-Kərim təfsirindən əldə etdikləri elmi nəticələri, özünəməxsus nəzəriyyələri var idi.

Əhli-Beytə (ə) daxil olmayan şəxslərin təfsirində əsasən iki xüsusiyyət nəzərə çarpırdı:

1. Bir-birinə tam zidd, bir-birinin əksinə olan məsələlər mövcud idi.

2. Bir məsələdə vahid bir nəzər yox idi.

Məsələ burasındadır ki, səhabələr arasında hər hansı bir mövzuya dair həmrəylik, fikir birliyi yox idi; nə məsələ olursa olsun, fikir ayrılığı yaranırdı. Bu məqamda yuxarıda Süleym ibn Qeys Hilalidən qeyd etdiyimiz hədisə yenidən nəzər salmağımız, yerinə düşər.

Qeyd edilən hədisin davamında həzrət Əli (ə) hədis ravilərini dörd qismə bölür və onların haqqında bunları nəzərə çatdırır: "Birinci qisim münafiqlərdir ki, Allah-taala Qurani-Kərimdə onların barəsində xəbərdarlıq etmişdir. Lakin insanlar onların

Peyğəmbərin (s) yanında olduqlarını görür və bu səbəbdən də bu sözlər insanları çaşbaş salır.

İkinci qisim o insanlardır ki, Peyğəmbərdən (s) bəzi sözləri eşidib, ancaq eşitdikləri kimi yadda saxlaya bilməmişlər; yəni sözü, hədisi eşidib, lakin eşitdiyi kimi yadında saxlaya bilməmiş, nəticədə də yadında nə qalıbsa, insanlara onu çatdırırlar. Bu səbəbdən, hədis tam formada olmadığı üçün insanlar çaşbaş qalır və bu cür müxtəlif nəzəriyyə, müxtəlif fikirlər cəmiyyət arasında yayılmaqdadır.

Hədis nəql edənlərin üçüncü qismi o insanlardır ki, hədisi eşidib və eşitdikləri kimi də nəql edirlər. Lakin onların eşitdiyi və eşitdiyi kimi də nəql etdiyi rəvayətlər hadisəni tam mahiyyətilə çatdırmır. Belə ki, Peyğəmbərimiz (s) bir zamanlar nələrisə qadağa etmiş, lakin bir müddət keçdikdə, buna icazə vermişdir. Bu insanlar qadağanı eşitmiş, yadda saxlamışlar və bunu camaata çatdırırlar. Halbuki Peyğəmbərin (s) ikinci dəfə buna icazə verməsindən xəbərləri yoxdur. Ona görə bu, yanlış fikirlərin cəmiyyət arasında yayılmasına səbəb olmuşdur.

Dördüncü qisim də o insanlardır ki, onlar Peyğəmbərin (s) kəlamını həm kamil şəkildə eşitmiş, həm də eşitdikləri kimi yadda saxlamış, unutmamış, nasixini və mənsuxunu bilmiş, qadağasını eşitmiş, əmrini eşitmiş və ən doğru şəkildə nəql etmişlər".

Bu sözlərin davamında İmam Əli (ə) söhbəti özü və Əhli-Beyt (ə) üzərinə çəkir:

"Mən idim hər gecə-gündüz Allah Rəsulunun (s) yanına gedən və biz ikimiz olurduq... Mən bir şeyi soruşanda, Həzrət (s) cavab verir, sakit durduğumda isə özü məni danışdırırdı. Nazil olan hər

bir ayəni Həzrət (s) mənə oxutdurur və yazdırırdı, mən də onu öz xəttimlə qələmə alırdım. Həzrət Peyğəmbər (s) Quranın təvilini və təfsirini, nasix və mənsuxunu (nəsx olmuş ayələrini), möhkəm və mütəşabih ayələri, xüsusi və ümumi ayələri mənə öyrətdi. Həzrət Allahın Quranın fəhmi və hifzini mənə əta etməsini dua etdi... Halal və harama, əmrə, nəhyə aid bütün elmləri mənə öyrətdi". [34]

Beləliklə, Əhli-Beyt (ə) təfsirilə digərlərininkinin arasında fərq var idi.

Nə üçün Əhli-Beytə (ə) aid olmayanların təfsirində müxtəlif fikirlər mövcuddur?

Əvvəla deməliyik ki, Allah Rəsulunun (s) səhabələrinin məqamı nə qədər uca olsa da, onlar qeyb elminə sahib deyildirlər.

İkincisi, onlar məsum deyildi.

Digər tərəfdən, səhabələr arasında (Əhli-Beytə daxil olanlar istisna olmaqla) ən savadlısı İbn Abbas idi ki, o da bildiklərinin çoxunu həzrət Əlidən (ə) öyrəndiyini bildirirdi. İbn Abbas deyir: "Elm beş qisimdir. Onun dörd qismi Əlidədir (ə). Başqalarında isə bu beş qismin bir qismi var. Həmin bir qisimdə də Əli (ə) onlarla şərikdir. Ona görə də Əli (ə) insanların ən elmlisidir!"[35]

Həmçinin Səid ibn Musəyyib deyir: "Məni əldən verməmişdən qabaq məndən soruşun" ifadəsini yalnız Əli (ə) deyə bilər. Əlidən (ə) başqa heç kim bu sözü deyə bilməz".[36]

Həzrət Əli (ə) başqa bir hədisdə belə buyurur:

لايقاس بآل محمد (ص) من هذه الامة احد.

---

[34] "Əl-Kafi", c. 1, s. 62.

[35] İbn Əsir Əl Cəzari, "Əl Kamil-fit-tarix", c. 3, s. 200.

[36] "Üsdulğabə", c. 4, s. 22; "Əl-isabə fi mərifətis-səhabə", c. 2, s. 509; "Ənsabul-əşraf", c. 2, s. 100.

"Bu ümmətdən bir nəfər də olsun Ali Muhəmmədlə müqayisə oluna bilməz!"[37]

Nəticədə məlum olur ki, sevimli Peyğəmbərimiz (s) özündən sonra dinə aid olan bütün məsələlərdə Qurani-Kərim və Əhli-Beytin (ə) sorağına getməyi tövsiyə etmişdir. Təfsir elmi Qurana aid bir elmdir. Bu elmdə kimin sorağına gedək? Əhli-Beytin (ə) sorağına, ya qeyrilərin? Səhabələrin sorağına getdiyimizdə ona şahid oluruq ki, ən biliklisi olan İbn Abbas da bütün öyrəndiklərini həzrət Əlidən (ə) əxz etdiyini etiraf edir. Bu səbəbdən, ən ağlabatanı bizim də Əhli-Beytin (ə) sorağına getməyimizdir, həm bu dünyada, həm axirətdə Kövsər hovuzunun yanında sevimli Peyğəmbərimizə (s) qovuşana qədər Qurani-Kərim və Əhli-Beytlə (ə) bir olmağımızdır.

---

[37] "Ğurərul-hikəm", hədis: 10902.

# “FATİHƏ” SURƏSİNİN ADLARI

Keçən dərslərimizdə təfsir elminə aid bir neçə mövzuya toxunduq. İndi isə “Fatihə” surəsinin təfsirinə başlayırıq.

“Fatihə” surəsi Məkkədə nazil olmuşdur. Bu surənin bir neçə adı var. Surələrin adları Allah-taala tərəfindən həzrət Muhəmməd Peyğəmbərin (s) vasitəsilə insanlara çatdırılmışdır. Beləcə aydın olur ki, bu adlar dəyişməzdir və heç kim surələrə başqa ad verə bilməz. Bu növ adlar “təvqifi” adlandırılır, yəni bu adlar yalnız Allah-taala tərəfindən həzrət Peyğəmbər (s) vasitəsilə verilir. “Fatihə” surəsinin Məkkədə nazil olmasına dair həm Əhli-sünnə, həm də Əhli-Beyt (ə) mənbələrində çox sayda hədis və məlumatlar yer almaqdadır.

“*Əd-Dürrül-mənsur fit-təfsiril-məsur*” kitabında belə qeyd edilir:

**واخرج الواحدى فى اصحاب النزول و الثعلبى فى تفسيره: عن على رضى الله عنه قال: نزلت فاتحة الكتاب بمكة.**

“Vahidi “Əsbabul nüzul” kitabında, Sə’ləbi isə öz təfsirində həzrət Əlidən (ə) ***(Allah ondan razı olsun)*** belə buyurduğunu nəql edirlər: “Fatihə” surəsi Məkkədə nazil olmuşdur”.[38]

Əhməd ibn Həmbəl “Müsnəd” əsərində, İbn Züreyr, İbn Muzər, İbn Hatəm, İbn Mərdəvey və bu kimi alimlər qələmə aldıqları kitablarında bunu qeyd etmişlər. Bu surənin “Fatihətul-kitab” adlandırılması haqqında çox sayda hədislər nəql olunmuşdur. “Nurus-Səqəleyn” təfsirində yer alan bir hədisdə bunlar qeyd olunur:

---

[38] “Əd-Dürrül-mənsur fit-təfsiril-məsur”, c. 1, s. 6.

“Bir qrup yəhudi Peyğəmbərin (s) hüzuruna gəlib Allah-taalanın yalnız Peyğəmbərin (s) ümmətinə bir rəhmət olaraq əta etdiyi şeylər barədə sual verirlər. Peyğəmbər (s) Allah-taalanın yalnız onun ümmətinə bəxş etdiyi bir neçə şeyi sadalayır, onlardan birinin “Fatihətul-kitab” olduğunu buyurur:

**اعطاني الله فاتحة الكتاب.**

“Allah-taalanın yalnız mənə və ümmətimə bəxş etdiyi şeylərdən biri də “Fatihətul-Kitabdır”.[39]

Həzrət Əlidən (ə) nəql olunan bir hədisdə isə deyilir:

**هن امير المؤمنين (ع) قال: قال رسول الله (ص) قال الله تعالى قسمت فاتحة الكتاب بينى و بين عبدى.**

“Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: “Allah-taala buyurmuşdur: “Mən “Fatihə” surəsini Öz bəndəmlə aramda bölmüşəm”. Bu məzmunda olan hədislər çoxdur.

Beləliklə, qeyd olunanlara əsaslanaraq qətiyyətlə deyə bilərik ki, bu surənin adı elə əzəldən “Fatihətul-kitab”, “Fatihə”dir. Görəsən, Allah-taala tərəfindən nazil olan Qurani-Kərim həzrət Muhəmməd Peyğəmbərin (s) zamanında bir kitab şəklində mövcud idimi?

Bəziləri iddia edir ki, Quran dağınıq, pərakəndə şəkildə idi, dəri parçalara, daşlara və s. bu kimi şeylərə yazılmışdır, bir kitab şəklində deyildi və sonradan kimlərsə onu toplayıb kitab şəklinə salmışlar. Halbuki təqdim olunan hədislər onu göstərir ki,

---

[39] “Nurus-Səqəleyn”, c. 1, s. 4.

Qurani-Kərim sevimli Peyğəmbərimizin (s) həyatda olduğu dövrdə də bir kitab şəklində idi.

"Əl-Kafi" kitabında həzrət Əlidən (ə) belə bir hədis nəql edilmişdir:

فما نزلت على رسول الله (ص) آية من القرآن الا اقرانيها و املاها على.

"Nazil olan hər ayəni Həzrət (s) mənə oxutdurur və diktə edib yazdırırdı, mən də onu qələmə alırdım".[40]

Beləcə, qeyd edilən və bu kimi digər hədislər bildirir ki, elə Muhəmməd Peyğəmbər (s) zamanında Qurani-Kərim kitab şəklində mövcud idi və "Fatihətul-Kitab" ifadəsi "Kitabın açılışını edən", "Kitabı açan" mənasındadır.

Digər tərəfdən, həzrət Peyğəmbərdən (s) nəql olunmuş "Səqəleyn" hədisinə bir dəfə də nəzər salaq. Belə ki, Allah Rəsulu (s) buyurur:

إِنِّي قَدْ تَرَكْتُ فِيكُمُ الثِّقْلَيْنِ ما إِنْ تَمَسَّكْتُمْ بِهِما لَنْ تَضِلُّوا بَعْدِي... كِتابَ اللهِ... وَعِتْرَتِي أَهْلَ بَيْتِي.

"Həqiqətən, mən sizin aranızda iki ağır əmanət qoyub gedirəm. Kim onlardan yapışsa, məndən sonra heç vaxt doğru yoldan azmaz.... Bu, Allahın kitabı və mənim itrətim olan Əhli-Beytimdir".

"Allahın kitabı" ifadəsi onu göstərir ki, həzrət Peyğəmbər (s) vahid bir məcmuə, kitab şəklinə salınmış bir şeyi tərk edib gedirdi. Peyğəmbərin (s) hədisində pərakəndə və dağınıq halında olan yazılara deyil, hamıya məlum olan bir məcmuə və kitaba

---

[40] "Əl-Kafi", c. 1, s. 64.

işarə olunur. Bəli, burada söhbət daşlara, ağaclara, dəri parçalarına yazılanlardan getmirdi.

Necə ola bilər ki, uzun illərdən sonra müsəlmanlar pərakəndə halda olan Quranı bir yerə toplamadıqları təqdirdə onun aradan gedə biləcəyinə qərar verir, amma Peyğəmbər (s) öz zamanında bunu düşünə bilmir!? Belə bir şey ola bilərmi!? Şübhəsiz, bu, mümkün deyil və Peyğəmbərin (s) zamanında Quran artıq bir kitab halına salınmışdır. Belə ki, Allah Rəsulu (s) öz vəsiyyətində məhz Kitabdan söhbət açır. Peyğəmbər (s) zamanındakı kitab elə indi əlimizdə olan kitabdır və onda heç bir təhrif yoxdur, ola da bilməz! Ona görə ki, Allah Özü onu qoruyacağına zəmanət vermişdir. Bu Kitabı Allah-taala qoruyub saxlayır, onu heç kim dəyişdirə, nə azalda, nə çoxalda bilməz. Bugünkü Quran surələrinin, ayələrinin düzülüşü, sırası və s. elə həzrət Muhəmmədin (s) zamanında tərtib olunmuşdur və indi də o zamankı kimidir, "Fatihətul-Kitab" da Qurani-Kərimin açılışını edən surədir.

"Fatihə" surəsinə "Əl-Həmd" surəsi də deyilir. Belə ki, bu surə "Əlhəmd" ifadəsilə, Allaha həmd-səna ilə başlayır.

Sözügedən surənin başqa bir adı "Ümmul-Kitab"dır və hədislərdə də bu cür qeyd edilmişdir. "Ümmul Kitab" - "Kitabın Anası" (Kitabın kökü) deməkdir, Qurani-Kərim maarifinin kökü, demək olar ki, "Fatihə" surəsində cəmlənir.Belə ki, bu surədə üsuliddinin əsasını təşkil edən tövhid, Allah-taalanın sifətləri, nübüvvət və imamət, məad və məada aid məsələlər, eləcə də füruiddinin ibadət və şükür etmək, hidayət və azğınlıq, Allah düşmənləri ilə düşmənçilik kimi mühüm bəndləri xülasə şəkildə yer alır. Quran ayələri də əsasən üsuliddin və füruiddinə

dəvətdən ibarətdir. “Fatihə” surəsində həm fərdi, həm də ictimai həyat üçün mühüm dərslər mövcuddur.

“Fatihə” surəsinin növbəti adlarından biri “Əs-Səbul-məsani”dir. “Səb’u” - “yeddi”, “məsani” kəlməsi isə “iki” ədədini bildirir. Bəzi təfsirçilərin nəzərinə əsasən, “Fatihə” surəsi yeddi ayədən ibarət və iki dəfə Peyğəmbərə (s) nazil olduğundan, ona “Səbul-Məsani” adı verilmişdir.

Beləcə, “Səbul-məsani” - “Yeddi təkrarlanan ayə” mənasını ifadə edir. Qurani-Kərimin özündə belə buyrulur:

وَ لَقَدْ آتَيْناكَ سَبْعاً مِنَ الْمَثاني وَ الْقُرْآنَ الْعَظيم.

“(Ya Rəsulum!) Biz sənə təkrarlanan yeddi ayəni və əzəmətli Quranı verdik”.

İbn Abbasdan belə bir hədis nəql edilmişdir:

ان لكل شيئ اساس و اساس القرآن فاتحة الكتاب.

“Həqiqətən, hər şeyin bir əsası, bir kökü var, Quranın kökü isə “Fatihətul-Kitabdır”.

Sevimli Peyğəmbərimizdən (s) nəql olunan bir hədisdə həzrət belə buyurur:

هي ام الكتاب و هي السبع المثاني.

“Fatihə” surəsi Quranın anası və kökündür. “Əs-Səbul-məsani” də elə odur”. Beləliklə, “Əs-Səbul-məsani” “iki dəfə nazil olan yeddi ayə” mənasını ifadə edir.

“Fatihə” 114 surə içində namaz qılınarkən oxunan nadir surələrdəndir. Belə ki, bu surəni namazda oxumaq mütləq vacibdir, oxunmadığı təqdirdə namaz batil olur. “Fatihə” surəsində Allah-taala insana əsasən iki məsələni öyrədir. Birinci

hissədə Allahı vəsf etmək tərzi və şükrün qaydası açıqlanır, Allahla rabitə yaradarkən bunun yerinə yetirilmə nizamı göstərilir. İkinci hissədə isə, Allah-taala bəndəyə insanın özünü vəsf etmə tərzini öyrədir. **"İyyakə nəbudu və iyyakə nəstəin"** ayəsilə Uca Yaradanımız insana bəndə və Allahın qulu olduğunu bildirir, bütün bu məsələlər insana aşılanır. Bu surə məad, Allahşünaslıq, əxlaq, o cümlədən dini, əqidəvi, dünyəvi və ictimai məsələlərə aid maarifi də əhatə edir. Burada insanın kimlərdən çəkinməsi, uzaq olması və kimlərlə dost olması nəzərə çatdırılır, təlqin olunur.

# “FATİHƏ” SURƏSİNİN FƏZİLƏTLƏRİ

“Fatihə” surəsinin fəziləti haqqında hədislər çoxdur. Bu surənin əzəməti çox böyükdür. Qurani-Kərim Allah-taalanın kəlamı, hər bir kəlməsi nur, bərəkət, ən doğru və ən gözəl sözdür. Sevimli Peyğəmbərimiz (s) bu ayələrin və surələrin içində ən əzəmətli, ən nurlu sözləri bizlərə təqdim etmişdir. “Fatihə” surəsinə şamil edilən fəzilət Allah-taala və həzrət Muhəmməd (s) tərəfindən bu surəyə verilmişdir.

Allah Rəsulu (s) belə buyurduğu nəql edilir:

واللذي نفسي بيده ما انزل الله في التوراة و لافي الانجيل و لافي الزبور و لا في القران مثله.

“And olsun canım əlində olan Allaha, “Fatihə” kimi əzəmətli, nurlu və müqəddəs bir surə nə Tövratda, nə İncildə, nə Zəburda, hətta Quranın özündə belə nazil olmamışdır!”[41]

Bu nəticəyə gəlirik ki, Allah-taala tərəfindən nazil edilən heç bir ayənin, surənin, heç bir sözün əzəməti “Fatihə” surəsinə çatmır.

“Nurus-Səqəleyn” təfsirində İmam Sadiqdən (ə) bir hədis nəql edilir və uzun olduğundan biz sadəcə onun xülasəsini nəzərinizə çatdırmaq istərdik. Belə ki, İmam (ə) belə buyurur:

عَنْ أَبِي عَبْدِ اللهِّ (ع) قَالَ: رَنَّ إِبْلِيسُ أَرْبَعَ رَنَّاتٍ أَوَّلُهُنَّ يَوْمَ لُعِنَ وَ حِينَ أُهْبِطَ إِلَى الْأَرْضِ وَ حِينَ بُعِثَ مُحَمَّدٌ (ص) عَلَى حِينِ فَتْرَةٍ مِنَ الرُّسُلِ وَ حِينَ أُنْزِلَتْ أُمُّ الْكِتَابِ وَ نَخَرَ نَخْرَتَيْنِ حِينَ أَكَلَ آدَمُ مِنَ الشَّجَرَةِ وَ حِينَ أُهْبِطَ مِنَ الْجَنَّةِ.

“İblis dörd dəfə ah-nalə edərək fəryad çəkib.

---

[41] “Məcməul-bəyan”, c. 1, s. 88.

Birincisi, Allah-taala tərəfindən lənətə layiq görüldüyü zaman;

ikincisi, Allah-taala tərəfindən qovulub yer üzünə endiyi zaman;

üçüncüsü, Allah Rəsulu (s) peyğəmbərliyə seçildiyi zaman;

dördüncüsü, "Fatihə" surəsi nazil olan zaman".[42]

"Nurus-Səqələyn" təfsirində İmam Həsən Əsgəridən (ə) də çox gözəl bir hədis nəql edilmişdir. Burada həmin hədisin sadəcə xülasəsini təqdim edirik. İmam Əli (ə) Allah Rəsulundan (s), o həzrət də Alah taala dan belə nəql edir:

عَنْ أَمِيرِ الْمُؤْمِنِينَ (ع) قَالَ قَالَ رَسُولُ اللهِّ (ص) قَالَ اللهُّ تَبارَكَ وَ تَعالَى قَسَمْتُ فَاتِحَةَ الْكِتَابِ بَيْنِي وَ بَيْنَ عَبْدِي فَنِصْفُهَا لِي وَ نِصْفُهَا لِعَبْدِي وَ لِعَبْدِي مَا سَأَلَ إِذَا قَالَ الْعَبْدُ بِسْمِ اللهِّ الرَّحْمنِ الرَّحِيمِ قَالَ اللهُّ جَلَّ جَلالُهُ بَدَأَ عَبْدِي بِاسْمِي وَ حَقٌّ عَلَيَّ أَنْ أُتَمِّمَ لَهُ أُمُورَهُ وَ أُبَارِكَ لَهُ فِي أَحْوَالِهِ فَإِذَا قَالَ الْحَمْدُ للهِّ رَبِّ الْعالَمِينَ قَالَ اللهُّ جَلَّ جَلالُهُ حَمِدَنِي عَبْدِي وَ عَلِمَ أَنَّ النِّعَمَ الَّتِي لَهُ مِنْ عِنْدِي وَ أَنَّ الْبَلَايَا الَّتِي إِنْ دُفِعَتْ عَنْهُ فَبِتَطَوُّلِي أُشْهِدُكُمْ أَنِّي أُضِيفُ لَهُ إِلَى نِعَمِ الدُّنْيَا نِعَمَ الْآخِرَةِ وَ أَرْفَعُ عَنْهُ بَلَايَا الْآخِرَةِ كَمَا دَفَعْتُ عَنْهُ بَلَايَا الدُّنْيَا فَإِذَا قَالَ الرَّحْمنِ الرَّحِيمِ قَالَ اللهُّ جَلَّ جَلالُهُ شَهِدَ لِي بِأَنِّي الرَّحْمنُ الرَّحِيمُ أُشْهِدُكُمْ لَأُوَفِّرَنَّ مِنْ رَحْمَتِي حَظَّهُ وَ لَأُجْزِلَنَّ مِنْ عَطَائِي نَصِيبَهُ فَإِذَا قَالَ مالِكِ يَوْمِ الدِّينِ قَالَ اللهُّ عَزَّ وَ جَلَّ أُشْهِدُكُمْ كَمَا اعْتَرَفَ أَنِّي أَنَا مَالِكُ يَوْمِ الدِّينِ لَأُسَهِّلَنَّ يَوْمَ الْحِسَابِ حِسَابَهُ وَ لَأَتَقَبَّلَنَّ حَسَنَاتِهِ وَ لَأَتَجَاوَزَنَّ عَنْ سَيِّئَاتِهِ فَإِذَا قَالَ إِيَّاكَ نَعْبُدُ قَالَ اللهُّ عَزَّ وَ جَلَّ صَدَقَ عَبْدِي إِيَّايَ يَعْبُدُ أُشْهِدُكُمْ لَأُثِيبَنَّهُ عَلَى عِبَادَتِهِ ثَوَاباً يَغْبِطُهُ كُلُّ مَنْ خَالَفَهُ فِي عِبَادَتِهِ لِي فَإِذَا قَالَ وَ إِيَّاكَ نَسْتَعِينُ قَالَ اللهُّ عَزَّ وَ جَلَّ بِيَ اسْتَعَانَ وَ الْتَجَأَ أُشْهِدُكُمْ لَأُعِينَنَّهُ عَلَى أَمْرِهِ وَ لَأُغِيثَنَّهُ فِي شَدَائِدِهِ وَ لَآخُذَنَّ بِيَدِهِ يَوْمَ نَوَائِبِهِ فَإِذَا قَالَ اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ إِلَى آخِرِ السُّورَةِ قَالَ اللهُّ جَلَّ جَلالُهُ هَذَا لِعَبْدِي وَ لِعَبْدِي مَا سَأَلَ قَدِ اسْتَجَبْتُ لِعَبْدِي وَ أَعْطَيْتُهُ مَا أَمَّلَ وَ آمَنْتُهُ مِمَّا مِنْهُ وَجِلَ.

---

[42] "Nurus-Səqələyn", c. 1, s. 4.

"Allah-taala buyurur: "Mən "Fatihə" surəsini bəndəmlə Öz aramda bölüşdürmüşəm: yarısı Mənim, digər yarısı isə bəndəmə aiddir".

Bəndə: **"Bismillahir Rəhmanir Rəhim"** - dedikdə Allah buyurar: "Mənim bəndəm Mənim adımla başladı və onun bütün işlərini tamamlamaq Mənim öhdəmdədir, bütün işlərində ona xeyir-bərəkət verəcəm". ("Allah-taalanın adı ilə bütün işlərə başlamaq" bəhsində bu mövzu barəsində geniş söhbət açacağıq).

Bəndə: **"Əlhəmdulilləhi Rəbbil-aləmin"** - dedikdə Allah buyurar: "Bəndəm Mənə həmd-səna və şükür etdi, bütün nemətlərin Mənə aid olduğunu söylədi; etiraf etdi ki, ondan uzaqlaşdırılan bütün bəlalar Mənim qüdrətimlədir. Ey mələklər, saleh bəndələr! Şahid olun ki, Mən dünya nemətlərilə yanaşı, axirət nemətlərini də ona verəcəm, dünya bəlalarını ondan uzaqlaşdırdığım kimi, axirət bəlalarını da ondan uzaqlaşdıracam!" Elə ki: **"Ər-Rəhmanir-Rəhim"** - deyər, Allah-taala buyurar: "Mənim bəndəm Mənim Mərhəmətli və Rəhimli olduğumu etiraf etdi. Mən ona Öz rəhmətimdən pay verəcəm və ona bəxş etdiklərimi onun üçün artıracam".

İmam Həsən Əsgəri (ə) həmçinin buyurur: "Bəndə: **"Məliki yəvmid-din" –** dedikdə, Allah-taala belə buyurar: "Bəndəm Mənim Qiyamət gününün sahibi olduğuma şəhadət gətirdi. Elə isə Qiyamətdə Mən onun hesab-kitabını asanlaşdırar və onun günahlarını bağışlayaram".

**"İyyakə nəbudu"** dedikdə Allah-taala buyurar: "Bəndəm düz deyir, ona elə bir savab verəcəm ki, ibadət etməyənlərin hamısı ona qibtə etsin və həmin savabın həsrətini çəksin!" Elə ki bəndə: "**İyyakə nəstəin" -** deyər, Allah-taala belə buyurar: "Bəndəm Məndən kömək istədi və Mənə sığındı, Mən ona bütün işlərində kömək olacam, çətinliklərində yardım edəcəm!"

Beləliklə, yuxarıda "Fatihə" surəsinin birinci hissəsini təqdim etdik. İmam Həsən Əsgəri (ə) hədisin davamında belə buyurur: "İkinci hissədə insan bu surənin davamını oxuyarkən: **"İhdinəs-siratəl-mustəqim"** - dedikdə Allah-taala buyurar: "Həqiqətən, Mən bəndəmin istəyini qəbul etdim, arzu etdiklərini ona bəxş etdim və qorxduğu şeylərdən ona aman verdim".[43]

Bundan başqa, həzrət Əli (ə) sevimli Peyğəmbərimizin (s) belə buyurduğunu nəql edir:

"Allah-taala "Həmd" surəsini yalnız mənə bəxş etmişdir, məndən öncə onu heç bir Peyğəmbərə nazil etməmişdir. "Həmd" surəsində, (daha dəqiq) "Bismillahir Rəhmanir Rəhim" ifadəsində mənimlə şərik olan yalnız Süleyman peyğəmbərdir (ə). (Belə ki, bu peyğəmbər) Səba hökmdarı Bilqeysə məktub yazarkən, orada "Bismillahir Rəhmanir Rəhim" ifadəsini yazmışdır".

"Biharul-Ənvar" kitabında isə belə bir hədis qeyd edilmişdir:

**لَيْسَ شَيْءٌ مِنَ الْقُرْآنِ وَ الْكَلَامِ جُمِعَ فِيهِ مِنْ جَوَامِعِ الْخَيْرِ وَ الْحِكْمَةِ مَا جُمِعَ فِي سُورَةِ الْحَمْدِ.**

"Allah Rəsulu (s) buyurur: "Həmd" surəsində olan hikmət, elm Quranın digər surələrində yoxdur".[44]

Bu ayənin təfsiri haqqında, İmam Əli (ə) həzrət peyğəmbərdən (s) belə eşitdiyini buyurur:

**إن الله تعالى قال لي يا محمد: وَ لَقَدْ آتَيْنَاكَ سَبْعاً مِنَ الْمَثَانِي وَ الْقُرْآنَ الْعَظِيمَ فأفرد الامتنان علي بفاتحة الكتاب، و جعلها بإزاء القرآن العظيم.**

"Allah-taala mənə belə buyurdu: Ya Muhəmməd! "Həqiqətən, Biz sənə iki dəfə "təkrarlanan yeddi" ayəni və əzəmətli Quranı verdik".[45]

---

[43] "Əmaliye Səduq", s.174

[44] "Biharul-Ənvar", c. 82, s. 54.

[45] "Hicr" surəsi, ayə 87.

"Fatihə" surəsini məhz mənə nazil etməklə mənə minnət qoydu və onu Quranla bərabər tutdu; buyurdu ki, sənə "Fatihə" surəsini və əzəmətli Quranı nazil etmişəm".[46]

Cabir ibn Abdullah Ənsaridən isə belə nəql olunur: "Peyğəmbərin (s) yanında olduğum zaman Həzrət buyurdu: "Sənə Quranın ən əzəmətli surəsini öyrədimmi?" Beləcə, Allah Rəsulu (s) "ən əzəmətli surə" dedikdə "Fatihə" surəsini qəsd etmiş və Cabir ibn Abdullah Ənsariyə məhz bu surəni öyrətmişdir.[47]

Əvvəldə də qeyd etdiyimiz kimi, "Fatihə" surəsinin əzəməti, fəziləti haqqında çox sayda hədislər nəql olunub, biz yuxarıda qeyd etdiklərimizlə kifayətlənirik.

---

[46] "Əl-Burhan" təfsiri, c. 1, s. 95.

[47] "Camiul-Əxbar", fəsil: 22, s. 43; "Məcməul-bəyan", c. 1, s. 88.

## “FATİHƏ” SURƏSİ, AYƏ 1

بِسْمِ اللّهِ الرَّحْمـَنِ الرَّحِيمِ.

**“Rəhman və Rəhim olan Allahın adı ilə”**

**HƏRFİ TƏRCÜMƏ**

*(Altından iki xətt çəkilən saitlər uzun tələffüz olunmalıdır).*

بِسْمِ “ism” – “Ad”. “Bismillah” – “Allahın adı ilə”

اللّهِ “Allah” – “Allah” kəlməsi bütün kamilliklərə (kamal və camal sifətlərinə) sahib olan və məbud (ibadət olunan varlıq) mənasını ifadə edən xüsusi isimdir və Quranda 2698 dəfə qeyd edilmişdir. Bu söz o qədər Yaradanın ismi kimi çəkilmişdir ki, Onun xüsusi adına çevrilmişdir. Bu barədə görkəmli alim Əllamə Cavadi Amuli “Təsnim” təfsirində qeyd etmişdir.[48]

الرَّحْمـَنِ “Ər-Rəhman” – “Dünyada həm möminə, həm kafirə və bütün kəslərə rəhm edən”

الرَّحِيمِ “Ər-Rəhim” – “Axirətdə isə yalnız möminlərə rəhm edən”

**TƏFSİR**

“Allah” – Uca Yaradanımızın ən uca və əzəmətli adlarından biridir. Bu ad yalnız Allaha məxsus olan bir addır. Quranda bir neçə şəxsin rububiyyətindən və özlərini Allah kimi qələmə verməsindən söhbət açılır ki, Nəmrud da onlardan biri idi. “Bəqərə” surəsinin aşağıdakı ayəsi buna bariz nümunədir:

48 “Təsnim” təfsiri, c. 1, s. 279.

أَلَمْ تَرَ إِلَى الَّذِي حَاجَّ إِبْرَاهِيمَ فِي رِبِّهِ أَنْ آتَاهُ اللهُ الْمُلْكَ إِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّيَ الَّذِي يُحْيِي وَيُمِيتُ قَالَ أَنَا أُحْيِي وَأُمِيتُ قَالَ إِبْرَاهِيمُ فَإِنَّ اللهَ يَأْتِي بِالشَّمْسِ مِنَ الْمَشْرِقِ فَأْتِ بِهَا مِنَ الْمَغْرِبِ فَبُهِتَ الَّذِي كَفَرَ وَاللهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ.

(Ya Rəsulum!) Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi (Nəmrudu) görmədinmi? İbrahim: "Mənim tanrım həm dirildir, həm də öldürür", - dediyi zaman, o (Nəmrud): "Mən də həm dirildir, həm də öldürürəm", - demişdi. İbrahim ona: "Allah Günəşi şərqdən doğdurur, bacarırsansa, sən onu qərbdən doğdur!" – dedikdə, o kafir donub qalmışdı. Həqiqətən, Allah zülm edənləri düz yola yönəltməz!"[49]

Burada həzrət İbrahim (ə) Nəmrudla bəhs edir və sonuncu iddia edir ki, "mən də həm dirildir, həm də öldürürəm!" Həzrət İbrahim (ə) isə Allahı təqdim edir və nəticədə Nəmruda üstün gəlir. Nəmrud allahlıq deyil, rububiyyət, yəni işləri idarə etdiyi iddiasında idi.

Fironu da buna misal göstərmək olar. "Naziat" surəsində belə buyrulur:

فَقَالَ أَنَا رَبُّكُمُ الْأَعْلَى.

"Firon dedi: "Sizin ən uca rəbbiniz mənəm!"[50]

Beləliklə, firon allahlıq iddiasında deyildi, sadəcə rububiyyəti özünə isnad edirdi. Deyilənlərə görə, tarixdə yalnız bir nəfər: "Mən sizin Allahınızam" - deyərək allahlıq iddiasını etmişdir; bu sözü deyən kimi onun yediyi bütün qidalar mədəsində cücərir və qarnından xaric olaraq onu həlak edir.

---

[49] "Bəqərə" surəsi, ayə 258.

[50] "Naziat" surəsi, ayə 24.

Bəli, “Allah” - yalnız uca Allaha məxsus olan adlardan biridir.

“Nurus-Səqəleyn” təfsirində “Bismillahir Rəhmanir Rəhim” ifadəsinin təfsirində bunlar qeyd olunub:

اللهُ هُوَ الَّذِي يَتَأَلَّهُ إِلَيْهِ عِنْدَ الْحَوَائِجِ وَ الشَّدَائِدِ كُلُ مَخْلُوقٍ عِنْدَ انْقِطَاعِ الرَّجَاءِ مِنْ كُلِّ مَنْ هُوَ دُونَهُ وَ تَقَطُّعِ الْأَسْبَابِ مِنْ جَمِيعِ مَا سِوَاه.

“Allah” o kəsdir ki, hər məxluq bütün hacət və çətinlikləri zamanı Ona üz tutur. Allahdan başqa hər kəsdən ümid üzüldükdə və Allahdan başqa bütün vasitələr kəsildikdə, bu hal baş verir və son ümid yeri Allah olur.”.[51]

Diqqət etmək lazımdır ki, burada yalnız insandan söhbət getmir. Bütün yaradılmışlar: canlı və cansızlar, heyvanlar, quşlar, həşəratlar, suda və quruda olan hər bir varlıq Allah-taalaya üz tutur. Biz bunları görmədiyimizdən lazımınca dərk edə bilmirik. Məsum İmam (ə) buyurur ki, “Allah” həmin kəsdir ki, bütün varlıqlar Ona üz tutur”. Bəli, bütün varlıqlar çətinlik zamanı Allaha üz tutur: həm insan Allaha ümid bəsləyir, həm də digər yaradılmışlar Uca Yaradana sığınır və Ondan yardım diləyir. Hər kəs, hətta müsəlman olmasa belə, ən son məqamda öz nəzərində təsəvvür etdiyi bir varlığa üz tutur. Təəssüf ki, bu vəziyyət ən son məqamda baş verir, kaş, bütün insanlar elə əvvəldə Allaha üz tutardılar! “Bismillah” deməklə insan bildirir ki, hər bir canlının, həşəratların, quşların, suda və quruda yaşayanların ümidi və son pənahgahı olan Allahın adı ilə başlayıram, hər kəs və hər bir şey kimi mən də hər bir işimdə Ona üz tuturam!

**“Ər-Rəhman” və “Ər-Rəhim”.** الرَّحْمَـنِ الرَّحِيمِ.

Hər kəsə məlumdur ki, ölülərə Allahın rəhmətini, dirilərə isə Allahın rəhm etməsini diləyirik. “Rəhm” və “rəhmət” ifadələrinin bir-birilə incə fərqi var. Belə ki, “rəhmət” xüsusi bir rəhmətdir. Ölülərin bərzəxdəki xüsusi halını nəzərə alaraq, Allah taaladan

[51] “Nurus-Səqəleyn” təfsiri, c. 1, s. 12.

xüsusi bir rəhmət diləyirik. Xüsusi rəhmət məfhumunu dəqiq izah etmək üçün, Allah taalanın Rəhman və Rəhim sifətlərindəki fərqə diqqət etməyimiz yetər. Bu fərq haqqında izah edəcəyik.

Burada belə bir sual meydana çıxır: Allah-taala və insanlarda rəhm etmək məfhumu eynidirmi?

Biz insanlar bir-birimizə rəhm edəndə nə baş verir? Məsələn, birinə ürəyimiz yanır, kövrəlirik, gözlərimiz yaşarır və ruhumuzda dəyişik bir halət yaranır. Bununla insan başqasına rəhm edir. Allah-taalada isə belə bir hal ola bilməz, O, müqəddəs varlıqdır və məxluqatda, o cümlədən maddi aləmdə olan sifətlərdən uzaqdır. Bu səbəbdən, insanlarda olan rəhmətin mahiyyəti Allahın rəhmətindən fərqlənir.

Lüğətdə yazılır:

الرحمة من الله انعام و افضال.

"Allahdan olan rəhmət yəni, nemət vermək və həddən artıq bəxşiş etmək deməkdir".

Beləliklə də bəndələrdə olan xüsusiyyətlər (kövrəlmək və s.), rəhmin təsirləri Allahda yoxdur, çünki insana xas olan sifətlər məxluqatın xüsusiyyətləridir və onlar ancaq məxluqata aiddir. Allah-taala insanların ehtiyaclarını Öz rəhmətilə aradan qaldırır.

Əmirəl-möminin həzrət Əli (ə) belə buyurur:

رَحِيمٌ لاَ يُوصَفُ بِالرِّقَّةِ.

"Allah-taala rəhm edəndir, lakin Onda riqqət (insanlardakı olduğu kimi kədər, hüzn və acıma hissi) yoxdur".[52]

Daha dəqiq desək, insanlarda baş verən hallar və dəyişikliklər Allahda yoxdur, çünki O, müqəddəs varlıqdır.

**"RƏHMAN"** sözünün mənası haqda İmam Sadiq (ə) buyurur:

الرَّحْمَنُ بِجَمِيعِ خَلْقِهِ وَ الرَّحِيمُ بِالْمُؤْمِنِينَ خَاصَّةً.

[52] "Nəhcül-Bəlağə", xütbə: 179.

"Allah-taala bu dünyada bütün məxluqata rəhm edəndir, Qiyamətdə isə rəhmət süfrəsi yalnız möminlər üçün olacaq".[53]

"Fatihə" surəsində "Allah" kəlməsindən sonra "Ər-Rəhman" və "Ər-Rəhim" sifəti iki dəfə qeyd edilmişdir: "**Bismillahir Rəhmanir Rəhim"** بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيم və bir ayədən sonra "**Ər-Rəhmanir Rəhim".**

İnsan "Bismillahir Rəhmanir Rəhim" deməklə Rəbbindən kömək diləyir. Allah-taala "Ər-Rəhman" və "Ər-Rəhim" sifətlərindən sonra qeyri sifətlərini də bəyan edə bilərdi, çünki, məlum olduğu kimi, Uca Yaradanımızın bir çox sifətləri var, məsələn: Əlim, Həkim, Qadir və s. Ancaq, gördüyümüz kimi, Allah-taala burada ancaq "Rəhman" və "Rəhim" sifətlərini qeyd edib. Bununla Yaradan, sanki, insana bunları bəyan etmək isəyir: "Sən dünyada rəhmət süfrəsinin kənarında əyləşmisən, məbada günah etməklə Axirətdə rəhmətdən uzaqda qalasan və özünü məhrum edəsən! Buna görə diqqətli ol!"

İnsan hər kiçik işin əvvəllində **"Bismillahir Rəhmanir Rəhim"** deyib Allah-taalanın rəhmətini dilə gətirərkən özünə xatırladır ki, gördüyü işin əhəmiyyətsiz olmasına baxmayaraq, Allahın rəhməti olduqda, bu, səmərəli bir işə çevrilə bilər. Əgər görəcəyi iş böyük olsa, "Bismillahir Rəhmanir Rəhim" deməklə, sanki bunu bildirir: "İş nə qədər böyük olsa da, Sənin rəhmətin hər şeydən böyükdür, mənim ümidim Sənədir!"

Beləliklə, Rəbbin bu adları insana bir növ psixoloji dəstək verir, bəşər rəhməti geniş olan Allaha sığındığını bildirir və nəticədə bu işdə uğur əldə edəcəyinə ümid yaranır.

---

[53] "Nurus-Səqəleyn", c. 1, s. 12.

## ALLAHIN ADIYLA BAŞLAMAĞIN VACİBLİYİ

Bu bəhsimizdə "Fatihə" surəsinin birinci ayəsinə aid olan mövzulardan söhbət açmaq istərdik. Qeyd etdiyimiz kimi, surənin birinci ayəsi "**Bismillahir Rəhmanir Rəhim"**dir, mənası: "Rəhman və Rəhim olan Allahın adı ilə". "Rəhman" və "Rəhim" kəlmələrinin mənaları barədə ayrıca danışacağıq.

Burada iki mövzuya toxunacağıq, onlardan biri "Allahın adı ilə başlamaq" mövzusudur. Diqqətəlayiqdir ki, Allah-taala Qurani-kərimin 114 surəsinin 113-nü "Bismillahir Rəhmanir Rəhim" ayəsilə başlamışdır. "Ələq" surəsinin birinci ayəsində buyrulur:

اقْرَأْ بِاسْمِ رَبِّكَ الَّذِي خَلَقَ.

"Səni yaradan Rəbbinin adı ilə oxu!"

Həzrət Muhəmməd Peyğəmbərə (s) ilk ayə nazil olduqda, Allah-taala: "Səni yaradan Rəbbinin adı ilə oxu!" şəklində buyurur. Bu, 23 illik peyğəmbərliyin başlanğıc nöqtəsini, yəni Allahın adı ilə başlamaq və Allahın adını çəkmək məsələsini ön plana çəkmişdir. Bu məsələ bütün Peyğəmbərlərə (ə) nazil olan bir hökm və əmr idi. "Hud" surəsində həzrət Nuh (ə) gəmiyə minərkən belə buyurur:

وَقَالَ ارْكَبُواْ فِيهَا بِسْمِ اللّهِ مَجْرَاهَا وَمُرْسَاهَا إِنَّ رَبِّي لَغَفُورٌ رَّحِيمٌ.

"O dedi: "Onun (Allahın) adı ilə gəmiyə minin! Gəmi hərəkət edəndə də, dayananda da onu xatırlayın ki, Rəbbim bağışlayandır, rəhm edəndir!"[54]

Həzrət Nuh (ə) "Bismillah" dedikdə gəmi hərəkət edir, yenidən "Bismillah" dedikdə isə dayanırdı.

Peyğəmbərlərin həyatına nəzər saldıqda Allahın adına böyük əhəmiyyət verdiklərini görürük. Həzrət Süleyman (ə) Səba

---

[54] "Hud" surəsi, ayə 41.

qövmünə göndərdiyi məktubunu "Bismillahir Rəhmanir Rəhim" ifadəsilə başlamışdır. Bununla, Allah nəbisi Yaradanından yardım istəyir və bu kəlmələri yazmaqla həmin qövmə başa salır ki, mən sizi Allah yoluna dəvət edirəm və bu, mənim öz şəxsi yolum deyil, Rəhman və Rəhim olan Allahın yoludur. Bəli, Peyğəmbər (ə) məhz bu mesajı onlara vermək istəyirdi.

Mötəbər hədislərimizdə də bu məsələyə xüsusi yer ayrılır. İmam Sadiq (ə) buyurur:

**قَالَ أَبُو عَبْدِ اللهِ عَلَيْهِ السَّلَامُ: لَا تَدَعْ بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيمِ وَ إِنْ كَانَ بَعْدَهُ شِعْرٌ.**

"Hətta bir sətir şeir belə yazmaq istəsən, onun əvvəlində "Bismillahir Rəhmanir Rəhim" ifadəsini yaz".[55]

Bəli, hər bir işin başlanğıcında Allahın adını çəkmək lazımdır. Başqa bir hədisdə İmam Sadiq (ə) belə buyurur:

قَالَ أَبُو عَبْدِ اللَّهِ (ع) اكْتُبْ بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ- مِنْ أَجْوَدِ كِتَابِك.

"Bismillahir Rəhmanir Rəhim"i çox gözəl şəkildə yazın".

Allah-taalanın adına önəm vermək, hər işin əvvəlində dilə gətirmək, yazmaq məqsədəuyğun və dəyərli bir əməl, əzəmətli ibadətdir.

**"Bismillahir Rəhmanir Rəhim"** deməklə insan, sanki, bunu ifadə edir: "İlahi, bu gün əldə edəcəyim nailiyyətlərdə Sənin rəhmət və mərhəmətini, köməyini gözləyirəm!"

**"Bismillahir Rəhmanir Rəhim"** deməklə insan Allahın tövhidinə, Onun Malik və Sahib olmasına, yenilməz qüdrət sahibi olmasına etiqad etdiyini nümayiş etdirir.

**"Bismillahir Rəhmanir Rəhim"** bir zikrdir, insan hər işin əvvəlində bunu söyləməklə bu zikrdə olan xüsusiyyətləri, davamlılığı, sanki, öz üzərində tətbiq edir və bu ifadənin nurunun işlərinə təsir etməsini istəyir. Allah Rəsulu (s) buyurur:

---

[55] "Nurus-Səqəleyn", c. 1, s. 7.

كُلُّ أَمْرٍ ذِي بَالٍ لَا يُذْكَرُ بِسْمِ اللهِّ فِيهِ فَهُوَ أَبْتَر

"Hər bir önəmli işdə "Bismillahir Rəhmanir Rəhim" deyilməsə, o iş yarımçıq qalar".[56]

Başqa sözlə, yarımçıq qalar, ya ümumiyyətlə başa çatmaz, ya da başa çatsa belə, insan onda uğur və xeyir əldə etməz. Bu, onu göstərir ki, hər bir işin davamlı və bərəkətli olması üçün insan "Bismillahir Rəhmanir Rəhim" ifadəsini dilinə gətirməlidir. Bu da Allahdan yardım istəmək deməkdir.

Həzrət Əli (ə) buyurur:

إِنَّ اللهَّ يَقُولُ أَنَا أَحَقُّ مَنْ سُئِلَ وَ أَوْلَى مَنْ تُضُرِّعَ إِلَيْهِ فَقُولُوا عِنْدَ افْتِتَاحِ كُلِّ أَمْرٍ صَغِيرٍ وَ عَظِيمٍ بِسْمِ اللهِّ الرَّحْمنِ الرَّحِيمِ- أَيْ أَسْتَعِينُ عَلَى هَذَا الْأَمْرِ بِاللهِّ.

"Həqiqətən, Allah-taala buyurur ki, Mən, kömək istənilməyə daha layiqəm. Hər bir kiçik və böyük işin əvvəlində "Bismillahir Rəhmanir Rəhim" deyin, yəni "Bu işdə Allahdan kömək istəyirəm" deyin".[57]

İmam Sadiq (ə) həmçinin bir hədisdə buyurur:

وَ لَرُبَّمَا تَرَكَ بَعْضُ شِيعَتِنَا فِي افْتِتَاحِ أَمْرِهِ بِسْمِ اللهِّ الرَّحْمنِ الرَّحِيمِ- فَيَمْتَحِنُهُ اللهُّ بِمَكْرُوهٍ لِيُنَبِّهَهُ عَلَى شُكْرِ اللهِّ وَ الثَّنَاءِ عَلَيْهِ وَ يُمْحَقَ وَصْمَةُ تَقْصِيرِهِ عِنْدَ تَرْكِهِ قَوْلَ بِسْمِ اللهِّ.

"Çox vaxt bizim bəzi şiələrimiz işə başlayanda "Bismillahir Rəhmanir Rəhim" deməyi tərk edir. Allah-taala onlara bir müsibət göndərir ki, Yaradanına şükür etmək üçün onu ayıltsın və Allahın adını tərk etməsinin cəzası o müsibətlə aradan getsin".[58]

**"Bismillahir Rəhmanir Rəhim"** ifadəsini dilə gətirmək, həmçinin, bir növ nəfsin qürur və təkəbbürünü sındırmaqdır. Belə

---

[56] "Vəsailuş-Şiə", c. 7, s. 170.
[57] "Vəsailuş-şiə", c. 7, s. 169.
[58] "Vəsailuş-şiə", c. 7, s. 169.

ki, istər-istəməz, dünyəvi işlər, var-dövlət və nailiyyətlər bəşər nəfsində qürur və təkəbbürlük yaradır. Beləcə, insan işlərinin əvvəlində Allahın adını çəkdiyi təqdirdə, bu, hər dəfə ona Allahı xatırladar və onların Allah tərəfindən olduğunu aşkar edər.

"Bismillahir Rəhmanir Rəhim" demək gözəl fellərdəndir və insanın öz işlərini sığortalamasıdır. Sevimli Peyğəmbərimizin (s) buyurduğu kimi, Allahın adı çəkilməyən hər bir iş yarımçıq və qeyri-müvəffəq olar.

"Bismillahir Rəhmanir Rəhim" Allahın zikridir və insanı günahlardan uzaqlaşdırır. Yuxarıda qeyd etdiyimiz kimi, 114 surədən 113-ndə "Bismillahir Rəhmanir Rəhim" ayəsi yer alır. Nəml surəsinin ayələri əsnasında "Bismillahir Rəhmanir Rəhim" ifadəsi işlənilir və beləcə birlikdə 114 dəfə edir. Sadəcə "Tövbə" surəsində sözügedən ayəyə rast gəlinmir. Əllamə Təbatəbai "Əl-Mizan" təfsirində bunları qələmə alıb:

"Allah-taala Öz kəlamını 114 surədə əvvəldən Öz adı ilə başladı və Öz adı ilə nazil etdi. Bununla O, insanlara öz əməl, rəftar və danışıqlarında Allah qarşısında nümayiş etdirməli olduqları ədəbi öyrədir. Bir sözlə, (insan) bütün işlərdə özündən və bütün yaradılışdan əzəmətli olan Allah qarşısında ədəb göstərməlidir".[59]

Beləliklə, Əllamə Təbatəbai bildirir ki, "Bismillah" demək Allah qarşısında ədəb göstərmək deməkdir.

Qeyd etmək lazımdır ki, "Bismillahir Rəhmanir Rəhim" demək bəzi hallarda vacib, bəzilərində isə müstəhəbdir. Belə ki, heyvanın başını kəsdikdə və vacibi ibadətlərdə "Bismillahir Rəhmanir Rəhim" ifadəsini dilə gətirmək vacibdir. Məsələn, namaz qılarkən surənin əvvəlində "Bimillahir Rəhmanir Rəhim" demək vacibdir.

---

[59] "Əl-Mizan", c. 1, s. 15.

# "ALLAH, MUHƏMMƏD, YA ƏLİ"

***Bəziləri irad bildirir ki, bir işə başlayarkən Allahın adı ilə yanaşı "Allah, Muhəmməd, ya Əli" ifadəsini işlətmək şirkdir, (Allaha şərik qoşmaqdır), bu isə ən böyük zülmdür.***

***Cavab:***

Əvvəla, bu iradı tutanlara demək istərdik ki, tələskənliklə qəzavət edib hökm çıxarmasınlar və həmin ifadəni işlədənin məqsədinin, niyyətinin nədən ibarət olduğunu öyrənsinlər, görün nə üçün həmin şəxs o sözləri deyir? Belə ki, bu cür ifadə edənlər "Allah" dedikdə Allahın allahlığını qəbul edir, "Muhəmməd, ya Əli" dedikdə, yəni onların adlarını çəkdikdə, bunu Allahın adı kimi dilə gətirirlərmi? Allahın adını çəkdikdə, Onu tək, Yaradan və Xaliq olaraq dilə gətirirlər, bəs Peyğəmbərin (s) adını nə məqsədlə deyirlər? Əgər desələr ki, Peyğəmbərin (s) adını Allahın adını dilə gətirdiyimiz kimi çəkirik, Allahın allahlığına inandığımız kimi (nəuzu billəh) Peyğəmbərin (s) də allahlığını qəbul edirik və Əlinin (ə) də adını bu məqsədlə çəkirik, o halda bu əməl düzgün deyil və şirk hesab olunur, günahdır, haramdır.

Lakin desələr ki, Allahın allahlığını qəbul edirik, Peyğəmbər (s) peyğəmbərimizdir, həzrət Əli (ə) də onun haqq xəlifəsidir və onları sevdiyimizdən, onları xeyir-bərəkət üçün bir vasitə hesab etdiyimiz üçün, onların adlarını çəkirik, bu halda heç bir qəbahət yoxdur. Bir daha təkidlə bildririk ki, tələskənliklə bu cür yanlış qəzavət etmək olmaz. Bəziləri "Ya Əli" dediyimizə irad bildirərək, bir növ həzrət Əli (ə) barəsində qüluvv etdiyimizi və məqamını həddən artıq şişitdiyimizi düşünürlər. Halbuki məsələ heç də bu cür deyil. Belə ki, təkcə İmam Əlinin (ə) adını "Ya Əli" kimi dilə gətirmək, yəni əvvəlində "Ya" demək, o həzrəti Peyğəmbərdən (s) üstün hesab etmək sayılmır. Çünki "Allah",

“Muhəmməd” kəlmələrinin əvvəlində də “Ya” sözü var. Əslində, “Ya Allah”, “Ya Muhəmməd”dir.

Biz hər bir işin əvvəlində Allahın adını çəkir və çəkməliyik, bu bizim ilkin vəzifəmizdir. Elə isə nə üçün Peyğəmbər (s) və İmamın (ə) adını dilə gətiririk?

Səbəb ondan ibarətdir ki, sevimli Peyğəmbərimizin (s), həzrət Əlinin (ə) adını çəkmək xeyir-bərəkətə səbəb olur, çünki bu, müqəddəs adlardır. Bu barədə olan hədisləri həm şiə, həm də sünni mənbələrindən nəql edəcəyik.

Peyğəmbərimizdən (s) belə nəql olunur:

من تسمي باسمي يرجوا بركتي و يمني غدت عليه البركة و الراحة الي يوم القيامة.

“Mənim xeyir-bərəkətimi ümid edərək adımı çəkərsə, bir şəxsə adımı qoyarsa, üzünə bərəkətli bir səhər açılar və Qiyamət gününə qədər həmin bərəkət onunla olar”.[60]

İmam Sadiq (ə) isə belə buyurur:

قَالَ رَسُول اللهِّ (ص) مَا مِنْ أَهْلِ بَيْتٍ فِيهِمُ اسْمُ نَبِيٍّ إِلَّا بَعَثَ اللهُ عَزَّ وَ جَلَّ إِلَيْهِمْ مَلَكاً يُقَدِّسُهُمْ بِالْغَدَاةِ وَ الْعَشِيِّ.

“Bir evdə Peyğəmbərin (s) ismilə adlandırılmış bir şəxs olsa, Allah-taala bir mələk göndərər və o mələk həmin evdə səhər-axşam sakinləri üçün dua edər”.[61]

Musa, İsa, Saleh, Muhəmməd, Əhməd və s. bu kimi adları daşıyan şəxslər hansı evdə olsa, Allah-taala ora bir mələk göndərər və o, həmin evdə Allahdan xeyir-bərəkət diləyər, həmin evin sakinləri üçün dua edər.

Aşağıda İmam Sadiqdən (ə) nəql olunan hədis diqqətəlayiqdir:

---

[60] “Kənzul-ümmal”, hədis: 45221; Süyuti, “Əl-Camiul-kəbir lis-Süyuti”, hədis: 4506; Əbu Nəim İsfahani, “Mərifətus-səhabə”, hədis: 1712.

[61] “Vəsailuş-şiə”, c. 21, s. 396.

عَنْ جَابِرٍ، قَالَ: أَرَادَ أَبُو جَعْفَرٍ عَلَيْهِ السَّلَامُ الرُّكُوبَ إِلى بَعْضِ شِيعَتِهِ لِيَعُودَهُ، فَقَالَ: «يَا جَابِرُ الْحُقْنِي» فَتَبِعْتُهُ، فَلَمَّا انْتَهى إِلى بَابِ الدَّارِ، خَرَجَ عَلَيْنَا ابْنٌ لَهُ صَغِيرٌ، فَقَالَ لَهُ أَبُو جَعْفَرٍ عَلَيْهِ السَّلَامُ: «مَا اسْمُكَ؟» قَالَ: مُحَمَّدٌ، قَالَ: «فَبِمَا تُكَنّى؟» قَالَ، بِعَلِيٍّ، فَقَالَ لَهُ أَبُو جَعْفَرٍ عَلَيْهِ السَّلَامُ: «لَقَدِ احْتَظَرْتَ مِنَ الشَّيْطَانِ احْتِظَاراً شَدِيداً؛ إِنَّ الشَّيْطَانَ إِذَا سَمِعَ مُنَادِياً يُنَادِي: يَا مُحَمَّدُ، يَا عَلِيُّ، ذَابَ كَمَا يَذُوبُ الرَّصَاصُ، حَتّى إِذَا سَمِعَ مُنَادِياً يُنَادِي بِاسْمِ عَدُوٍّ مِنْ أَعْدَائِنَا، اهْتَزَّ وَ اخْتَال

Cabir əl-Cofi nəql edir: "İmam Muhəmməd Baqir (ə) bir gün dostlarından olan bir şiənin əyadətinə getdi. Mən də həzrətin ardınca getdim. Evin qapısına çatanda qarşımıza bir azyaşlı oğlan çıxdı. İmam Baqir (ə) ona buyurdu: "Adın nədir?"

Dedi: "Muhəmməd".

İmam Baqir (ə) buyurdu: "Künyən nə ilədir?"

Dedi: "Əli ilə". (Yəni künyəm Əbu Əlidir).

İmam Baqir (ə) buyurdu:

"Sən şeytanın şərindən amandasan. Həqiqətən, Şeytan bir şəxsin "Ya Muhəmməd", "Ya Əli" sözlərini dilinə gətirdiyini eşidərsə, dəmir və mis əriyib aradan getdiyi kimi şeytan da o cür əriyib yoxa çıxar; yəni bu sözlər ona ağır gələr. Amma elə ki düşmənlərimizin birinin adının çəkildiyini eşidər, şiddətlə hərəkətə keçər və lovğalanar".[62]

İmam Rza (ə) isə bir hədisdə belə buyurur:

الْبَيْتُ الَّذِي فِيهِ مُحَمَّدٌ يُصْبِحُ أَهْلُهُ بِخَيْرٍ وَ يُمْسُونَ بِخَيْر

"Muhəmməd adlı bir şəxsin yaşadığı evin əhli gecə-gündüz xeyir-bərəkət içində olar".[63]

Həmçinin bəhs etdiyimiz mövzuya dair belə bir hədis də nəql olunmqdadır:

---

[62] "Vəsailuş-şiə", c. 21, s. 393.

[63] "Vəsailuş-şiə", c. 21, s. 394.

عَنْ سُلَيْمَانَ الْجَعْفَرِيِّ قَالَ سَمِعْتُ أَبَا الْحَسَنِ (ع) يَقُولُ لَا يَدْخُلُ الْفَقْرُ بَيْتاً فِيهِ اسْمُ مُحَمَّدٍ أَوْ أَحْمَدَ أَوْ عَلِيٍّ أَوِ الْحَسَنِ أَوِ الْحُسَيْنِ أَوْ جَعْفَرٍ.

"Süleyman əl-Cəfəri, İmam Rzadan (ə) belə nəql edir: "Muhəmməd, Əhməd, Əli, Həsən, Hüseyn, Cəfər və bu kimi mübarək adların sahiblərinin yaşadığı evə fəqirlik daxil olmaz".[64]

Əhli-sünnənin mənbəyi olan "Kənzul-ümmal" kitabından nəql etdiyimiz hədisdə qeyd olunduğu kimi, sevimli Peyğəmbərimiz (s): "Mənim xeyir-bərəkətimin ümidiylə adımı çəkənin üzünə bərəkətli bir səhər açılar və Qiyamət gününə qədər həmin bərəkət onunla olar"- deyə buyurur. Ona görə də, əgər bir insan hər-hansı bir işin əvvəlində "Allah, Muhəmməd, ya Əli" deyirsə, birincisi Allahın adını çəkmək və hər bir işi Onun adı ilə başlaması lazımdır. İkincisi, vurğuladığımız kimi, "Muhəmməd" və "Əli" adlarında xeyir və bərəkət var. Bunu biz demirik, şəxsən Allah Rəsulu (s) buyurur. Bu məsələyə dəlalət edən arqumentləri artıq sizə təqdim etdik. Bunu Məsum İmamlar (ə) buyurur və bizə başa salır.

Bu bəhsin sonunda bir mətləbi də xatırlatmaq istərdik. Belə ki, bir şəxs, məsələn, heyvanın başını kəsdikdə və ya digər hallarda qəsdən Allahın deyil, Peyğəmbər (s) və ya İmamın (ə) adını çəksə, bu iş batildir və heyvanın əti bununla halal olmaz. Daha dəqiq desək, Allahın adını çəkmək istəməsə və bilərəkdən "Bismillah" demək əvəzinə digər kəslərin adını çəksə, bu, düzgün sayılmaz və heyvanın əti murdar olacaqdır. Qeyd etdiklərimizdən bir daha anlaşıldı ki, Allahın adı ilə yanaşı "Muhəmməd" və ya "Əli" deməkdə bir maneə yoxdur, əlbəttə, vurğuladığımız şərtlər çərçivəsində.

---

[64] "Vəsailuş-şiə", c. 21, s. 396.

## “BİSMİLLAHİR RƏHMANİR RƏHİM”İN SAYI

Mühüm məsələlərdən biri də Qurani-Kərimdə hər bir surənin əvvəlində “Bismillahir Rəhmanir Rəhim” ifadəsinin hər dəfə nazil olub-olmamasıdır. Belə ki, bəzilərinin nəzərincə, Allah-taala tərəfindən yalnız bir “Bismillahir Rəhmanir Rəhim” ifadəsi nazil olmuş, digər surələrin əvvəlində olanlar isə həzrət Muhəmməd Peyğəmbər (s) tərəfindən yerləşdirilmişdir. Beləliklə, bu bəhsimizi məhz bu məsələyə həsr etmək istərdik.

Qeyd etmək lazımdır ki, Quranda 114 surə var və 113 surənin əvvəlində “Bismillahir Rəhmanir Rəhim” ayəsi yer almaqdadır. “Tövbə” surəsinin əvvəlində “Bismillah” ifadəsi yoxdur və bu surə “Bismillah”sız nazil edilmişdir. *Belə bir sual meydana gəlir: “Quranda Allah-taala tərəfindən nazil olan “Bismillahir Rəhmanir Rəhim” ifadəsi birdir, yoxsa 113 dənədir? Bu ifadə hər dəfə surə nazil olanda nazil olmuşdur, yoxsa bir dənə “Bismillahir Rəhmanir Rəhim” nazil olmuş və hər surənin əvvəlində təkrar edilmişdir?”*

Əhli-Beyt (ə) məktəbi ardıcılı olaraq nəzərimiz budur ki, hər surənin əvvəlində “Bismillahir Rəhmanir Rəhim” ifadəsi nazil olmuş və yalnız “Tövbə” surəsində bu ayə gəlməmişdir.

**Sual:**

***“Bismillahir Rəhmanir Rəhim” ayəsinin bir dəfə və ya 113 dəfə nazil olmasına etiqad etmək nə qədər əhəmiyyətlidir?”***

**Cavab:**

Bunun əhəmiyyəti bir neçə yerdə özünü əks etdirə bilər. Məsələn, namaz məsələsində. Qeyd etməliyik ki, *“Bismillahir Rəhmanir Rəhim” ayəsinin* yalnız bir dəfə nazil olduğuna etiqad edənlər namazda hər surənin deyil, məhz bir surənin əvvəlində *“Bismillahir Rəhmanir Rəhim”* deyirlər. İkinci surəni oxuyanda isə

artıq "Bismillahir Rəhmanir Rəhim" demədən başlayırlar. Bu isə ikinci surəni yarımçıq oxumaq anlamına gəlir. Nəticədə namaz batil hesab edilir. Digər tərəfdən, bu, Allah tərəfindən nazil olanı inkar etmək deməkdir. Yəni 113 dəfə nazil olubsa da, 113 deyil, 1 dəfə nazil olmasına etiqad edilir.

Ona görə də bir dəfə "Bismillahir Rəhmanir Rəhim" demək kifayət deyil və bizim əqidəmizə görə, hər surənin əvvəlində "Bismillahir Rəhmanir Rəhim"i oxumaq lazımdır.

Digər təriqətlərə, məsələn, Maliki məzhəbinə nəzər salsaq, görərik ki, onların etiqadına əsasən, Quranda yalnız bir dənə "Bismillahir Rəhmanir Rəhim" ifadəsi var və o da "Nəml" surəsindədir. Hənəfi, Hənbəli kimi təriqətlərin ardıcılları "Fatihə" surəsindəki "Bismillahir Rəhmanir Rəhim"i "Fatihə"nin bir hissəsi hesab edir, lakin namazda onu alçaq səslə oxuyurlar.

Ümumilikdə, bizim əqidəmizə əsasən, Qurani-Kərimdə 113 "Bismillahir Rəhmanir Rəhim" ayəsi nazil olmuşdur. Burada tarixdə baş vermiş müəyyən hadisələr və fərqli yanaşmaların səbəbini sizə açıqlamaq məqsədəuyğun olardı. Şübhəsiz ki, ixtilaf və fərqli yanaşmaların bir kökü var, onların bir nümunəsini sizə təqdim etmək istərdik.

"Əl-Mustədrəku ələs-səhihəyn" kitabında, o cümlədən Fəxr Razinin "Təfsir" əsərində belə bir həqiqət əks olunur:

حدثنا أبو العباس محمد بن يعقوب أنبأ الربيع بن سليمان أنبأ الشافعي أنبأ عبد المجيد بن عبد العزيز عن بن جريج أخبرني عبد الله بن عثمان بن خثيم أن أبا بكر بن حفص بن عمر أخبره أن أنس بن مالك قال صلى معاوية بالمدينة صلاة فجهر فيها بالقراءة فقرأ فيها بسم الله الرحمن الرحيم لأم القرآن ولم يقرأ بسم الله الرحمن الرحيم للسورة التي بعدها حتى قضى تلك القراءة فلما سلم ناداه من سمع ذلك من المهاجرين والأنصار من كل مكان يا معاوية أسرقت الصلاة أم

نسيت فلما صلى بعد ذلك قرأ بسم الله الرحمن الرحيم للسورة التي بعد أم القرآن هذا حديث صحيح على شرط مسلم.

"Müaviyə Mədinəyə gəldi və orada namaz qıldı. Namazda "Fatihə" surəsində "Bismillahir Rəhmanir Rəhim"i oxudu, lakin ondan sonra oxuduğu surənin əvvəlində "Bismillahir Rəhmanir Rəhim"i oxumadı. Müaviyənin bu cür namaz qılmasına mühacir və ənsarlar etiraz edib dedilər: "Sən namazda oğurluq etdin, ya unutdun?" Müaviyə sonrakı namazda "Fatihə"dən sonra dediyi surənin əvvəlində "Bismillahir Rəhmanir Rəhim"i oxudu".[65]

Hakim Nişapuri hədisin səhihliyini etiraf edərək yazır: "Bu hədisin raviləri, "Səhih-Müslim"in raviləridir". Yəni Müslimin "Səhih"i kimi səhih hədisdir.

Bu hadisənin özü onu göstərir ki, namazda surənin əvvəlində "Bismillahir Rəhmanir Rəhim" ifadəsini oxumamağın əsası və kökü Bəni-Üməyyə dönəminə təsadüf edir. Burada ənsar və mühacirlər də ona etriaz edirlər. Belə ki, onların əqidəsinə görə namazda "Fatihə"dən sonra oxunan surənin əvvəlində də "Bismillahir Rəhmanir Rəhim" ifadəsini oxumaq lazımdır. Mühacir və ənsarın etirazı ilə qarşılaşan Müaviyə namazında dəyişiklik etmək məcburiyyətində qalır.

Ənsar və mühacir də hər bir surənin əvvəlində oxunan "Bismillahir Rəhmanir Rəhim"i yeni bir ayə hesab etdiyindən məhz ona görə "Fatihə"dən sonra oxunan surənin əvvəlində ayrıca olaraq "Bismillahir Rəhmanir Rəhim"i oxumağı zəruri sayırdı. Belə ki, hər "Bismillahir Rəhmanir Rəhim" surənin tərkib hissəsi olmasaydı, ayrıca olaraq hər surənin əvvəlində "Bismillahir Rəhmanir Rəhim" deyərək Allahın adını çəkməyə ehtiyac duyulmazdı.

---

[65] "Əl-Mustədrəku ələs-səhihəyn", c. 1, s. 233; Fəxr Razi, "Təfsir", c. 1, s. 204.

“Bismillahir Rəhmanir Rəhim” hər surənin əvvəlində, Allah-taala tərəfindən nazil olan digər bir ayə və surəni tamamlayan tərkib hissəsidir. Beləliklə, hər bir surə üçün bir “Bismillahir Rəhmanir Rəhim” nazil olmuşdur.

“Kənzul-ümmal” kitabında həzrət Əlidən (ə) belə bir hədis nəql olunur:

انه كان اذا افتتح السورة فى الصلاة يقرا بسم الله الرحمن الرحيم و كان يقول من ترک قرائتها فقد نقص.

“İmam Əli (ə) namazda “Fatihə”ni oxuyarkən “Bismillahir Rəhmanir Rəhim”i dilə gətirər və deyərmiş: “Kim “Bismillahir Rəhmanir Rəhim”i tərk etsə və onu oxumasa, onun ibadəti naqis olar”.[66]

Şiə mənbələrində də bu haqda kifayət qədər hədislər var. “Uyuni əxbarir-Rza” kitabında aşağıdakı hədis öz əksini tapır:

قِيلَ لِأَمِيرِ الْمُؤْمِنِينَ (ع) يَا أَمِيرَ الْمُؤْمِنِينَ أَخْبِرْنَا عَنْ بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ أَهِيَ مِنْ فَاتِحَةِ الْكِتَابِ فَقَالَ نَعَمْ كَانَ رَسُولُ اللَّهِ (ص) يَقْرَؤُهَا وَ يَعُدُّهَا آيَةً مِنْهَا.

“Əmirəl-möminin Əliyə (ə) dedilər: “Bizə Bismillahir Rəhmanir Rəhim” ifadəsi haqqında danış, o, “Fatihə” surəsinin bir hissəsidirmi?” Həzrət (ə) buyurdu: “Bəli! Allah Rəsulu (s) onu oxuyar, surənin bir hissəsi və bir ayə hesab edərdi”.[67]

Qeyd edək ki, surənin bir hissəsi hesab etmək o deməkdir ki, surə nazil olarkən “Bismillahir Rəhmanir Rəhim” ifadəsi də nazil olmuşdur.

“Əl-Mustədrəku ələs-səhihəyn” kitabında belə hədis yer alır:

Baxın, bu, Əhli-sünnə və şiə hədis mənbələrində qeyd edilən hədislərdir və beləcə sözügedən ifadə “Fatihə”dən sonrakı surənin əvvəlində də deyilməlidir.

---

[66] “Kənzul-ümmal”, c. 2, s. 297, hədis: 4049.

[67] “Uyuni əxbarir-Rza”, c. 2, s. 11.

Başqa bir nümunəyə nəzər salaq. Fəxr Razinin "Təfsir" kitabında belə qeyd olunur:

ان علی ابن ابی طالب کان یجهر بالتسمیة. فقد ثبت بالتواتر ومن اقتدا فی دینه بعلی ابن ابی طالب فقد اهتدی والدلیل علیه قول رسول الله صلی الله علیو سلم اللهم ادر الحق مع علی ابن ابی طالب حیث ما دار.

"Həqiqətən, Əli ibn Əbu Talib namazda hər bir "Bismillahir Rəhmair Rəhim"i ucada oxuyardı və mütəvatir yollarla sübut edilmişdir ki, kim dinində Əli ibn Əbu Talibə iqtida etsə, o, hidayət olmuşdur. Buna dəlilimiz Allah Rəsulunun (s) sözüdür. Həzrət buyurur: "İlahi! Əli harda olursa olsun, haqqı onunla birlikdə et!"[68]

Bu, Fəxr Razinin təfsirində qeyd edilən bir sübutdur. O da həzrət Əlinin (ə) "Bismillahir Rəhmanir Rəhim"i ucadan oxuduğunu bildirir.

Qeyd etməliyik ki, "Bismillahir Rəhmanir Rəhim"i səssiz oxumaq da tarixi faktlara əsasən, Bəni-Üməyyənin bidətlərindən biridir.

Dəfələrlə qeyd etdiyimiz kimi, bizim əqidəmizə əsasən, Qurandakı 114 surənin 113-də "Bismillahir Rəhmanir Rəhim" ifadəsi nazil edilmişdir. Bu, Əhli-Beytin (ə), Peyğəmbərin (s) hidayət bayrağını əlində daşıyan həzrət Əlinin (ə) əqidəsi və yoludur.

Başqa bir hədisə nəzər salaq. "Əl-Mustədrəku ələs-səhihəyn" kitabında İbn Abbasdan nəql olunur:

ان النبی کان اذا جائه جبریل فقرء بسم الله الرحمن الرحیم علم انها سورة.

"Cəbrail nə zaman Peyğəmbərin (s) yanına gəlib "Bismillahir Rəhmanir Rəhim"i oxusaydı, Həzrət başa düşərdi ki, əvvəlki surə başa çatıb və yeni bir surə nazil edilib".[69]

---

[68] Fəxr Razi, "Təfsir, c. 1, s. 204.

[69] "Əl-Mustədrəku ələs-səhihəyn", c. 1, s. 231.

Daha dəqiq, hər dəfə "Bismillahir Rəhmanir Rəhim" oxuması yeni bir surənin nazil olduğunu göstərirdi və surənin nazil olması məhz "Bismillahir Rəhmanir Rəhim"in nazil olması ilə başlayırdı.

Hakim Nişaburi hədisin izahında yazır:

هذا حديث صحيح الاسناد ولم يخرجاه.

"Bu, hədis səhih hədisdir və ona heç bir irad tutula bilməz. Amma Buxari və Müslim onu nəql etməmişdir".

Diqqət yetirin! "Əl-Mustədrəku ələs-səhihəyn" kitabında yenə də İbn Abbasdan belə nəql olunur:

كان المسلمون لا يعلمون انقضاء السورة حتى تنزل بسم الله الرحمن الرحيم فإذا نزلت بسم الله الرحمن الرحيم علموا أن السورة قد انقضت ولم يذكر رحيم سعيد بن جبير هذا حديث صحيح على شرط الشيخين ولم يخرجاه.

"Bismillahir Rəhmanir Rəhim" nazil olduğu zaman müsəlmanlar başa düşürdülər ki, əvvəlki surə sona çatmışdır və bu, yeni bir surədir".[70]

"Əd-Durrul-mənsur" kitabında isə Abdullah ibn Ömərdən belə rəvayət edilir:

انزلت بسم الله الرحمن الرحيم فى كل سورة.

"Bismillahir Rəhmanir Rəhim" ("Tövbə" surəsi istisna olmaqla) bütün surələrin əvvəlində nazil olmuşdur".[71]

Bu ixtilaflı məsələləri qeyd etməyimizin müəyyən səbəbləri var. Belə ki, Quranda "Bismillahir Rəhmanir Rəhim"in bir, yaxud 113 olub-olmaması məsələsi məhz "Bəni-Üməyyə"yə qayıdır. Nəhayət hər birimiz anlamalıyıq ki, həqiqi və düzgün yol Peyğəmbər (s) və onun Əhli-Beytinin (ə) yoludur.

---

[70] "Əl-Mustədrəku ələs-səhihəyn", c. 1, s. 231.

[71] "Əd-Durrul-mənsur", c. 1, s. 20.

# “FATİHƏ” SURƏSİ, AYƏ 2

الْحَمْدُ لله رَبِّ الْعَالَمِينَ.

“Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur”.

**HƏRFİ TƏRCÜMƏ**

الْحَمْدُ “Əl-həmdu” – “Bütün həmdlər”

لِلّهِ “Lill<u>a</u>hi” – “Allaha məxsusdur”

**TƏFSİR**

Gördüyünüz kimi, bu bəhsimiz “Fatihə” surəsinin ikinci ayəsinin təfsir və izahı haqqındadır. Bu: **“Əlhəmdu lilləhi Rəbbil-aləmin”** ayəsidir. Ayə Allaha həmd-səna ilə başlayır. Keçən bəhsimizdə qeyd etdik ki, insan “Bismillahir Rəhmanir Rəhim” deməklə Allah qarşısında iman və ədəbini nümayiş etdirir. **“Əlhəmdu lilləhi Rəbbil aləmin”** deməklə isə insan Uca Yaradanının nemətlərinə olan şükrünü bildirir. “Bismillahir Rəhmanir Rəhim” ayəsinin izahında bildirdik ki, insan Allahın böyük və əzəmətli, qüdrət sahibi olduğunu qəbul edir, Ona inanır, “Rəhman” və “Rəhim” sifətlərini dilinə gətirməklə Onun sonsuz və geniş rəhmətini etiraf edir. Bu mərifətdən sonra dilə gətirdiyi ilk söz “Əlhəmdu lilləh”dir. Şükürlərin ən böyüyü bu sözdə cəmlənib. Ən böyük nemət Allahı tanımaqdır. Bu ayələrdə də Allah-taala Özünü vəsf etmişdir, Özünü bir daha bəndəsi və insanlara təqdim edir və tanıtdırır.

**“Əl-Həmd”** sadəcə şükür və tərif etmək deyil, bu elə bir sözdür ki, həmd-səna və şükrün, tərifin hamısını özündə ehtiva edir. Hədislərə nəzər saldıqda bunu aydın şəkildə başa düşə bilərik.

حَمَّادِ بْنِ عُثْمَانَ قَالَ: خَرَجَ أَبُو عَبْدِ اللهِّٰ (ع) مِنَ الْمَسْجِدِ وَ قَدْ ضَاعَتْ دَابَّتُهُ فَقَالَ لَئِنْ رَدَّهَا اللهُّٰ عَلَيَّ لَأَشْكُرَنَّ اللهَّٰ حَقَّ شُكْرِهِ قَالَ فَمَا لَبِثَ أَنْ أُتِيَ بِهَا فَقَالَ الْحَمْدُ لِلهِّٰ فَقَالَ لَهُ قَائِلٌ جُعِلْتُ فِدَاكَ أَ لَيْسَ قُلْتَ لَأَشْكُرَنَّ اللهَّٰ حَقَّ شُكْرِهِ فَقَالَ أَبُو عَبْدِ اللهِّٰ (ع) أَ لَمْ تَسْمَعْنِي قُلْتُ الْحَمْدُ لِلهِّٰ.

Həmmad ibn Osman nəql edir: "İmam Sadiq (ə) məsciddən çıxanda mərkəbinin yoxa çıxdığını gördü. Həzrət (ə) buyurdu: "Əgər Allah-taala onu mənə qaytarsa, Allahın şükrünün haqqını əda edəcəm". Çox keçmədi ki, mərkəb tapıldı. İmam: "Əlhəmdu lillah" – deyə buyurdu. Bir nəfər dedi: "Ey mənim mövlam, siz Allaha layiqincə şükür edəcəyinizi söyləmədinizmi?" İmam Sadiq (ə) buyurdu: "Eşitmədinmi, "Əlhəmdu lillah" dedim?!"[72]

Bəli, bu ifadə bütün şükürləri özündə cəmləyir. Əgər insan hər bir nemətdən sonra "Əlhəmdu lilləh" desə, şükrü yerinə yetirmiş olar.

Qeyd edək ki, şükrün bir neçə mərhələsi var. Bəzən insan qəlbində şükür edə bilir; bu, Allahı və Onun nemətlərini tanımaqla baş verir. Bəzən dildə şükür edir; "Əlhəmdu lilləh" və s. buna bənzər zikrləri dilə gətirməklə yerinə yetirilir. Bəzən isə şükür əməldə təzahür edilir ki, bu da insanın ibadət etməsi və günahdan çəkinməsi ilə mümkündür.

İbadət və günahdan çəkinmək şükrün ən böyük nümunələrindəndir.

"Nurus-Səqəleyn" kitabında Zeynəl-Abidindən (ə) belə nəql edilir:

وَ مَنْ قَالَ الْحَمْدُ لِلهِّٰ فَقَدْ أَدَّى شُكْرَ كُلِ نِعْمَةٍ لِلهِّٰ عَزَّ وَ جَلَّ عَلَيْهِ.

---

[72] "Əl-Kafi", c. 2, s. 97.

“Kim “Əlhəmdu lilləh” desə, Allahın ona verdiyi bütün nemətlərin şükrünün tamamını yerinə yetirmiş olar”.[73]

İmam Sadiq (ə) isə belə buyurur:

عَنْ أَبِي عَبْدِ اللَّهِ (ع) قَالَ: مَنْ قَالَ أَرْبَعَ مَرَّاتٍ إِذَا أَصْبَحَ- الْحَمْدُ لِلَّهِ رَبِّ الْعالَمِينَ فَقَدْ أَدَّى شُكْرَ يَوْمِهِ وَ مَنْ قَالَهَا إِذَا أَمْسَى فَقَدْ أَدَّى شُكْرَ لَيْلَتِهِ.

“Kim səhər açılanda dörd dəfə “Əlhəmdu lilləhi Rəbbil aləmin” desə, həmin günün şükrünü yerinə yetirmiş olar. Bunu gecə dilə gətirsə, gecənin şükrünü yerinə yetirmiş sayılar”.[74]

Ona görə də “Əlhəmdu lilləh” sadəcə şükür etmək və Allahı mədh etmək deyil, həqiqətdə bütün mədh və şükürləri özündə cəmləyən bir kəlmədir. “Əlhəmdu lilləh” ibadətin əvvəlində insanın dilinə gətirdiyi ilk sözdür. “Bismillahir Rəhmanir Rəhim”dən sonra ilk söz “Əlhəmdu lilləh”dir. Bu ən böyük zikr və həmd-sənadır. Ona görə də cənnət əhlinin son sözü də məhz “Əlhəmdu lilləhi Rəbbil aləmin” ifadəsidir.

Allah-taala “Yunis” surəsində buyurur:

دَعْوَاهُمْ فِيهَا سُبْحَانَكَ اللَّهُمَّ وَتَحِيَّتُهُمْ فِيهَا سَلاَمٌ وَآخِرُ دَعْوَاهُمْ أَنِ الْحَمْدُ للّهِ رَبِّ الْعَالَمِينَ.

“Onların Cənnətdəki danışıqları (və duaları): “Allahım! Sən pak və müqəddəssən!”, orada salamlaşması: “Salam!” və sözlərinin sonu: “Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!” olacaq”.[75]

Qurani-Kərimdə “Fatihə” surəsindən əlavə 3 surənin əvvəli “Əlhəmdu lilləh” ayəsi ilə başlayır, həmin surələr bunlardır: “Ənam”, “Kəhf”, “Səbə”. Lakin “Fatihə” surəsindəki bu ayə daha əzəmətli bir ayədir.

---

[73] “Nurus-Səqələyn”, c. 1, s. 15.
[74] “Nurus-Səqələyn”, c. 1, s. 16.
[75] “Yunis” surəsi, ayə 10.

“Əlhəmdu” (Bütün təriflər), “lilləhi” (yalnız Allaha məxsusdur). Qeyd etmək lazımdır ki, həkimin müalicəsindən sonra, xəstə hər hansı bir xəstəlikdən sağaldıqda, həkimlərə təşəkkürdən əlavə, Allaha təşəkkür etməlidir, çünki məhz Rəbbinin sayəsində hər hansı bir təbib xəstəni sağalda bilir və həqiqi şəfa verən Allah-taaladır, bu səbəbdən şükür də Ona edilməlidir. Həkimin zəhməti, elmi Allahın lütfü sayəsində formalaşır; heç kimə sirr deyil ki, bəzən həkim resept yazır, müalicə edir, lakin xəstə şəfa tapa bilmir. Deməli, səbəblərin hamısı Allahdandır.

“Əlhəmdu lilləh” – “Bütün şükrlər və təriflər, mədhlər yalnız Allaha məxsusdur” deməkdir. Allahdan başqa, həmd-sənaya və tərifə layiq bir şəxs yoxdur. Allah-taala bəndəsinə “Əlhəmdu lilləh” dedizdirməklə həm ibadət məqamında həmd-səna etməyi öyrədir, həm də həmdin yalnız Özünə məxsus olduğunu ona başa salır. Qurani-Kərimdə bir neçə yerdə bu həmd-sənanın əhəmiyyəti bəyan olunur. “Ənam” surəsi buna bariz nümunədir:

الْحَمْدُ للهِ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ وَجَعَلَ الظُّلُمَاتِ وَالنُّورَ.

“Həmd göyləri və yeri xəlq edən, zülmətləri və nuru yaradan Allaha məxsusdur!”[76]

Bu zikri Allah-taala Cənnətdə olanların dilindən bəyan edir. “Əraf” surəsində həmçinin buyrulur:

وَقَالُواْ الْحَمْدُ للهِ الَّذِي هَدَانَا لِهَـذَا وَمَا كُنَّا لِنَهْتَدِيَ لَوْلا أَنْ هَدَانَا اللهُ.

“Onlar (cənnət əhli) deyərlər: “Həmd bizi buraya gətirib çıxaran Allaha məxsusdur!”[77]

“Yunis” surəsində buyrulur:

دَعْوَاهُمْ فِيهَا سُبْحَانَكَ اللَّهُمَّ وَتَحِيَّتُهُمْ فِيهَا سَلاَمٌ وَآخِرُ دَعْوَاهُمْ أَنِ الْحَمْدُ للهِ رَبِّ الْعَالَمِينَ.

[76] “Ənam” surəsi, ayə 1.
[77] “Əraf” surəsi, ayə 43.

“Onların Cənnətdəki danışıqları (və duaları): “Allahım! Sən pak və müqəddəssən!”, orada salamlaşması: “Salam!” və sözlərinin sonu: “Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur!” olacaq”.[78]

Əziz Peyğəmbərlərin (ə) də dilindən zikrlər qeyd edilir. Belə ki, “İbrahim” surəsində oxuyuruq:

الْحَمْدُ لِلّهِ الَّذِي وَهَبَ لِي عَلَى الْكِبَرِ إِسْمَاعِيلَ وَإِسْحَاقَ إِنَّ رَبِّي لَسَمِيعُ الدُّعَاء.

“Qoca vaxtımda mənə İsmaili və İshaqı bəxş edən Allaha həmd olsun! Həqiqətən, Rəbbim duaları eşidəndir”.[79]

“Muminun” surəsində buyrulur:

فَإِذَا اسْتَوَيْتَ أَنتَ وَمَن مَّعَكَ عَلَى الْفُلْكِ فَقُلِ الْحَمْدُ لِلَّهِ الَّذِي نَجَّانَا مِنَ الْقَوْمِ الظَّالِمِينَ.

“Sən yanında olanlarla birlikdə gəmiyə mindiyin zaman de: “Həmd bizi zalım kəslərdən xilas edən Allaha məxsusdur!”[80]

“Nəml” surəsində isə həzrət Davud (ə) və həzrət Süleyman (ə) haqqında belə buyrulur:

وَلَقَدْ آتَيْنَا دَاوُودَ وَسُلَيْمَانَ عِلْماً وَقَالَا الْحَمْدُ لِلَّهِ الَّذِي فَضَّلَنَا عَلَى كَثِيرٍ مِّنْ عِبَادِهِ الْمُؤْمِنِينَ.

“Biz Davuda və Süleymana böyük bir elm verdik. Onlar dedilər: “Bütün həmd və sənalar bizi Öz mömin qullarının çoxundan üstün tutan Allaha məxsusdur!”[81]

Gördüyümüz kimi, belə gözəl zikrləri Allah-taala həm bəndələrinə deməyi tövsiyə edir, həm Özü-özünü mədh edir, eyni zamanda, Peyğəmbərlərin bu zikrə nə qədər əhəmiyyət verdiyini bildirərək onları Quranda bizə başa salır. “Əlhəmdu lilləh” ayəsi Quranda 20-dən çox ayədə nazil edilib.

Beləliklə, bir daha qeyd edirik: **“Əl-Həmd”** – “Bütün həmdlər”, “**lilləhi”** – “yalnız Allaha məxsusdur” mənasını ifadə edir.

---

[78] “Yunis” surəsi, ayə 10.

[79] “İbrahim” surəsi, ayə 39.

[80] “Muminun” surəsi, ayə 28.

[81] “Nəml” surəsi, ayə 15.

# “FATİHƏ” SURƏSİ, AYƏ 2 (ARDI)

رَبِّ الْعَالَمِين.

**Aləmlərin Rəbbi**

**HƏRFİ TƏRCÜMƏ**

رَبِّ “Rəbb” – “Rəbb” (tərbiyə edən)
الْعَالَمِينَ “Əl-A̳ləmi̳n” – “Aləmlər”

**TƏFSİR**

“RƏBBİL-ALƏMIN” Allah-taalanın sifətlərindəndir ki, ayədə nazil olub. “Əlhəmdu lillah” ayəsinin təfsirində qeyd etdik ki, bütün tərif və həmd-sənalar Allaha məxsusdur. “Rəbbil-aləmin” ifadəsi ilə də bəyan edilir ki, “O Allah ki, bütün varlıqların, aləmlərin Rəbbidir”.

**“Rəbb” nə deməkdir?**

Ayətullah Cavadi Amuli “Təsnim” təfsirində yazır:

“Rəbb” və “rububiyyət” bir şeyi öz kamilliyinə tərəf yönəltməyə deyilir. Allah-taala da Rəbbdir. Daha dəqiq desək, hər bir şeyi öz kamil həddinə yönəldir və işləri idarə edir. Kamilliyə yönəltmək üçün bir şeyin maliki olmaq lazımdır. Əgər Malik olmasa, bu sahədə tədbir görmək də olmaz. Deməli, Rəbbin tələbi malik olmaq və malik olduğu şeyləri anbaan idarə etməkdir.”[82]

Əllamə Təbatəbai “Əl-Mizan” təfsirində yazır:

فالرب هو الملک الذی یدبر امر مملوکه ففیه معنی الملک

---

[82] “Təsnim” təfsiri c. 1, s, 331.

“Rəbb elə bir Malik və hər bir şeyin sahibidir ki, sahib olduqlarını idarə edir. “Rəbb” sözündə “mülkiyyət” mənası var”.

والذی یمکنه انتسابه الیه تعالی بحسب الحقیقة هو حقیقة الملک دون الملک الاعتباریة الذی یبطل ببطلان الاعتبار والوضع.

“Allah-taalanın hər bir şeyin Maliki, Rəbbi olduğunu dedikdə, bu mülkiyyət həqiqi mülkiyyətdir. Həmin mülkiyyət müvəqqəti və ötəri mülkiyyət deyil”.[83]

Buradan anlaşılır ki, “Rəbb” sözü malik olmaqla yanaşı, idarə etmək və tədbir görmək mənasını da özündə ehtiva edir.

Mülkiyyət iki qismdir: həqiqi və müvəqqəti. Allah-taala Quranın “Ali İmran” surəsində buyurur:

وَلِلّٰهِ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ.

“Göylərdə və yerdə nə varsa, Allaha məxsusdur”.[84]

Digər tərəfdən, insana müəyyən hüquqlar verildiyi məlumdur. Məsələn, hansısa bir yerin, ərazinin mülkiyyəti onda olur. Bu mülkiyyət müvəqqətidir, həqiqi sahibi isə Allahdır. Allah-taala “Ali İmran” surəsində buyurur:

لِلّٰهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالأَرْضِ.

“Göylərin və yerin mirası yalnız Allaha məxsusdur”.[85]

Bizim əlimizdə olanlara sahiblik etməyimiz müvəqqəti və keçicidir. Amma Allah-taala bu cür deyil, həqiqi və daimi mülkiyyət yalnız Ona məxsusdur. Əllamə Təbatəbai həmçinin bunları qeyd edir:

---

[83] “Əl-Mizan”, c. 1, s. 21.
[84] “Ali İmran” surəsi, ayə 109.
[85] “Ali İmran” surəsi, ayə 180.

ومن المعلوم ان الملک الحقیقیة لاینفک عن التدبیر فهو تعالی رب لما سواه لان الرب هو المالک المدبر.

"Məlum məsələdir ki, həqiqi mülkiyyət tədbirlə yan-yanadır, tədbir və idarəçilik onun ayrılmaz hissəsidir. Bir şeyin həqiqi maliki olan kəs onu daima idarə etməlidir. Allah-taala Özündən başqa hamının Rəbbidir. Həqiqətən, Rəbb tədbir görən və malik olan kəsdir".[86]

Bu, Əllamə Təbatəbainin "Rəbb" sözü ilə bağlı yazdığı fikirləri idi. Biz sadəcə bir qismini nəzərinizə çatdırdıq.

Rəbb – hər bir şeyi öz kamilliyinə doğru sövq edib yönləndirən və idarə edən kəs deməkdir. Əgər bunu xarici aləmlə bağlı mənalandırsaq, Rəbbi Öz mülkünü və yaratdıqlarını idarə edən kəs kimi nəzərdə saxlamalıyıq. **"Rəbbil aləmin"**, yəni "Bütün aləmlərin Rəbbi"; o kəs ki onların işlərini idarə edir və səhmana salır.

**"Aləmin"** sözü "aləmlər" mənasını ifadə edir. Hansı aləmləri təsəvvür etmək mümkündür? Elə aləmlər var ki, biz onları görə bilmirik, məsələn, suların altı, torpaqların zülmət qaranlığında olan aləm, mələklər, cinlər aləmi, bəzi heyvanlar, bitkilər aləmi və s. Gözəl bir bağ görəndə belə, heyrətə gəlirik, Allah-taala isə buyurur ki, "O, aləmlərin Rəbbidir", bütün aləmlərin Rəbbidir; heç bir şey Onun nəzarətindən çıxmaz, O, hər şeyə nəzarət edir. Allah suda, quruda, aləmdə olanların hamısının ayrı-ayrılıqda ruzisini verir. Quranda buyrulur ki, "Allahın izni olmadan, ağacdan bir yarpaq belə qopub düşməz". Allahın hər bir şeydə

---

[86] "Əl-Mizan", c. 1, s. 21.

elmi var, insanların gördüyü işlərin hamısında da Allahın elmi var.

İmam Baqir (ə) Cabir bin Yəzidə belə buyurdu:

يَا جَابِرُ ..لَعَلَّكَ تَرَى أَنَّ اللهَّ إِنَّمَا خَلَقَ هَذَا الْعَالَمَ الْوَاحِدَ وَ تَرَى أَنَّ اللهَّ لَمْ يَخْلُقْ بَشَراً غَيْرَكُمْ بَلَى وَ اللهِّ لَقَدْ خَلَقَ اللهُّ أَلْفَ أَلْفِ عَالَمٍ وَ أَلْفَ أَلْفِ آدَمٍ أَنْتَ فِي آخِرِ تِلْكَ الْعَوَالِمِ وَ أُولَئِكَ الْآدَمِيِّينَ.

“Mümkündür ki, sən Allah-taalanın təkcə bu aləmi yaratdığını düşünürsən, yaxud düşünürsən ki, sizdən başqa bir bəşər yaratmamışdır. Xeyr, belə deyil, and olsun Allaha, həqiqətən, Alalh-taala minlərlə aləm yaratmışdır! Minlərlə insan, Adəm yaratmışdır. Sən bu aləmin sonuncusundasan, Adəmlər isə əvvəllər yaradılmışdır.”[87]

Biz bu deyilənləri necə təsəvvür edə bilərik? Allah-taala nə qədər aləmlər, insanlar yaratmışdır? Gəlin “Nurus-Səqəleyn” təfsirində İmam Rzadan (ə) nəql olunan hədisə nəzər yetirək:

“Bir şəxs İmam Rzanın (ə) hüzuruna gəlib soruşdu: “Əlhəmdu lilləhi Rəbbil aləmin” ifadəsinin mənası nədir?” İmam Rza (ə) atasından, o da öz atasından eşitdiyini bildirdi, beləcə hədisi İmam Əliyə (ə) nisbət verərək İmam (ə) belə buyurdu: “İmam Əli (ə) “Əlhəmdu lilləhi Rəbbil aləmin” ifadəsinin izahında bunları qeyd etmişdir:

هُمُ الْجُمَاعَاتُ مِنْ كُلِ مَخْلُوقٍ مِنَ الْجُمَادَاتِ وَ الْحُيَوَانَاتِ وَ أَمَّا الْحُيَوَانَاتُ فَهُوَ يَقْلِبُهَا فِي قُدْرَتِهِ وَ يَغْذُوهَا مِنْ رِزْقِهِ وَ يُحَوِّطُهَا بِكَنَفِهِ وَ يُدَبِّرُ كُلًّا مِنْهَا بِمَصْلَحَتِهِ وَ أَمَّا الْجُمَادَاتُ فَهُوَ يُمْسِكُهَا بِقُدْرَتِهِ وَ يُمْسِكُ الْمُتَّصِلَ مِنْهَا أَنْ يَتَهَافَتَ وَ يُمْسِكُ الْمُتَهَافِتَ مِنْهَا أَنْ يَتَلَاصَقَ وَ يُمْسِكُ السَّمَاءَ أَنْ تَقَعَ عَلَى الْأَرْضِ إِلَّا بِإِذْنِهِ وَ يُمْسِكُ الْأَرْضَ أَنْ تَنْخَسِفَ إِلَّا بِأَمْرِهِ.

“Aləmin, aləmlər bütün məxluqatdan ibarət məcmuəsi, maddi və həyata malik məxluqatlardır. Allah Öz qüdrətilə heyvanlarda dəyişiklik yaradır və onlara ruzi verir. Heyvanlar üçün də

[87] “Nurus-Səqəleyn”, c. 1, s. 16.

məsləhət nədirsə, onu onlara verir. Bizə cansız əşyalar kimi görünən şeyləri Allah-taala Öz qüdrətilə sabit vəziyyətdə saxlamışdır. Onlar Allaha təsbih edir və biz bunu dərk etmirik. Allah Öz qüdrətilə birləşmiş halda saxlayır ki, onlar parçalanmasın. Həmçinin bir-birindən ayrı olanları da birləşməmələri üçün həmin vəziyyətdə saxlayıb. Səmanı Öz qüdrətilə yerə düşməkdən saxlayır və yer kürəsini də batıb dağılmaqdan qoruyur”. [88]

Allahın bir-bir onları necə də qüdrəti və sonsuz elmi ilə idarə edir. Yer kürəsi saniyədə 30 km-ə yaxın bir sürətlə hərəkətdədir, lakin biz bunu hiss etmirik; həm öz oxu ətrafında fırlanır, həm də Günəş ətrafında. Allah-taala onu Öz qüdrətilə idarə edir və biz onun hərəkətini hiss etmir və narahat olmuruq.

Hədisin davamında İmam (ə) buyurur:

رَبُّ الْعَالَمِينَ مَالِكُهُمْ وَ خَالِقُهُمْ وَ سَائِقُ أَرْزَاقِهِمْ إِلَيْهِمْ مِنْ حَيْثُ يَعْلَمُونَ وَ مِنْ حَيْثُ لَا يَعْلَمُونَ.

“Aləmlərin Rəbbi, yəni onların Maliki, Yaradanı və ruzi verəni. Bəzən onlara verilən ruzinin haradan gəldiyini bilirlər, bəzən də onların bilmədiyi yerdən onlara ruzi verir”.[89]

**“Əlhəmdu lilləhi”** – “Bütün təriflər yalnız Allaha məxsusdur”. Hansı Allaha? “**Rəbbil aləmin”** – “Aləmlərin Rəbbi olan Allaha”. Bu ifadə Allahın sifəti kimi qeyd edilmişdir.

**“Əlhəmdu lilləhi Rəbbil aləmin”** – “Bütün həmdlər yalnız aləmlərin Rəbbi olan Allaha məxsusdur”. Bu da ayənin tərcüməsi ilə bağlı qeyd etdiklərimizdir.

---

[88] “Nurus-Səqəleyn”, c. 1, s. 17.
[89] “Nurus-Səqəleyn”, c. 1, s. 17.

## "FATİHƏ" SURƏSİ, AYƏ 3

الرَّحْمـَنِ الرَّحِيمِ.

**"Rəhman və Rəhim olan Allah".**

### HƏRFİ TƏRCÜMƏ

الرَّحْمـَنِ "Ər-Rəhma̲n" – "Dünyada həm möminə, həm də kafirə – bütün insanlara rəhm edən"

الرَّحِيمِ "Ər-Rəhi̲m" – "Axirətdə isə yalnız möminlərə rəhm edən"

### TƏFSİR

Ötən bəhsimizdə **"Rəbbil aləmin"** ayəsi haqqında danışdıq, hazırda isə "**Ər-Rəhmanir Rəhim"** ayəsinin müzakirəsinə keçək. Allahın iki sifəti bu surədə qeyd edilib: "Rəhman" və "Rəhim". Əvvəldə də qeyd etdik ki, "Rəhman" - bu dünyada hər kəsə rəhm edən, "Rəhman" isə axirətdə yalnız möminlərə mərhəmətli olan mənasını ifadə edir. Allah-taala, "Bismillah"dan sonra "Ər-Rəhmanir-Rəhim" ifadəsini işlətməsinə rəğmən, "Rəbbil aləmin" ayəsindən sonra yenə bu sifətləri təkrarlayır.

Qeyd edək ki, digər surələrdən fərqli olaraq, bu surədə Allahın rəhməti dörd dəfə buyrulur. Allah-taala "Rəbbil aləmin" buyurmaqla Öz qüdrətini nümayiş etdirdi və qüdrətinin əhatə dairəsini insanlara başa saldı. Bunun ardından: "Ər-Rəhmanir Rəhim" - deyə byurdu.

Beləliklə, Uca Yaradanımız insanlara, sanki, bildirir: "Ey Mənim bəndələrim, bu qədər qüdrətimlə yanaşı Mənim çox böyük

rəhmətim də var”. Bu sifəti iki dəfə təkrarlamaqla Allah insanlara təlqin edir ki, siz də başqalarına qarşı rəhimli olun və yaxşı davranın, həyatınızda bu İlahi əxlaqa yiyələnin və digər insanlara qarşı mehriban olun.

**“Ər-Rəhmanir Rəhim”** sifətini ikinci dəfə ayrıca qeyd etməklə Rəbbimiz insana təlqin etmək istəyir ki, Yaradanına ümidvar olsun. Allahın digər sifətlərinin olmasına baxmayaraq, məhz bu sifətləri buyurması Onun rəhmətindən irəli gəlir. Dedik ki, “Rəhman” sifəti bu dünyada həm möminlər, həm kafirlərə rəhm edən, “Rəhim” isə Axirətdə yalnız möminlərə rəhm edəndir. Əlbəttə, bu dünyada möminə olan rəhmlə kafirə olan rəhm arasında da fərq var; məsələn, kafirə bu dünyada nəsə verilir, lakin möminə verilmirsə, bunun özü mömin üçün rəhmətdir. Belə ki, bəzən nemətin verilməməsinin özü bir rəhmətdir. Beləliklə, kafirlə mömin arasında fərq var, bəzən möminlər dünya nemətlərindən istifadə edə bilmir, məhrum olur, lakin əsl həqiqətdə bunun özü möminə bir rəhmətdir.

Abdullah ibn Yəhya həzrət Əlinin (ə) səhabələrindən biri idi. Bir gün o, həzrətin hüzuruna gələndə İmam (ə) işarə ilə əyləşməsini istədi. Abdullah ibn Yəhya oturmaq istəyəndə ayağı büdrədi və yerə yıxıldı. Nəticədə onun başı əzildi və qanamağa başladı. Bunu gördükdə həzrət Əli (ə) buyurdu:

الْحَمْدُ لِلّٰهِ الَّذِي جَعَلَ تَمْحِيصَ ذُنُوبِ شِيعَتِنَا فِي الدُّنْيَا بِمِحَنِهِمْ.

“Şükür olsun Allaha ki, O, bizim şiələrimizin günahlarını, onlara baş verən müsibətlərlə bağışlayır”.

Abdullah ibn Yəhya həzrət Əliyə (ə) dedi: “Doğrudan da, mənim burada yıxılmağımın səbəbi günahım idi?”

İmam Əli (ə) buyurdu:

"Məgər eşitməmisən ki, "Dünya möminin zindanı, kafirin cənnətidir?!"

Söhbətin davamında Abdullah ibn Yəhya belə deyir: "Mənim günahım nə idi?" Həzrət Əli (ə) buyurur: "Sən gedib əyləşmək istəyəndə, "Bismillah" demədin, buna görə də yıxıldın".

Sonra həzrət Əli (ə) belə nəql edir: "Əvvəlki ümmətlərdə iki padşah vardı: onlardan biri kafir, digəri isə mömin adam idi, hərəsi öz ölkəsində hökmdarlıq edirdi. Bir gün kafir padşah xəstələnir, həkimlər ona deyir ki, xəstəliyinin əlacı dəryadakı bir balığın ətindədir: əgər o balığın ətindən yesə, sağalacaq. Padşah adamlarına həmin balığı tutmağı əmr edir. Allah-taala mələklərinə həmin balığı tutub dəryanın üzünə çıxartmağı əmr edir ki, kafir padşahın adamları onu tutsun, beləcə də padşah sağalsın. Balığı tutub gətirirlər və kafir padşah onun ətini yeyib sağalır. Günlərin bir günü mömin padşah xəstələnir, həkimlər ona da həmin şeyi məsləhət görür. Bu dəfə Allah-taala mələklərə əmr edir ki, sözügedən balıq suyun üzündə olsa da, onu tutub dərinliyə çəksinlər ki, mömin padşah balığı tutub yeyə bilməsin. Belə də olur və mömin padşah xəstəlikdən ölür. Mələklər Allaha müraciət edir: "İlahi, necə olur ki Sən kafir padşahla belə rəftar etdin və o sağaldı, mömin padşah isə xəstəlikdən öldü?!" Allah mələklərə belə buyurur: "Mən heç kəsə zülm etmərəm və hər kəsin ruzisini ona çatdıraram. Birinə nemət vermək istəsəm, kimsə buna mane ola bilməz və bir şeyi də vermək istəməsəm, kimsə onu verə bilməz. Kafir padşahın bir qədər yaxşı əməlləri vardı deyə, Mən balığı asanlıqla ona verməklə savabını elə bu dünyada ona verdim, Axirətdə ona heç bir şey verməyəcəm. Digər tərəfdən, mömin padşahın yaxşı əməllərilə yanaşı bir qədər

günahı olduğundan onunla belə rəftar etdim ki, günahları bağışlansın və Mənim dərgahıma pak şəkildə gəlsin".[90]

Bu dünyadakı rəhmət möminlə kafir üçün tamamilə fərqlidir. Kafirlərə verilən nemətlər heç də onların xeyrinə deyil. Kafirə belə bir şərait yaradılır ki, yaxşı əməllərinin mükafatı bu dünyada verilsin, Axirətdə isə əliboş qalsın. Möminlərdə isə əksinədir.

Mömінin axirətdə bəhrələndiyi xüsusi rəhmətdən nümunə olaraq qeyd edirik.

"Mömin Qiyamətdə məhşərə gəlir və bir şəxs ona yaxınlaşıb deyir: "Mənə şəfaət et, mənim sənin boynunda bir haqqım var".

Mömin ona baxıb bir şey xatırlamır: "Mən səni tanımıram, sənin mənim boynumda nə haqqın var?!"

Deyir: "Sən susamışdın, mən isə sənə bir dəfə su vermişdim".

Mömin həmin şəxsi xatırlayır və Allaha dua edir ki, onu bağışlasın, Allah da mömінin şəfaətini qəbul edir, o şəxsin günahlarını bağışladığını buyurur. Yenə bir nəfər mömінin yanına gəlir və deyir: "Mənə də şəfaət et, mənim də sənin boynunda haqqım var!"

Mömin deyir: "Sənin nə haqqın var?!"

Deyir: "İsti bir hava idi və bir gün sən mənim divarımın kölgəsində sərinlədin".

Mömin onun üçün də dua edir və Allah bu şəxsi də bağışlayır".[91]

Gördüyümüz kimi, Allah-taala möminə nə qədər mərhəmətlə yanaşır və onun məqamını artırır.

Beləliklə, bu bəhsimizdə "Ər-Rəhman" və "Ər-Rəhim" sifətlərinin təfsirinə toxunduq. Allah-taala bizi Öz rəhmətindən məhrum etməsin, İnşaallah!

---

90 İmam Həsən Əskəriyə (ə) mənsub olan təfsir, s. 23.

91 Əllamə Əmininin "Fatihə" surəsinə yazdığı təfsir kitabı. "Ər-rəhmanir-rəhim" ayəsinin təfsiri, s. 35.

# “FATİHƏ” SURƏSİ, AYƏ 4

مَالِكِ يَوْمِ الدِّينِ.

**“Qiyamət gününün sahibi”.**

HƏRFİ TƏRCÜMƏ

مَالِكِ “Ma̱lik” - “Sahib”

يَوْمِ “Yəvm” - “Gün”

الدِّينِ “Di̱n” – “Cəza”, “Qiyamət”.

**TƏFSİR**

Bugünkü dərsimizdə مَالِكِ يَوْمِ الدِّينِ **“Məliki yəvmid-din”** ayəsinin təfsiri haqda söhbət açacağıq. Bu ayənin zahiri mənası “Qiyamət gününün sahibi” deməkdir. “Rəbbil aləmin”, “Ərrəhmanir Rəhim” kimi sifətlərdən sonra belə bir əzəmətli sifətin ayədə gəlməsi, yəni “Qiyamət gününün sahibi” şəklində Allaha xitab olunmasının çox böyük məna və məntiqi var. Allah-taala “Qiyamət gününün sahibi” olduğunu bəyan edir. Şübhəsiz, Uca Yaradanımız hər bir şeyin, o cümlədən Qiyamət gününün də sahibir. Belə isə, nə üçün Allah-taala məhz Qiyamət gününün sahibi olduğunu xüsusi olaraq vurğulayır?!

Bildiyimiz kimi, yaşadığımız dünyada insanlar bir neçə şeylə fəxr edir: öz nəsil-nəcabət və qohumluq əlaqələrilə, bəzən sərvəti, var-dövlətilə, bəzən də övladları ilə və s. Qiyamət günü bunların insana heç bir faydası olmayacaq! Allah-taala “Muminun” surəsində buyurur:

فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءلُونَ.

"Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və bir-birindən kömək diləməyəcəklər".[92]

Bəli, bütün vasitələr və qohumluq əlaqələri qırılacaq, ümidlər yalnız Allaha olacaq. "Şuəra" surəsində belə bəyan edilir:

يَوْمَ لَا يَنفَعُ مَالٌ وَلَا بَنُونَ.

"O gün (Qiyamət günü) nə var-dövlət, nə də oğul-uşaq bir fayda verməyəcək".[93]

"Mümtəhinə" surəsində isə buyrulur:

لَن تَنفَعَكُمْ أَرْحَامُكُمْ وَلَا أَوْلَادُكُمْ يَوْمَ الْقِيَامَةِ يَفْصِلُ بَيْنَكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ.

"Qiyamət günü qohumlarınız və övladlarınız sizə heç bir fayda verməyəcək, aranıza ayrılıq salınacaq. Allah nə etdiklərinizi görür".[94]

Allah-taala Qiyamətin əzəmətini digər ayələrdə də bəyan edir və buyurur ki, sizin arxalandığınız şeylərin heç bir əsası yoxdur, onlar sizə belə bir gündə fayda verməyəcək. Belə bir günün də sahibi Allahdır! İnsan **"Məliki yəvmid-din"** deməklə, özünə bu həqiqəti aşılamalı və Allahla rabitəsini düzəltməlidir.

Hər birimizə aydın olmalıdır ki, bu dünyada insan nəylə fəxr edir etsin, bu, Qiyamətdə fayda verməyəcək. Məhz bu mesajı çatdırmaq üçün Allah-taala sözügedən ayəni nazil etmişdir. İmam Zeynəl-Abidin (ə) barədə nəql olunur ki, Həzrət "Fatihə" surəsini oxuduğu zaman bu ayəyə yetişəndə, onu çoxlu təkrar edərdi və Allahın əzəmətindən o qədər qorxardı ki, az qalardı ruhu bədənindən çıxsın; o, əzəmətli günün hadisələrini yada salardı.

---

[92] "Muminun" surəsi, ayə 101.

[93] "Şuəra" surəsi, ayə 88.

[94] "Mümtəhinə" surəsi, ayə 3.

Beləliklə, İmam (ə) bu həddə narahatlıq keçirər və bu ayəni təkrar edərdi.[95]

وَ كَانَ (ع) إِذَا قَرَأَ مالِكِ يَوْمِ الدِّينِ يُكَرِّرُهَا حَتَّى كَادَ أَنْ يَمُوت.

**"Məliki yəvmid-din"** ifadəsilə insan məadı və Axirəti xatırlayır. Bu ayəyə qədər o, Allahın "Rəhman" və "Rəhim" sifətini xatırlayır, ardından isə "Məliki yəvmid-din" deməklə, belə bir çətin günü xatırlayır. Bu, ümidlə qorxu arasında yer tutmaqdır; daha dəqiq desək, mömin şəxs nə Allahın rəhmətinə arxayın olub günah etməli, nə də o qədər qorxmamalıdır ki, sonda Allahdan məyus olsun. Bəli, mömin bu iki halın arasında mövqe tutmalıdır. İmam Rza (ə) buyurur:

مالِكِ يَوْمِ الدِّينِ إِقْرَارٌ لَهُ بِالْبَعْثِ وَ النُّشُورِ وَ الْحِسَابِ وَ الْمُجَازَاة.

"Maliki yəvmid-din" Allah qarşısında həmin Qiyamətin, haqq-hesabın və ədalətlə bərqərar olan cəza və mükafatın haqq olmasını etiraf etmək deməkdir."

Bu ayə Allahın "Rəhman" və "Rəhim" sifətlərindən sonra nazil olmuş və insana əxlaqi bir dərs verməkdədir. Belə ki, insanın, bir növ, ehtiyatlı olmasını ona təlqin edir; yəni bir tərəfdən Allahın rəhmətinə ümidli olmalı, digər tərəfdən, nəfsini günahlardan qorumalıdır. İnsan bu sözlərlə həm Allahın rəhmətinə ümid edir, həm də Axirətin çətin anlarını xatırlayır. "**Məliki yəvmid-din"** deməklə insan bunu dərk etməlidir: Əgər belə bir günün sahibi Allahdırsa, təbii olaraq, bu dünya Axirətlə müqayisəolunmazdır.

Burada belə bir sual meydana çıxa bilər: "Nə üçün Allah-taala "Məliki yəvmid-din" buyurur, axı Qiyamətin başqa adları da var?

[95] "Biharul-ənvar", c, 46, s.107.

Nə üçün onlardan birinin adını çəkmir? Məsələn, Quranda: "Yəvmul-qiyamət" (Qiyamət günü), "Yəvmul-həsrət" (Həsrət günü), "Yəvmul-axir" (Son gün), "Yəvmul-hisab" (Hesab günü), "Yəvmul-xuruc" (İnsanların qəbirdən çıxıb məhşərə gəlmə günü), "Yəvmut-təğabun" (Zərər günü) kimi adları var. Sözügedən ayədə "Cəza (din) gününün sahibi" deyə bildirilir ki, bu da Qiyamət gününü qəsd edir. "Cəza gününün sahibi" ifadəsini işlətməklə Allah-taala bildirmək istəyir ki, insan Qiyamətdə əməllərinin nəticəsini alacaq. Bununla da insan qiyamətin çətin anlarını xatırlamalıdır. Necə ki, imam Səccad (ə) o ayəni təkrar edər və Allah qorxusundan titrəyərdi.

Əlbəttə, "Cəza günü" dedikdə həm mükafatlar, həm də cəzalar nəzərdə tutulur. Ərəb dilində "cəza" həm müsbət, həm də mənfi mənada işlədilir, yəni bu kəlmə həm mükafat, həm də cəzaya şamil olunur.

Digər tərəfdən, "Yəvmid-din" ifadəsi özündə bütün mümkün mənaları əks etdirir. Hesab günü, haqq-hesab günü özünü həmin gündə büruzə verəcək. "Yəvmut-təğabun", "Yəvmul-həsrət" və s. elə "Yəvmid-din" sözünə qayıdır. Çünki həmin gündə verilən cəzalarla insanlar həsrət çəkəcək və zərərə uğrayacaqlar. Hətta "ayağa qalxmaq" mənasında olan "Qiyamət" sözü insanların məhşərə gəlməsinə işarə edir. "Ğafir" surəsində belə buyrulur:

يَوْمَ هُم بَارِزُونَ لَا يَخْفَى عَلَى اللَّهِ مِنْهُمْ شَيْءٌ لِّمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ.

"O gün onların hamısı aşkara çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır. (Onlara belə deyiləcək:) "Bu gün hökm kimə məxsusdur? Tək olan, qalib Allaha!"[96]

---

[96] "Ğafir" surəsi, ayə 16.

Bu varlıq aləminin, mələklərin, hər şeyin və mülkün sahibi kimdir? Allah Özü də cavab verir ki, o, tək olan Allaha məxsusdur. "Səba" surəsində buyrulur:

فَالْيَوْمَ لَا يَمْلِكُ بَعْضُكُمْ لِبَعْضٍ نَّفْعاً وَلَا ضَرّاً وَنَقُولُ لِلَّذِينَ ظَلَمُوا ذُوقُوا عَذَابَ النَّارِ الَّتِي كُنتُم بِهَا تُكَذِّبُونَ.

"Bu gün bir-birinizə nə bir xeyir, nə də bir zərər verə bilərsiniz. Biz zalımlara deyəcəyik: "Dadın yalan saydığınız odun əzabını!"[97]

**"Məliki yəvmid-din"** deməklə Allah-taala sonda mülkün kimə məxsus olacağını və onun kimə qayıdacağını göstərmək, insana o əzəmətli günün əhəmiyyətini başa salmaq istəyir. Allah taaladigər ayələrdə hər bir şeyin və varlıq aləminin sahibi olduğunu bildirmişdir. "Bəqərə" surəsində buyrulur:

لِلّهِ ما فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ.

"Göylərdə və yerdə nə varsa, yalnız Allaha məxsusdur".[98]

"Ali İmran" surəsində buyrulur:

وَلِلّهِ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ وَاللّهُ عَلَىَ كُلِّ شَيْءٍ قَدِيرٌ.

"Göylərin və yerin mülkü yalnız Allaha məxsusdur. Allah hər bir şeyə qadirdir!"[99]

"Yunis" surəsində buyrulur:

أَلا إِنَّ لِلّهِ مَن فِي السَّمَاوَات وَمَن فِي الأَرْضِ وَمَا يَتَّبِعُ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ شُرَكَاء إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ.

"Bilin ki, göylərdə və yerdə olanların hamısı yalnız Allahındır. Allahdan qeyrisini Ona şərik qoşanlar (məntiq və dəlil qarşısında)

---

97 "Səba" surəsi, ayə 42.

98 "Bəqərə" surəsi, ayə 284.

99 "Ali İmran", surəsi, ayə 189.

tabe olmazlar. Onlar əsassız fikirlərə tabe olar və yalnız yalan danışarlar”.[100]

**“Əlhəmdu lilləhi Rəbbil aləmin”** ayəsini izah edərkən qeyd etmişdik ki, “**Rəbb**” sözü “malik olmaq” və “mülkiyyət” mənalarını daşıyır və “Rəbbil aləmin” deməklə də, Allah-taala bütün yaradılış aləminin maliki olduğunu bəyan edir. Allah-taala Öz sifətlərini sadalayarkən, **“Məliki yəvmid-din”** ifadəsini də işlədir və bu, sözügedən ayədəki sonuncu sifətdir. Beləcə, Rəbbimiz son günün və Qiyamətin də sahibi olduğunu nəzərə çarpdırır və bəyan edir ki, **başlanğıcda varlıq aləminin sahibi Allah olduğu kimi, onun sonunun da sahibi Özüdür.**

---

[100] “Yunis” surəsi, ayə 66.

# “FATİHƏ” SURƏSİ, AYƏ 5

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ.
**“Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım istəyirik”.**

**HƏRFİ TƏRCÜMƏ**

إِيَّا “İyya̱” – “Yalnız”
كَ “Kə” – “Sənə”
نَعْبُدُ” Nə`budu” – “İbadət edirik”
وإِيَّا “Və iyya̱” – “Və yalnız”
كَ “Kə” – “Səndən”
نَسْتَعِينُ “Nəstəi̱n” – “Kömək istəyirik”.

**TƏFSİR**

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ “**İyyakə nəbudu və iyyakə nəstəin**” ayəsinin təfsirinə keçirik.

Ayənin mənası: **“Yalnız Sənə ibadət edir və yalnız Səndən yardım istəyirik”**. Bu, ayənin zahiri tərcüməsidir. Qeyd etdiyimiz ifadəylə insan artıq özünü vəsf etməyə başlayır. “Fatihə” surəsinin ilk ayələrini oxumaqla insan Allahı vəsf edir və Onun gözəl sifətlərini dilə gətirir, bundan sonra isə özünü vəsf etməyə başlayır. Özünün bəndəlik və qulluq məqamında olduğunu ifadə edir və Allaha üz tutaraq deyir: “İlahi! Sənin rəhmətin genişdir, Sən aləmlərin Rəbbisən, Qiyamət gününün sahibisən. Yəni bu qədər yaradılış aləminin əvvəlindən sonuna qədər tədbir görənsən, mən isə yalnız Sənə bəndəlik və ibadət edir və Səndən kömək istəyirəm!”

“**İyyakə nəbudu və iyyakə nəstəin**” “Yalnız Sənə ibadət edir və Səndən yardım istəyirik” deməklə insan özünü vəsf edir və yalnız

Allahın bəndəsi və qulu olduğunu bildirir, Allahın mülk və sərvət sahibi, özünün isə bəndə olduğunu göstərir, bu kəlmələrlə, işlərində məcbur deyil, ixtiyar sahibi olduğunu dilə gətirir.

**"İyyakə nəstəin"** "Yalnız Səndən yardım istəyirik" deməklə bildirmək istəyir ki, biz ixtiyar sahibi olsaq da bu, kamil bir ixtiyar demək deyil, yəni tam muxtar deyilik. Bununla da insan "təfviz" (işlərin insanın öhdəsinə buraxılması) əqidəsini inkar edir. Beləliklə, bu ayə bir növ insanın ixtiyar sahibi olduğunu bildirir. Belə ki, o öz işlərində ixtiyar sahibidir, amma bu, Allaha möhtac olmaması mənasına gəlmir, yəni tam ixtiyar sahibi deyildir. İnsan nə məcburdur ("cəbr"), nə də kamil şəkildə ixtiyar sahibidir ("təfviz"), həqiqətdə, o, bu ikisinin arasındakı bir yolu tutur. "**İyyakə nəbudu"** deməklə insan yalnız Allaha ibadət etdiyini və bunu ixtiyar əsasında yerinə yetirdiyini nümayiş etdirir. **"İyyakə nəstəin"** "Yalnız Səndən yardım istəyirik" deməklə isə bütün işlərin özünə tapşırılmadığını ifadə etmək istəyir.

"Nəbudu" və "nəstəin" iki feldir və bir işin davamlı olduğunu bildirir, yəni: "İlahi biz davamlı olaraq yalnız Sənə ibadət edir, bununla da ixtiyar sahibiyik və yalnız Səndən yardım istəyirik, bununla da tam muxtar deyilik, Sənə ehtiyacımız var".

Başqa sözlə desək, insan, bir tərəfdən, öz ixtiyarı ilə ibadət etdiyini deyir, digər tərəfdən isə Allahdan kömək istədiyini etiraf edir. Bu isə o deməkdir ki, o, hər iki batil əqidədən uzaqdır. Qeyd etdiyimiz kimi, həmin iki batil əqidənin biri "Cəbəriyyə", digəri isə "Təfviz" əqidəsidir. Birinci əqidəyə görə, insan məcburdur və qətiyyən işlərində ixtiyar sahibi deyil, ikincisinə əsasən isə insan tam müstəqil və muxtardır. Ayədə isə bəndə məcbur və tam muxtar olmadığını dilə gətirir.

Bu ayədə həmçinin "həsr" və "məxsusluq" var. Belə ki, ibadət və yardımın yalnız Allaha məxsus olduğunu bildirir. Əlbəttə, burada **"nəbudukə"** və **"nəstəinukə"** ifadələri də işlənilə bilərdi, yəni: Sənə ibadət edirik və Səndən yardım istəyirik", lakin **"iyyakə"** sözü əvvəldə işlənməklə "həsr"i və ibadət, yardımın yalnız Allaha məxsus olduğunu bildirir, yəni Allahdan başqa heç kəs ibadətə layiq deyil.

İmam Zeynəl-Abidin (ə) buyurur:

فَأَمَّا حَقُّ اللهِ الْأَكْبَرُ عَلَيْكَ فَأَنْ تَعْبُدَهُ لَا تُشْرِكَ بِهِ شَيْئًا.

"Allahın sənin boynunda haqqı var, Allahın ən böyük haqqı sənin Ona ibadət etməyin və Ona heç bir şeyi şərik qoşmamağından ibarətdir".[101]

Həzrət buyurur ki, bu məsələlər Allahın haqqıdır və insan "iyyakə nəbudu və iyyakə nəstəin" deməklə həmin haqqı etiraf edir. Bundan başqa, burada tövhidin iki mərhələsindən söhbət açılır.

"Tövhid" nədir? "Tövhid" - yeganə və tək olan yaradanın Allah olduğunu qəbul etməkdir. İnsan hər bir şeyin yaradıcısının Allah olduğunu qəbul etməlidir və bu, xaliqiyyətdə olan tövhiddir. Əsl yaradan Allahdır. Bunun ardından rububiyyətdəki tövhid gəlir. Daha dəqiq, yeganə Rəbb və aləmin idarə edəni Allah-taaladır; istər yaradılış aləmi olsun (təkvini rübubiyyət), istərsə də din və şəriətdə (təşrii rübubiyyət), bütün işlərin sahibi və idarə edəni Allahdır. Şəriətdə olan rububiyyət, (təşrii rübubiyyət) dini məsələlərdə qanun qoyan əsl kəsin Allah olduğunu qəbul etməkdir və Peyğəmbərlər, övliyalar Allahın iznilə qanun çıxara

---

101 "Əl-Xisal", c. 2, s. 566.

bilirlər. Tövhidin digər mərhələsi uluhiyyətdəki tövhiddir. Belə ki, insan Allahdan başqa heç kəsi məbud olaraq görməməli və məbud, ilah olmaq yalnız Allaha məxsusdur.

Digər mərhələ ubudiyyətdəki tövhiddir, yəni bəndəlik etmək və ibadət yalnız Allaha məxsusdur, Allahdan başqa heç kəs ibadət və pərəstişə layiq deyil. Bu məsələlər həm əqidədə, həm də əməldə özünü biruzə verməlidir. Tövhidin bir mərhələsi istianətdə (yardım istəməkdə) tövhiddir. Belə ki, həqiqi yardım yalnız Allah tərəfindəndir. Beləliklə, insan bu mərhələlərə etiqadlı olmalıdır. **"İyyakə nəbudu və iyyakə nəstəin"** ayəsində tövhidin iki mərhələsi: ubudiyyət və istianətdə tövhid nəzərdə tutulmuşdur.

**Əlbəttə, burada belə sual yarana bilər: "Məsələ yalnız Allahdan yardım tələb etməkdirsə, onda başqalarından yardım istəmək nə anlama gəlir?"**

Şübhəsiz, insanlardan kömək istəməkdə heç bir maneə yoxdur, sadəcə əsas məsələ həqiqi yardımın Allah tərəfindən olması və digərlərinin də bu məsələdə sadəcə bir vəsilə olmasından ibarətdir. Bütün yardımlaşmaların mənbəyi Allahdır. Əgər kimdənsə: dost, qonşu, qohum və s.dən yardım istəyiriksə, onlar vasitədir, məsələn, İmamın (ə) qəbri kənarında dayanıb yardım istəməyimiz vəsilə ünvanındadır, yəni biz onu Allah dərgahında vəsilə, vasitə qərar veririk və həqiqi yardımın mənbə və mənşəyi Allahdır. Dualarda Allah-taala üçün "Müsəbbibul əsbab" sifəti qeyd edilir. Yəni işlər üçün səbəb qərar verən.

يَا مُسَبِّبَ الْأَسْبَابِ.

"İlahi, ey işlər üçün səbəblər qərar verən!"[102]

---

[102] "Mühəcud-Dəəva", s. 45.

Allah-taala həm ruzi bəxş edəndir, həm də ruzinin bizə çatması üçün lazım olan vasitələr qərar verir. Yəni təkcə ruzi deyil, hətta səbəblər də onun əlindədir.

## DİGƏRLƏRİNDƏN KÖMƏK İSTƏMƏK

Tövhidin mərhələləri haqqında söhbət açdıq, insanın yalnız Allahdan yardım istəməli olduğunu vurğuladıq. Bunun mənası bütün işlərdə həqiqi təsir sahibinin Allah olduğunu qəbul etməkdən ibarətdir. Digər şeylər vasitə və səbəb rolunu oynayır. Başqalarından kömək istəməyin eybi yoxdur və onlar sadəcə vasitələrdir. Həqiqi yardım edən Allahdır.

***Qeyd etdiyimiz kimi, bəziləri bizə irad tutur ki, "siz Allahdan başqasını çağırırsınız; çağırmaq, dua etmək isə bir növ ibadətdir, Allahdan başqasını çağırmaq da onlara ibadət etmək deməkdir və şirkdir".***

**Cavab:**

Biz öz növbəmizdə belə bir iddia ilə çıxış edənlərə bunu demək istərdik: "Siz iddia edirsiz ki, başqasını çağırmaq ibadət və duadır, Allahdan başqasını çağırmaq isə şirkdir, indi biz sizə sual veririk: "Bu hər yerdə belədir, yoxsa bəzi hallarda bu cürdür, yəni başqasını çağırmaq hər yerdə ibadət mənasındadır, yoxsa bəzən bu mənadadır?"

Əgər desəniz ki, hər zaman çağırmaq ibadətdir, onda yalan söyləmiş olarsız, çünki Qurani-Kərimdə bunun əksi bəyan edilir. "Ali İmran" surəsində buyrulur:

إِذْ تُصْعِدُونَ وَلاَ تَلْوُونَ عَلَى أحَدٍ وَالرَّسُولُ يَدْعُوكُمْ فِي أُخْرَاكُمْ فَأَثَابَكُمْ غَمَّاً بِغَمٍّ لِّكَيْلاَ تَحْزَنُواْ عَلَى مَا فَاتَكُمْ وَلاَ مَا أَصَابَكُمْ وَاللهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ.

“Dağa qalxdığınız və Peyğəmbərin sizi arxadan çağırmasına baxmayaraq, (qorxudan) geridə qalanlara baxmadığınız vaxtı xatırlayın. Əlinizdən çıxan şeylərə (qənimətlərə) və uğradığınız fəlakətlərə görə təəssüf etməyəsiniz deyə Allah qəminizin üstünə qəm gətirməklə sizi cəzalandırdı. Şübhəsiz ki, Allah gördüyünüz işlərdən xəbərdardır!”[103]

“Ühüd” müharibəsində bir dəstə qorxudan qaçdı və Muhəmməd Peyğəmbəri (s) tək qoydu. Allah Rəsulu (s) onları arxadan geri qayıtmaları üçün **çağırdı.** Burada **çağırmaq** dua, ibadət mənasında deyil, sadəcə **çağırmaqdır.** “Bəqərə” surəsində həmçinin buyrulur:

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَى قَالَ أَوَلَمْ تُؤْمِن قَالَ بَلَى وَلَـكِن لِّيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِّنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَى كُلِّ جَبَلٍ مِّنْهُنَّ جُزْءاً ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْياً وَاعْلَمْ أَنَّ اللّهَ عَزِيزٌ حَكِيمٌ.

“(Xatırla ki,) İbrahim: “Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!” – dedikdə, (Allah) buyurmuşdur: “Məgər inanmırsan?” (İbrahim:) “Əlbəttə, inanıram, lakin xatircəm olmaq istəyirəm”, - deyə cavab vermişdir. (Bu zaman Allah) buyurmuşdur: “Dörd quş növü seçib, onları (kəsdikdən sonra) parça-parça et və (bir-birinə qatıb) hər dağın başına bir parça qoy. Sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət, hikmət sahibidir!”[104]

Həzrət İbrahim (ə) quşları **çağırdı** və bu **çağırmaq** onlara dua etmək və ibadət etmək mənasında deyil. Deməli, məsələ heç də

---

[103] “Ali İmran” surəsi, ayə 153.

[104] “Bəqərə” surəsi, ayə 260.

irad tutanların söylədiyi kimi deyil və **“dua”, “çağırmaq”** sözü hər yerdə **“ibadət”** mənasında çıxış etmir.

İndi biz haradan bilək, insanın kimisə çağırması ibadət mənasındadır, ya yox?

İş burasındadır ki, bu məsələ insanın əqidə və etiqadından asılıdır. Əgər “Ya Əli, ya Muhəmməd” deyən kəslərin heç biri adı keçən şəxsləri **çağıraraq** onlara pərəstiş etdiklərini dilə gətirmirlərsə, bu, şirk hesab olunmur. Əks halda, yəni desələr ki, pərəstiş edirik, bu halda, bəli, bu əməl şirk (Allaha şərik qoşmaq) və günahdır.

Bundan başqa, irad tutanlar “Zümər” surəsinin 3-cü ayəsini dəlil gətirir:

**أَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ وَالَّذِينَ اتَّخَذُوا مِن دُونِهِ أَوْلِيَاء مَا نَعْبُدُهُمْ إِلَّا لِيُقَرِّبُونَا إِلَى اللَّهِ زُلْفَى إِنَّ اللَّهَ يَحْكُمُ بَيْنَهُمْ فِي مَا هُمْ فِيهِ يَخْتَلِفُونَ إِنَّ اللَّهَ لَا يَهْدِي مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ.**

“Bilin, xalis din Allaha məxsusdur. Allahdan qeyrisini özlərinə rəhbər seçənlər: “Biz onlara ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik” – (deyirlər.) Allah Qiyamət günü onların ixtilafda olduqları şey barəsində hökm verəcəkdir. Allah yalançı və kafiri doğru yola yönəltməz”.

İddia edirlər ki, siz də “Ya Əli, ya Muhəmməd” deməklə Əhli-Beyt (ə) və digər şəxslərə təvəssül edərək şirkə qapılırsız, deyirsiz ki, onlar bizi Allaha yaxınlaşdırır.

Bunun cavabında, əvvəla, demək istərdik ki, bu ayəni dəlil gətirmək səhvdir, çünki, bir tərəfdən, duadan danışır, digər tərəfdən isə ibadətlə bağlı ayəni dəlil gətirirsiniz, **“Biz onlara ancaq bizi Allaha yaxınlaşdırsınlar deyə ibadət edirik”**. Belə ki, qeyd etdiyiniz ayə ibadətdən bəhs edir. Allah-taala müşriklərin ibadətindən danışır və onlar özləri etiraf edir ki, biz Allaha

yaxınlaşmaq üçün həmin bütlərə ibadət edirik. "Ya Əli, ya Muhəmməd"[105] ifadəsini dilinə gətirənlərin hansı biri deyir ki, biz Allaha yaxınlaşmaq məqsədilə bunlara ibadət edirik?! Hər zaman vurğulamışıq ki, bu sözlərdə məqsəd onlara pərəstiş deyil, təvəssüldür, Allah yanında vasitə qərar vermık deməkdir. İnsan ruzi dalınca getməli, zəhmət çəkməli olduğu kimi, bunlar da vasitədir və biz hər şeyi Allahdan istəyirik, bizim əqidəmiz budur.

Sözügedən ayə irad tutanlar üçün dəlil ola bilməz. Deyirlər ki, siz Allahdan başqasından kömək istəyirsiniz. Axı hamı Allahdan başqasından kömək istəyir, təkcə bizlər deyilik ki! Yəni yaradılış aləmi elə qurulub ki, vasitəsiz iş görmək mümkünsüzdür.

Quran təfsirçilərindən olan Möhsün Qiraəti öz xatirələrində belə deyirdi: "Bəqi" qəbristanlığının kənarında durub dua edirdim. Bir nəzarətçi vəhhabi mənə yaxınlşıb belə dedi: "Bax mən əlimdəki çubuğu yerə atıb sizin imamları çağıracam. Görək yerdəki çubuğu mənim əlimə verəcəklərmi?!" Əlindəkini yerə atıb çağırdı: "Ey Baqir, Ey Səccad! Bunu mənə ver!" Sonra da mənə üz tutub dedi: "Gördün, sizin imamlarınız heç bir kömək edə bilmir, bir halda kı siz onları çağırırsız!"

Böyük alim deyir: "Mən də cibimdən bir karandaş çıxarıb yerə atdım və dedim: "Ya Allah, bu karandaşı mənə ver!" Sonra da vəhhabiyə üzünü tutub dedi: "İndi mən nə deyim? Deyim ki, Allah bir karandaşı mənə verə bilmədi?!"

Deməli, yaradılış aləmində baş verən hər bir iş müəyyən vasitələrlə həyata keçir və heç bir iş vasitəsiz həyata keçmir.

---

[105] Bu barədə ətrfalı izahat verəcəyik.

İnsanın əqidəsi elə olmalıdır ki, əsl yardım mənbəyi Allah taaladır. Yerdə qalanlar vasitə və vəsilədir. İrad tutanların özləri də başqalarından yardım istəyir, dəstək alır, ona görə də bu cür düşüncə tərzi yanlışdır. Allahdan başqasından yardım istəməkdə heç bir maneə yoxdur, sadəcə olaraq insan yardım mənbəyinin Allah, həqiqi yardımın Onun tərəfindən olduğuna etiqad bəsləməlidir. Allah-taala "Bəqərə" surəsində belə buyurur:

وَاسْتَعِينُواْ بِالصَّبْرِ وَالصَّلاَةِ.

"Səbir və namazdan kömək alın!"[106]

Allah Özü buyurur ki, namaz və səbir vasitəsilə kömək istəyin. "Fatihə" surəsində deyirik: "İyyakə nəbudu və iyyakə nəstəin" - "Yalnız Sənə ibadət edirik və yalnız Səndən yardım istəyirik". Allah-taala buyurur ki, səbir və namaz vasitəsilə kömək istəyin, onların vasitəsilə yardım istəyin. Əgər bir kəs Allahın təsdiqlədiyi vasitələr sayəsində yardım istəyirsə, bunun özü bir ibadətdir və Allahın əmrinə itaətdir.

Quranda belə bir nümunə varmı ki, cansız, yaxud canlı bir şey kiməsə fayda versin? Allah-taala "İsra" surəsində buyurur:

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاء وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ.

"Biz Qurandan möminlərə şəfa və rəhmət olan şeyi nazil edirik".[107]

Allah-taala Quran kitabının möminlər üçün rəhmət və şəfa olduğunu buyurur. "Nəhl" surəsində də bal arısının balının insanlara şəfa olduğu bildirilir:

ثُمَّ كُلِي مِن كُلِّ الثَّمَرَاتِ فَاسْلُكِي سُبُلَ رَبِّكِ ذُلُلاً يَخْرُجُ مِن بُطُونِهَا شَرَابٌ مُّخْتَلِفٌ أَلْوَانُهُ فِيهِ شِفَاء لِلنَّاسِ إِنَّ فِي ذَلِكَ لآيَةً لِّقَوْمٍ يَتَفَكَّرُونَ.

---

106 "Bəqərə" surəsi, ayə 45.

107 "İsra" surəsi, ayə 82.

“Sonra bütün meyvələrdən (və güllərin şirəsindən) ye və Rəbbinin sənə təyin etdiyi yollarla rahat get”. Onların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli içki (bal) çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün aydın dəlil vardır”.[108]

İndi şəfa verən kimdir, Allahdır, yoxsa Quran? Şəfa verən Allahdır, yoxsa bal? Allah-taala buyurmur “Mən şəfa verirəm”, buyurur “balda şəfa var, Quranda şəfa var”. Təbii ki, şəfa verən Allahdır və bunlar sadəcə vasitələrdir. Təbii ki, onlara şəfa vermək xüsusiyyətini Allah bəxş edib.

“Yusif” surəsinə nəzər salaq:

اذْهَبُواْ بِقَمِيصِي هَـذَا فَأَلْقُوهُ عَلَى وَجْهِ أَبِي يَأْتِ بَصِيراً.

“Bu köynəyimi aparıb atamın üzünə atın, gözləri açılsın”.[109]

Bu surəsinin digər ayəsində isə belə buyrulur:

فَلَمَّا أَن جَاء الْبَشِيرُ أَلْقَاهُ عَلَى وَجْهِهِ فَارْتَدَّ بَصِيراً.

“Müjdəçi gəlib çatdıqdan sonra köynəyi onun üzünə atdı, dərhal gözləri açıldı”.[110]

Həzrət Yusif (ə) də, həzrət Yəqub (ə) da Allahın peyğəmbərləri idi. Yusif peyğəmbər (ə) Allaha dua etmir ki, “İlahi, atamın gözlərinə şəfa ver!”, deyir: “Köynəyimi aparın və onu atamın gözlərinə sürtün ki, gözləri açılsın”. Allah-taala da buyurur ki, köynəyi onun gözünə sürtdükdə, onun gözləri açıldı. Burada, şübhəsiz ki, irad tutulası bir məqam yoxdur, hər iki şəxs peyğəmbərdir və onların müşrik olmadığı da məlumdur, onlar tövhid qəhrəmanlarıdır, din rəhbərləridir. Hətta həmin surənin 38-ci ayəsində həzrət Yusifin (ə) dilindən belə buyrulur:

---

108 “Nəhl” surəsi, ayə 69.

109 “Yusif” surəsi, ayə 93.

110 “Yusif” surəsi, ayə 96.

وَاتَّبَعْتُ مِلَّةَ آبَآئِي إِبْرَاهِيمَ وَإِسْحَقَ وَيَعْقُوبَ مَا كَانَ لَنَا أَن نُّشْرِكَ بِاللّهِ مِن شَيْءٍ ذَلِكَ مِن فَضْلِ اللّهِ عَلَيْنَا وَعَلَى النَّاسِ وَلَـكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يَشْكُرُونَ.

"Mən atalarım İbrahim, İshaq və Yaqubun dininə tabe oldum. Nəyisə Allaha tay tutmaq bizə yaraşmaz. Bu, Allahın bizə və insanlara olan lütfüdür, lakin insanların çoxu şükür etmir".

Yəni biz peyğəmbərlər heç vaxt Allaha şərik qoşmarıq! Həmin Peyğəmbər öz köynəyini atasına göndərir, atası da onu gözünə sürtür və görməyə başlayır. Bu məsələnin tövhidlə heç bir ziddiyyəti yoxdur, bu, qeyd etdiklərimizdən aşkar şəkildə başa düşülür. İrad tutanlar iddia edir ki, bu məsələ əvvəlki ümmətlərə aid idi və bu ümmət üçün belə bir şey şamil oluna bilməz.

**Buna cavab olaraq deyirik:**

**Birincisi,** Quran başdan-başa ibrət dərsidir. Allahın göndərdiyi hər bir şey ibrət olaraq göndərilmişdir. Əgər bu iş haram olsaydı, onu bildirər və insanlara bəyan edərdi.

**İkincisi,** bu məsələ tövhid və şirk məsələsidir. Şərab, namaz və s. bu kimi haram və vacib məsələlərdən deyil ki, deyək əvvəlki ümmətlərdə halal idi, indi haram olub. Daha dəqiq desək, Füruid-din və şəriət bölməsinə aid məsələlərdən deyil ki, bu cür söyləyə bilək. Burada əqidəvi məsələ var. Həzrət Adəmdən (ə) tutmuş sonuncu Peyğəmbər həzrət Muhəmmədə (s) qədər, bütün şəriətlərdə tövhid, nübuvvət və etiqadi məsələlər dəyişməmiş və bəyan olunmuşdur. Həmin maarif dəyişilməz olaraq qalmış və əvvəlki kitab və ümmətlərdə gəldiyi və bəyan olunduğu kimi, İslamda da bəyan edilmişdir. Allah-taalanın sifətləri elə əvvəlki kitablarda bəyan olunmuşdur.

Diqqət yetirin, bu məsələ həm həzrət Yusif (ə) və həzrət Yaqub (ə) zamanına aid olduğu kimi, bu zamana da aiddir. Peyğəmbərlərin gördüyü iş qəbahətli iş deyil, bəyənilən və tərifəlayiq bir işdir.

Allah-taala da Quranda "Yusif "surəsində onu mədh edir:

نَحْنُ نَقُصُّ عَلَيْكَ أَحْسَنَ الْقَصَصِ بِمَا أَوْحَيْنَا إِلَيْكَ هَـذَا الْقُرْآنَ وَإِن كُنتَ مِن قَبْلِهِ لَمِنَ الْغَافِلِينَ.

"Biz bu Quran vasitəsilə sənə ən gözəl qissələri danışırıq. Şübhəsiz ki, sən bundan əvvəl ondan xəbərsiz idin".[111]

İstər Quranın özü olsun, istər bal, istərsə də həzrət Yusifin (ə) köynəyi olsun, bunlar cansız şeylər idi və onlar sadəcə bir vasitə rolunu oynayırdılar. Canlı şeylərə nəzər salsaq, Quranda "Ali İmran" və "Maidə" surəsində bu haqda da bəyan olunmuşdur. Həzrət İsanın (ə) ölüləri diriltməsindən və cansız bir quşa üfürdükdə, onun canlanmasından söhbət açır. "Ali İmran" surəsində belə buyrulur:

وَرَسُولاً إِلَى بَنِي إِسْرَائِيلَ أَنِّي قَدْ جِئْتُكُم بِآيَةٍ مِّن رَّبِّكُمْ أَنِّي أَخْلُقُ لَكُم مِّنَ الطِّينِ كَهَيْئَةِ الطَّيْرِ فَأَنفُخُ فِيهِ فَيَكُونُ طَيْرًا بِإِذْنِ اللّهِ وَأُبْرِىءُ الأكْمَهَ والأَبْرَصَ وَأُحْيِي الْمَوْتَى بِإِذْنِ اللّهِ وَأُنَبِّئُكُم بِمَا تَأْكُلُونَ وَمَا تَدَّخِرُونَ فِي بُيُوتِكُمْ إِنَّ فِي ذَلِكَ لآيَةً لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ.

"Və (onu) İsrail övladına peyğəmbər göndərəcək. (İsa onlara deyəcək:) "Mən, Rəbbiniz tərəfindən sizə möcüzə gətirmişəm. Palçıqdan quşa bənzər bir surət düzəldib ona üfürərəm, o da Allahın əmrilə quş olar. Allahın iznilə anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın iznilə ölüləri diriltdərəm. Mən yediyiniz və evlərinizdə yığıb saxladığınız

[111] "Yusif" surəsi, ayə 3.

şeylərdən də sizə xəbər verərəm. Əgər imanınız olsa, heç şübhəsiz, bunlarda sizin üçün bir dəlil vardır".[112]

Burada da canlı bir şeyin yaranmasında Peyğəmbərlərin təsirini görürük; həzrət İsa (ə) bildirir ki, mən Allahın iznilə bunları edirəm, yəni bütün məsələlərdə Allahın izni əsas şərtdir. Əgər biz hər hansı bir işə görə kimisə çağırırıqsa, burada İlahi izni şərt bilirik. Deməli, gəldiyimiz nəticəyə əsasən, Allahdan başqasını çağırmaq hər halda ibadət sayılmır, yalnız ibadət məqsədilə çağırılsa, bu, ibadət sayıla bilər. Digər tərəfdən, bizim çağırdığımız kəslər şəhidlər, Allah övliyaları və s.dirlər ki, onlar Allah yanında diridirlər, uca məqam sahibidirlər.

## ÖLÜLƏRİ ÇAĞIRMAQ

Bizə tutulan iradlardan biri də ölüləri çağırmaq məsələsidir. İddia edirlər ki, "ölülər eşitmir və siz onlara ibadət edirsiniz". Bu iradı cavablandırarkən, ilk növbədə, onu qeyd etmək lazımdır ki, bizim çağırdığımız şəxslər şəhidlər və Allah yolunda öldürülən kəslərdir.

Əgər ölü şəxs olsa belə, onu çağırmaqda nə maneə ola bilər? Onların iradı ölülərin eşitməməsinədir.

Bu məqamda Peyğəmbər (s) və Əhli-sünnənin kitablarından ölülərin eşitdiyinə dair dəlillər gətirmək yerinə düşərdi.

"Səhih-Buxari"də belə bir hədis yer alır:

عن أنس رضي الله عنه، عن النبي صلى الله عليه وسلم قال: العبد إذا وضع في قبره وتولي وذهب أصحابه، حتى إنه ليسمع قرع نعالهم.

[112] "Ali İmran" surəsi, ayə 49.

“Peyğəmbər (s) buyurub: “Elə ki ölünü qəbrə qoyurlar və onun qohum-əqrəbası oradan uzaqlaşır, ölən şəxs onların ayaqlarının xışıltısını belə eşidir”.[113]

İbn Teymiyyənin “Fətə vəl-kubra lil imam Təqiyyudin ibn Teymiyyə” adlı kitabında ona belə sual verilir: “Quran oxumağın ölüyə bir savabı varmı?” İbn Teymiyyə cavab verir: “Sırf Quran oxumaqla ona savab verilməz”. Sonra isə deyir:

“Peyğəmbər (s) buyurub: “Meyyit ayaq səslərini eşidir, ona verilən salamları eşidir və bundan başqa şeyləri də eşidir”.[114]

Beləliklə, Əhli-sünnənin mötəbər saydığı mənbələrdən ölülərin eşitməsilə bağlı dəlillər təqdim etdik. Əgər biz Allahdan başqasını çağırırıqsa, bu, onlara ibadət etmək mənasında deyil və heç kəs bunu iddia etmir. Əksinə, biz onları bir vasitə hesab edirik, çünki Allah yanında məqam və hörmətləri var. Biz onlardan birbaşa olaraq istəmirik, həqiqətdə, vasitə olaraq istəyirik. Biri var birbaşa Allahdan istəyəsən, biri də var həmin şəxsləri müstəqil şəkildə nəzərdə tutub nəyisə istəyəsən. Məsələn, insan Allahı nəzərə almadan (yəni: “Mən Allahdan deyil, Peyğəmbərdən istəyirəm və Peyğəmbər də Allah kimi buna qadirdir” - deyərsə) birbaşa Peyğəmbərdən (s) istəsə ki, mənim filan hacətimi ver, bu şirkdir və haramdır. Amma biz Peyğəmbəri (s) vəsilə və şəfaətçi qismində nəzərdə tutub ondan bir şey istəsək, burada heç bir irad tutulacaq məqam yoxdur.

---

[113] “Səhih-Buxari”, hədis: 1273.
[114] “Fətə vəl-kubra lil imam Təqiyyudin ibn Teymiyyə”, c. 3, s. 34.

# "FATİHƏ" SURƏSİ, AYƏ 6

اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ.

**"Bizi doğru (düz) yola yönəlt!"**

**HƏRFİ TƏRCÜMƏ**

**اِهْدِ** "İhdi" – "Yönəlt", "hidayət et"

**نَا** "Na" – "Bizi"

**الصِّرَاطَ** "Əs-Sira̱t" – "Yol"

**الْمُسْتَقِيمَ** "Əl-Mustəqi̱m" – "Doğru**".**

**TƏFSİR**

Bu dəfə "**İhdinəs-siratəl-mustəqim"** ayəsini müzakirə edəcəyik. Ayənin zahiri tərcüməsi: "Bizi doğru yola yönəlt!" Bu ayə ilə əlaqədar İmam Həsən Əsgəri (ə) belə buyurur:

أَدِمْ لَنَا تَوْفِيقَكَ الَّذِي بِهِ أَطَعْنَاكَ فِي مَاضِي أَيَّامِنَا- حَتَّى نُطِيعَكَ كَذَلِكَ فِي مُسْتَقْبَلِ أَعْمَارِنَا.

"İlahi! Bugünə qədər bizim Sənə itaət etməyimizə yardım etdiyin və müvəffəqiyyət bəxş etdiyin kimi, bundan sonra da bizə yardım et ki, Sənə itaət edə bilək!"[115]

Allah-taala mömin və namaz qılıb ibadət edən bəndələrinə demək istəyir ki, siz də Məndən sizi doğru yola yönəltməyimi istəyin, yəni doğru yolda olsanız da, daima bunu Məndən istəyin, deyin: "**İhdinəs-siratəl-mustəqim".**

Bütün bunlardan anlaşılır ki, insan, doğru yolda olsa belə, anbaan Allahın doğru yola yönəltməsinə, istiqamətləndirməsinə möhtacdır.

Beləliklə, insan bu qanunauyğunluğu dərk etsə, təkəbbür və məğrurluq onda kök atmaz, öz əməllərinə arxalanmaz.

İmam Zeynəl-Abidin (ə) münacatlarından birində deyir:

---

[115] İmam Həsən Əsgəriyə (ə) mənsub olan təfsir, s. 44.

بِسْمِ اللهِ الَّذِي لَا أَرْجُو إِلَّا فَضْلَهُ وَ لَا أَخْشَى إِلَّا عَدْلَه.

"Mən ancaq Onun artıqlamsıyla olan ehsanına ümidvaram, və ancaq onun ədalətindən qorxuram..."[116]

Bəli, insan nə qədər ibadət etsə də, yenə Allahdan yardım istəməlidir ki, onu doğru yola yönəltsin. İnsan hər sahədə: məişətdə, ictimai, fərdi, dini, əxlaqi və dünyəvi işlərin hamısında Allahın istiqamətləndirməsinə möhtacdır. Bəndə öz Rəbbindən dünyəvi işlərdə ən xeyirli və səadət bəxş edən olana yönəltməsini istəməlidir. Tarix səhnəsindən o qədər şəxsiyyətlər keçmiş ki, bir məqama yüksəldikdən sonra əməllərindən qürrələnərək tutduğu mövgedən enmiş və zəlil, xar olmuşlar.

"Nəhcül-Bəlağə"də həzrət Əli (ə) İblisi misal çəkir:

فاعتبروا بما كان من فعل الله بابليس اذ احبط عمله الطويل، و جهده الجهيد، و كان قد عبد الله سته آلاف سنه، لا يدري امن سني الدنيا ام من سني الاخره، عن كبر ساعه واحده فمن ذا بعد ابليس يسلم علي الله بمثل معصيته؟ كلا، ما كان الله سبحانه ليدخل الجنه بشرا بامر اخرج به منها ملكا ان حكمه في اهل السماء و اهل الارض لواحد و ما بين الله و بين احد من خلقه هواده في اباحه حمي حرمه علي العالمين.

"Beləliklə, Allahın İblisə etdiklərindən ibrət alın, çünki onun uzun-uzadı əməllərini və çoxlu təlaşlarını (təkəbbür nəticəsində) məhv etdi. O, Allaha altı min il ibadət etmişdi və bunun dünya, yoxsa Axirət ili olması məlum deyil. Amma bir anlıq təkəbbürlə əməllərinin hamısını puç etdi. Belə isə, kiminsə İblisdən sonra həmin günahı etməklə amanda qalması mümkün ola bilərmi?! Xeyr! Əsla belə olmayacaq! Allah heç vaxt bir insanı, bir mələyini həmin əmələ görə cənnətdən çıxartdığı halda, eyni əməllə cənnətə daxil etməz. Allahın göylər və yer əhli barədəki əmri birdir.

---

[116] "Əl-bələdul-əmin", s. 109.

Allahla hər hansısa bir məxluqu arasında xüsusi dostluq rabitəsi yoxdur ki, bütün yaradılmışlara qadağan etdiklərini onun üçün rəva bilsin”.[117]

Allah-taala İblisi bu vəziyyətdə məqamından alçatdı. Nə üçün? Ona görə ki, o, bir an təkəbbürə qapıldı və həmin an da əməlləri puç oldu. Ona görə də hər an “İlahi, məni düz yola yönəlt !” ifadəsini dilə gətirməliyik!

İmam Həsən Əsgəri (ə) buyurur ki, “Siratəl-müstəqim”in biri dünyada, digəri isə Axirətdədir. Həzrət bir meyar təqdim edir və belə bildirir:

“Bu dünyadakı “düzgün yol” nə həddini aşmaq, nə də həmin xəttən kənara çıxmaq, yəni geridə qalmamaqdır. Bu yolda davamlı addımlasın və heç bir batilə tərəf yönəlməsin.

Qiyamətdəki “siratəl-müstəqim” möminlərin Cənnətə tərəf istiqamətlənməsidir və bu, doğru yoldur; həmin yol birbaşa Cənnətə doğru gedir, Cəhənnəmə və oda tərəf yönəlmir”. [118]

Bəli, məhz bu səbəbdən dualarımızda Allahın bizi doğru yola yönəltməsini istəyirik. Bu dünyadakı doğru yol heç bir həddi aşmamaq və heç bir səhlənkarlığa yol verməməkdir. Axirətdəki yol isə Cənnətə aparan yoldur.

İmam Sadiq (ə) **“İhdinəs siratəl-mustəqim”** ayəsinin təfsirində belə buyurur:

أَرْشِدْنَا إِلَى الطَّرِيقِ الْمُسْتَقِيمِ أَيْ أَرْشِدْنَا لِلُزُومِ الطَّرِيقِ الْمُؤَدِّي إِلَى مَحَبَّتِكَ وَ الْمُبَلِّغِ دِينَكَ وَ الْمَانِعِ مِنْ أَنْ نَتَّبِعَ أَهْوَاءَنَا فَنَعْطَبَ أَوْ نَأْخُذَ بِآرَائِنَا فَنَهْلِكَ.

“İlahi! Bizi Sənin məhəbbətinə gətirib çıxaran və sonu Sənin Cənnətin olan yola yönəlt! Nəfsi istəklərimizə mane olan yola yönəlt və bizi nəfsi istək, habelə şəxsi fikirlərimizə tabe olub həlak

[117] “Nəhcül-Bəlağə”, xütbə: 192.

[118] “Fatihətul-kitab” təfsiri, s. 140.

olmaqdan qoru. Elə et ki, düşüncə və əməlimiz Sənin dediyin kimi olsun!”[119]

Bəli, Qiyamətin çətin dayanacaqlarında əziyyətə düşməmək üçün halal-harama riayət etməli və pis işlərdən çəkinməlisən. Burada qaynar suya dözə bilmirsən, orada odun istisinə necə dözəcəksən?! Qazandıqlarının halal, ya haram olmasına fikir verməlisən!

İmam Sadiq (ə) bir hədisdə buyurur:

نحن صراط المستقيم.

“And olsun Allaha! “Sirat-mustəqim” biz Əhli-Beytik!”[120]

Bu hədisdən o nəticəyə gəlirik ki, Əhli-Beyt (ə) yolu və məktəbi bizi Allaha, Onun məhəbbət və Cənnətinə tərəf aparan həqiqi yoldur. Bu haqda hədislərimiz həddən artıq çoxdur.

Beləliklə, “İhdinəs-siratəl-mustəqim” deməklə Uca Yaradanımızdan həm dünyada, həm də Axirətdə Özünə tərəf aparan yola bizi hidayət etməsini istəyirik. Bizim hər gün 17 dəfə dilə gətirdiyimiz bir dua yoxdur, halbuki doğru yola yönəlmək üçün Allahdan 17 dəfə namazda istəyirik ki, hər bir işimizdə, sözümüzdə doğru yolda olaq.

“Sirat” sözü Qurani-Kərimdə tək halda işlənmişdir, cəm forması burada yer almır. “Yasin” surəsində Rəbbimiz sevimli Peyğəmbərimizə (s) belə buyurur:

عَلَىٰ صِرَاطٍ مُّسْتَقِيمٍ.

(Əla siratin mustəqim)

“Sən doğru yoldasan”.[121]

Allah-taaladan Qurani-Kərim hörmətinə bizi dünya və Axirətdə doğru yola yönəltməsini istəyirik!

---

[119] “Nurus-Səqələyn”, c. 1, s. 21.

[120] “Kənzud-dəqaiq və bəhrul həqayiq”, c. 4, s. 485.

[121] “Yasin” surəsi, ayə 4.

# “FATİHƏ” SURƏSİ, AYƏ 7

صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ.
“Nemət verdiyin kəslərin yoluna, Qəzəbinə gəlmişlərin və azmışların (yoluna) yox!”

**HƏRFİ TƏRCÜMƏ**

صِرَاطَ الَّذِينَ أَنعَمتَ “Siratəl-ləzi̲nə ən`əmtə ələyhim” – “O kəslərin yoluna yönəlt ki, onlara nemət vermişsən”.

صِرَاطَ “Sira̲t” – “Yol”

الَّذِينَ “Əl-ləzi̲nə” – “O kəslərin”

أَنعَمتَ “Ən`əmtə” – “Nemət” sözündəndir, mənası: “Nemət vermişsən”

عَلَيهِمْ “Ələyhim” – “Onlara”

غَيرِ “Ğəyril” – “başqa”, “nəinki”. Bir şeyi, yaxud bir kəsi istisna etmək üçün işlənən bir kəlmədir.

المَغضُوبِ “Məğbz̲ui - “Qəzəb” sözündəndir, mənası: “Qəzəb olunmuşlar”.

عَلَيهِمْ “Ələyhim” – “Onlara”

وَلاَ “Və lə” – “Və nəinki”. “Və” – bağlayıcı hərfidir, “Lə” isə inkar hərfidir.

الضَّالِّينَ “Za̲lli̲n” – “Yolunu azmışlar” “Zələlə” sözündəndir, mənası: “İtirmək”, “itkin düşmək”. Ərəblər itmiş şeyə “zallə” deyirlər.

**TƏFSİR**

Bundan öncəki dərsdə "Fatihə" surəsinin 6-cı ayəsi haqqında söhbət açdıq. Bu dərsimizi "Fatihə" surəsinin növbəti və sonuncu ayəsinə həsr etmək istərdik. Ayədə belə buyrulur:

صِرَاطَ الَّذِينَ أَنعَمتَ عَلَيهِمْ.

**"Nemət verdiyin kəslərin yoluna"**

غَيرِ المَغضُوبِ عَلَيهِمْ وَلاَ الضَّالِّينَ.

**"Qəzəbinə gəlmişlərin və azmışların (yoluna) yox!"**

Allah-taala iki qrupun – qəzəbə uğramış və zəlalətə düşmüş kəslərin yolunu ayırır. Onlar özlərini Allahın nemətindən məhrum edənlərdir. Təbii ki, ayədə sözügedən "nemət" dünyəvi nemətləri əhatə etmir. Belə ki, bu dünyada Allah həm zalımlara, həm kafirlərə, həm də mömin kəslərə nemət vermişdir. Bu səbəbdən də burada dünyəvi nemətlər deyil, iman və hidayət kimi mənəvi nemətlər nəzərdə tutulur; burada Allah-taalanın hidayət etdiyi və xalis tövhid maarifinə yiyələnmiş kəslərin yolu qəsd edilir.

İnsan bu kəlmələrlə Allah-taala ilə münacat edərək Ondan bu dünyada hidayət etdiyi və doğru yola yönəltdiyi kəslərin yoluna yönəltməsini istəyir. Həmin kəslər hidayət nəticəsində səadətə nail olmuş və ən böyük uğurlar qazanmışlar. Bu ayədə diqqət çəkən digər mühüm bir məsələ də odur ki, hidayət olmanın özü İlahi bir nemət kimi göstərilir; Allah-taala insanı hidayət etmişsə, ona bu dünyada ən gözəl neməti bəxş etmişdir.

İnsan, namazda olduğu kimi, "Fatihə" ilə yerinə yetirdiyi bütün ibadətlərində Allah-taaladan ilk olaraq bunu diləyir, gün ərzində ən azı 17 dəfə Uca Yaradandan bu neməti arzu edir. Əslində,

Allah-taala insana onu başa salmaq istəyir ki, gün ərzində Allahın sənə verdiyi nemətlər hara, hidayət olmaq neməti hara. Daha dəqiq desək, maddi nemətlər hidayət nemətinə çata bilməz və hidayət nemətinə bərabər olan digər bir nemət yoxdur.

İmam Əli (ə) bir hədisdə belə buyurur:

أفضَلُ الذُّخرِ الهُدی.

"Hidayət - ən qiymətli xəzinədir".[122]

Sual: Namaz qılıb ibadət edən bir şəxs nə üçün hər gün Allahdan hidayət olmasını istəməlidir?

**Cavab:**

Ona görə ki, insan hər an yolunu azıb imanını itirə bilər. Bəndənin üzünə açılan hər bir səhər onun üçün bir imtahan səhnəsidir. Tarixdə nə çox insan olub ki, sübh vaxtı iman əhli olsa da, zöhrə qədər imanını qoruya bilməyib və onu əldən verərək küfr içində dünyadan gedib. İnsan elə bir dünyada yaşayır ki, şeytan hər an onu həm gözəl işlərlə, həm də pisliklərlə aldadıb yoldan azdıra bilər. Bu eynilə uzaq səfərə çıxıb, amma yolu tanımayan bir şəxsin səfərinə bənzəyir; belə ki, o, məqsədə düzgün çatmaq üçün hər yol ayrıcında bələdçidən yardım alıb yol göstərməsini xahiş etməlidir. İnsanın gün ərzində etdiyi işlər, danışdığı sözlər, getdiyi yerlər, görüşdüyü, yoldaşlıq etdiyi kəslər, yediyi yeməklər, qazandığı və aldığı hər bir şey, bir sözlə, fərdi və ictimai həyatında qarşılaşdığı hər bir şey müxtəlif yol ayrıcları kimidir. Belə ki, o, hər gün on yeddi dəfə "Bizi düz yola hidayət et" deməklə, bütün bu yol ayrıclarında Uca Allahdan kömək diləyir və bununla belə demək istəyir: "İlahi, bizim bütün fərdi və ictimai işlərimizdəki yol ayrıclarımızda bizi düz yola hidayət et! Nə

[122] "Uyunul-hikəm vəl-məvaiz", s. 117.

danışığımızda, nə eşitdiklərimizdə, nə gördüklərimizdə, nə getdiyimiz yerlərdə, nə də yediyimiz yeməklərdə yolumuzu azmayaq! Sən bizi hər bir işdə doğru yola hidayət et!”

Uca Yaradanımız hər gün, ən azı, 17 dəfə bu diləyi istəməyi vacib etmişdir; bununla da bəndəsindən hər an, hər dəqiqə bu sözü dilə gətirməsini arzu edir. Bəlkə də bu səbəbdən, sevimli Peyğəmbərimiz həzrət Muhəmməd (s) və Əhli-beyti (ə) öz dualarında Allah-taalaya bu istəklərini bildirirdilər:

***“İlahi! Bizi özbaşımıza buraxma!***

Əbu Yəfur bunları nəql edir: “Bir gün İmam Sadiqin (ə) əllərini səmaya qaldırıb belə dua etdiyini gördüm:

عَنِ ابْنِ أَبِي يَعْفُورٍ قَالَ سَمِعْتُ أَبَا عَبْدِ اللَّهِ (ع) يَقُولُ وَ هُوَ رَافِعٌ يَدَهُ إِلَى السَّمَاءِ- رَبِّ لَا تَكِلْنِي إِلَى نَفْسِي طَرْفَةَ عَيْنٍ أَبَداً لَا أَقَلَّ مِنْ ذَلِكَ وَ لَا أَكْثَرَ قَالَ فَمَا كَانَ بِأَسْرَعَ مِنْ أَنْ تَحَدَّرَ الدُّمُوعُ مِنْ جَوَانِبِ لِحْيَتِهِ.

“İlahi! Məni bir göz qırpımı qədər də - hətta nə bundan az, nə də bundan çox - özbaşıma buraxma!”

Bunu söylədikdən sonra Həzrətin göz yaşlarının mübarək saqqalından axdığını gördüm”.[123]

Deməli, insan bütün həyatı boyu, bir göz qırpımı qədər olsa belə, Allahın hidayət və nəzərindən ehtiyacsız ola bilməz. Bəli, Allah, bir göz qırpımı qədər belə, Öz nəzərini insanın üzərindən çəksə, o, azğınlığa düçar olub həlakətə sürüklənər.

Sözügedən ayədə insanlar üç dəstəyə bölünür.

**Birinci** dəstə Allahın hidayət, iman və tövhid nəsib etdiyi kəslərdir. Bu, daima Allahın rəhmət nəzərində olan insanlardır ki,

---

[123] “Əl-Kafi”, c. 2, s. 581.

bütün möminlər onlara qovuşmağı arzu edir və onların sırasında olmağı Uca Yaradanımızdan diləyir.

**İkinci** dəstəyə Allahın qəzəbinə düçar olanlar daxildir.

**Üçüncü** dəstəni isə yolunu azmış insanlar təşkil edir. Bu bir daha onu göstərir ki, Allahın hidayət nemətindən özlərini məhrum edənlərin aqibəti bu iki dəstədən fərqli olmayacaq. Bələdçisiz səfərə çıxanlar ya yolda azır və sərgərdan qalır, ya da yolun kənarında canlarını əldən verib həlak olurlar. Allaha doğru olan bu səfər də belədir. Kim bələdçilə yola çıxsa, məqsədə çatacaq, hidayət olunaraq nemət verilmiş insanlara qoşulub son məqsədə nail olacaqdır. Bələdçisiz yola çıxanlar isə həlak olaraq özlərini bədbəxtliyə düçar edəcəklər.

Qeyd etdiyimiz kimi, sözügedən ayədə Allahın nemət verdiyi kəslərdən söz açılmışdır. Allahın nemət verdiyi kəslər kimlərdir? Bunun cavabı elə Qurani-kərimin digər bir ayəsində açıqlanır. Belə ki, Allah-taala "Nisa" surəsində belə buyurur:

وَمَن يُطِعِ اللّهَ وَالرَّسُولَ فَأُوْلَـئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللّهُ عَلَيْهِم مِّنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَدَاء وَالصَّالِحِينَ وَحَسُنَ أُولَـئِكَ رَفِيقاً.

"Allaha və Peyğəmbərə itaət edənlər (Qiyamət günü) Allahın nemətlər verdiyi nəbilər (peyğəmbərlər), siddiqlər (doğru danışanlar, sədaqətli olanlar, etiqadı düzgün olanlar), şəhidlər və salehlərlə (yaxşı əməl sahibləri ilə) bir yerdə olacaqlar. Onlar gözəl yoldaşlardır!"[124]

Aydə bildirilir ki, Allaha və Peyğəmbərə (s) itaət edənlər Yaradanın nemət verdiyi kəslərlə birlikdə olacaq.

---

[124] "Nisa" surəsi, ayə 69.

Allahın nemət verdiyi kəslərin kim olmasını isə həmin ayənin davamında Allah-taala bildirir. Bu: nəbilər (peyğəmbərlər), siddiqlər (əqidəsində və əməlində ən doğru insanlar), sədaqətli olanlar, şəhidlər və salehlərdir (yaxşı əməl sahibləri).

Ayənin sonunda Allah-taala buyurur ki, yoldaşlıq baxımından da onlar üstün şəxslərdir. Beləliklə, insan namaz ibadətini icra edərkən gündə bir neçə dəfə Allahdan özünü peyğəmbərlər, siddiqlər, şəhidlər və yaxşı əməl sahibləri ilə yoldaş etməsini istəyir. Məni qəzəb etdiyin və yolunu azmış insanlardan uzaq et! Bir məsəl var: "Könlü balıq istəyən quyruğunu suya vurar", yəni bu kimi insanlara qoşulmaq istəyənlər gərək həyatlarında onları özü üçün örnək qərar versin. Daha dəqiq desək, bəndə əməldə buna səy göstərməli və yolunu azmış insanlardan uzaq olmalıdır. Elə onlardan uzaq olmaq da böyük nemətlərdəndir. Nəticə etibarilə də əməlisalehlərin yoldaşlığı  insan üçün böyük bir nemətdir.

Həzrət Əli (ə) buyurur:

لَيْسَ هَؤُلَاءِ الْمُنْعَمَ عَلَيْهِمْ بِالْمَالِ وَ صِحَّةِ الْبَدَنِ، وَ إِنْ كَانَ كُلُّ هَذَا نِعْمَةً مِنَ اللهِ ظَاهِرَةً أَ لَا تَرَوْنَ أَنَّ هَؤُلَاءِ قَدْ يَكُونُونَ كُفَّاراً، أَوْ فُسَّاقاً فَمَا نُدِبْتُمْ ﴿إِلَى﴾ أَنْ تَدْعُوا بِأَنْ تُرْشَدُوا إِلَى صِرَاطِهِمْ، وَ إِنَّمَا أُمِرْتُمْ بِالدُّعَاءِ- لِأَنْ تُرْشَدُوا إِلَى صِرَاطِ الَّذِينَ أَنْعَمَ ﴿اللهُ﴾ عَلَيْهِمْ: بِالْإِيمَانِ بِاللهِ، وَ التَّصْدِيقِ بِرَسُولِهِ.

"Nemət verilən şəxslərdən məqsəd, sağlamlıq və mal-dövlət kimi nemətlər verilən kəslər deyildir. Baxmayaraq ki bütün bunlar da Allah taaladan zahiri dünyəvi nemətlərdir. Kafir və fasiqləri görürsünüzmü? (Dünyəvi nemətlər kafirlərdə də var). Ona görə də sizdən, Allahın sizi onların yoluna hidayət etməsi istənilməmişdir. Allah-taala sizdən istəmişdir ki, Allaha iman və

Onun Rəsuluna itaət kimi nemətərin verildiyi kəslərin yoluna hidayət olmanızı diləyəsiniz”.[125]

Gördüyümüz kimi, Həzrət buyurur ki, sizə Allahdan belə istəmək əmr olunmuşdur. Bəndənin Allahdan hər an özünü doğru yola yönətlməsini istəməsi onu göstərir ki, insanın bütün həyatı boyu peyğəmbərlər və onlar kimi şəxsiyyətləri özü üçün örnək qərar verməyə ehtiyacı var. Məsələn, hətta kiçik bir uşaqdan böyüyəndə kimə bənzəmək istədiyini soruşduqda, əgər əmisi və ya hər hansı bir tanıdığı idmançıdırsa, güclüdürsə, ona oxşamaq istədiyini bildirir. Yaxud da həyatında sevdiyi başqa bir şəxsi misal çəkir. Uca Yaradanımız da “Fatihə” surəsində insana gündə bir neçə dəfə özünü kimə oxşadacağını Allahdan istəməyi əmr edir. Daha dəqiq desək, insan özünü ən böyük və dəyərli nümunə olan peyğəmbərlər, siddiqqlər, saleh insanlar, şəhidlərlə yoldaş və dost etsin.

Bu şəxsiyyətlər insanın həyatında ən üstün örnəklərdəndir və onun səadətli həyat sürməsi üçün təsirli olan kəslərdir.

وَلاَ الضَّالِّينَ المَغضُوبِ عَلَيهِمْ **“Qəzəbinə gəlmişlərin və azmışların”** ifadəsinə dair bir çox hədislər nəql olunmuşdur. Onlar müxtəlif mənalar irəli sürür. Belə ki, yəhudilər, müşriklər və kafirlər yolunu azmışlardan olduğu açıqlanır. Onlar Allah qarşısında üsyan edənlərdir.

İmam Sadiq (ə) bir hədisdə belə buyurur:

عَنْ أَبِي عَبْدِ اللهِّ (ع) قَالَ الْمُغْضُوبُ عَلَيْهِمْ النُّصَّابُ وَ الضَّالِّينَ الْيَهُودُ وَ النَّصَارَى.

“Allahın qəzəb etdiyi kəslər nasibilərdir, yəni Əhli-Beytə (ə) düşmən olan kəslərdir. Yollarını azmışlar isə yəhudi və nəsranilərdir”.[126]

---

[125] “Biharul-ənvar”, c. 24, s. 10.

“Zallin” kəlməsi “zallə” sözündəndir. “Zallə” “itmiş bir şey” mənasını bildirir. Yolunu azan insanlar da səadət və hidayət yolunu itirdiyi üçün onlara “zallin” deyilir.

## SON

[126] “Biharul-ənvar”, c. 89, s. 230.

# MÜNDƏRİCAT

MÜQƏDDİMƏ ....................................................................................... 3

TƏFSİR ELMİNİN TARİXİ ........................................................................ 14

ƏHLİBEYTİN (Ə) QURAN TƏFSİRİNDƏKİ ROLU .................................. 21

"FATİHƏ" SURƏSİNİN ADLARI ............................................................ 28

"FATİHƏ" SURƏSİNİN FƏZİLƏTLƏRİ ................................................... 34

"ALLAH, MUHƏMMƏD, YA ƏLİ" ........................................................... 48

"BİSMİLLAHİR RƏHMANİR RƏHİM"İN SAYI ....................................... 52

"FATİHƏ" SURƏSİ, AYƏ 2 ..................................................................... 58

"FATİHƏ" SURƏSİ, AYƏ 2 (ARDI) ......................................................... 63

"FATİHƏ" SURƏSİ, AYƏ 3 ..................................................................... 68

"FATİHƏ" SURƏSİ, AYƏ 4 ..................................................................... 72

"FATİHƏ" SURƏSİ, AYƏ 5 ..................................................................... 78

DİGƏRLƏRİNDƏN KÖMƏK İSTƏMƏK ................................................... 82

ÖLÜLƏRİ ÇAĞIRMAQ ........................................................................... 90

"FATİHƏ" SURƏSİ, AYƏ 6 ..................................................................... 92

"FATİHƏ" SURƏSİ, AYƏ 7 ..................................................................... 96